Azərbaycan Milli Elmlər Akademiyası
akademik Z.M. Bünyadov adına Şərqşünaslıq İnstitutu

# İNGİLİS ŞƏRQŞÜNASI MAYKL AKSVÖRTİNİN “NADİR ŞAH” KİTABININ AZƏRBAYCAN DİLİNƏ TƏRCÜMƏSİ VƏ TARİXŞÜNASLIQ ELMİNİN VƏZİFƏLƏRİ

Bakı-Elm-2018

**Elmi redaktor:** *akademik* **İsa Həbibbəyli**
**Məsul redaktor:** *akademik* **Gövhər Baxşəliyeva**
**Tərtibçi:** *f.ü.f.d., dosent* **Ruhəngiz Cümşüdlü**

**İngilis şərqşünası Maykl Aksvörtinin "Nadir şah" kitabının Azərbaycan dilinə tərcüməsinin təqdimatı.**
22 iyun 2018-ci il. Bakı, "Elm" nəşriyyatı, 2018, 100 səh.

*Elmi ictimaiyyətə təqdim olunan bu kitabda Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin ideya müəllifliyi, elmi redaktorluğu və geniş ön sözü ilə nəşr edilmiş ingilis şərqşünası Maykl Aksvörtinin "Nadir şah" monoqrafiyasının 22 iyun 2018-ci il tarixdə Milli Elmlər Akademiyasında keçirilmiş təqdimat mərasimində edilmiş məruzələr və çıxışlardan ibarət məqalələr toplanmışdır.*

**İSBN 978-9952-514-67-4**

*© "Elm" nəşriyyatı, 2018*
*© AMEA akad. Z.M. Bünyadov adına Şərqşünaslıq İnstitutu, 2018*

**İsa HƏBİBBƏYLİ**
*Azərbaycan Milli Elmlər Akademiyasının*
*vitse-prezidenti, akademik*

# MİLLİ DÖVLƏTÇİLİK TARİXİMİZİN SALNAMƏSİ VƏ DƏRSLƏRİ



Azərbaycan Respublikası dövlət müstəqilliyi qazandıqdan sonra ölkəmizdə soykökə, milli-tarixi irsin, görkəmli ədəbi-tarixi şəxsiyyətlərimizin həyatı və mübarizəsinin dərindən öyrənilib yenidən qiymətləndirilməsinə böyük dönüş prosesi baş vermişdir. Eyni zamanda, elmin metodologiyası dəyişmiş, sovet ideoloji prinsiplərini real milli elmi mövqe və dövlətçilik maraqları əvəz etmişdir. İctimai və humanitar elmlər sahəsində yaşanan bu prosesdə yaranan əsərlər içərisində Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin sanballı tədqiqatları xüsusi çəkiyə malikdir və örnək hesab oluna bilər.

Akademik Ramiz Mehdiyev özünün sanballı tədqiqatları ilə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin və ölkəmizin Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə ardıcıl

surətdə və yüksək səviyyədə həyata keçirilən yeni cəmiyyət quruculuğunun elmi-fəlsəfi əsaslarını yaratmışdır. Akademik Ramiz Mehdiyev ölkəmizin ideoloji həyatının siyasi və elmi əsaslarına çevrilmiş dərin məzmunlu mükəmməl fəlsəfi əsərlər meydana qoymuş görkəmli elm və dövlət xadimidir. Bu cəhətdən akademik Ramiz Mehdiyevin elmi əsərləri həm də istiqamətvericilik xüsusiyyətinə malik olan aktual və əhəmiyyətli tədqiqatlardır.

Akademik Ramiz Mehdiyevin həm dövlətçilik fəaliyyətində, həm də elmi əsərlərində azərbaycançılıq, tarixdə şəxsiyyətin rolu, ümummilli liderlik missiyası, müasirlik və modernləşmə prosesləri ilə əlaqədar məsələlər ardıcıllıq təşkil edir. Ümumiyyətlə, Ramiz Mehdiyevin elmi və ideoloji fəaliyyəti üçün səciyyəvi olan bu prinsiplər onun tarixi mövzuda yazılmış elmi əsərləri üçün daha böyük üstünlüyə malikdir. Fikrimizcə, 2018-ci ildə Moskvada çap olunmuş «Qlobal dəyişmələr epoxasında Azərbaycanda milli ideya» adlanan 2 cildlik sanballı nəşr akademik Ramiz Mehdiyevin azərbaycançılıq və milli dövlətçilik konsepsiyasının ən mükəmməl, ümumiləşdirilmiş siyasi və elmi təqdimatından ibarətdir.

İxtisas etibarilə tarixçi olan akademik Ramiz Mehdiyevin tarixi mövzulara yenidən qayıdışı ilə ictimai və humanitar elmlər sahəsində tarixi şəxsiyyətlərə və tarixi mövzulara münasibətin yeni istiqaməti müəyyən olunmuşdur.

İlk növbədə onu qeyd etmək lazımdır ki, Ramiz müəllim tarixi şəxsiyyətlərin həyatına və mübarizəsinə tarixin reallıqları əsasında və azərbaycançılıq mövqeyindən yanaşıb qiymətləndirməyin elmi-nəzəri konsepsiyasını yaratmışdır.

İkinci və ən əsası isə akademik Ramiz Mehdiyev son illərdə nəşr etdirdiyi yüksək elmi qiymətə malik olan əsərləri ilə tarixi şəxsiyyətlər haqqında necə yazmağın nümunəsini göstərmişdir.

Akademik Ramiz Mehdiyevin "Şah İsmayıl Səfəvi. Hökmdarın və döyüşçünün portreti" monoqrafiyası (2014) Azərbaycanda və xarici ölkələrdə haqqında çox yazılmış Şah İsmayıl Xətainin

çoxcəhətli fəaliyyətini və dövlətçilik sahəsindəki xidmətlərini tam yeni elmi baxış əsasında, fərqli səviyyədə təqdim edən şah əsərdir. Ramiz Mehdiyev Şah İsmayıl Xətainin simasında Azərbaycan xalqının müstəqil dövlət yaratmaq istedadını meydana qoymuşdur. Eyni zamanda, akademik Ramiz Mehdiyevin rəhbərliyi ilə hazırlanmış «Şah İsmayıl Xətai. Diplomatik yazışmalar» kitabında ilk dəfə elmi ictimaiyyətə təqdim olunmuş məktublar və sənədlər Səfəvilər dövləti ilə yanaşı, həm də geniş mənada orta əsrlər Azərbaycan tarixinin yenidən öyrənilməsinə əsas verən mühüm tarixi mənbələrdir. Ramiz müəllimin əsərlərində yeni sənədlərin təqdimatı ilə dövrün, hadisələrin və şəxsiyyətlərin vəhdətdə təqdim olunması nəticə etibarilə epoxanın mahiyyətini, tarixin axarını bütün yönləri ilə dərindən başa düşməyə və obyektiv mövqedən qiymətləndirməyə geniş imkan yaradır. Azərbaycan Xalq Cümhuriyyəti dövrünün hadisələrinə və şəxsiyyətlərinə ciddi surətdə aydınlıq gətirən «ADP-İran diplomatik münasibətləri Fövqəladə Təhqiqat Komissiyasının sənədlərində» (2017) adlı kitaba akademik Ramiz Mehdiyev tərəfindən yazılmış geniş müqəddimə və sözardı son illərdə elmi dövriyyədə xüsusi yer tutan bu tarixi dövrün hadisələrinə müstəqil dövlətçilik mövqeyindən yanaşmağın mükəmməl elmi nəticəsidir.

Bundan başqa, həmmüəllifi olduğu "Nəriman Nərimanov. Məktublar. Qarabağ məsələsinə dair sənədlər" (2017) kitabı Azərbaycan dövlətçilik tarixində özünəməxsus mühüm yeri olan görkəmli yazıçı və dövlət xadimi olan bu böyük şəxsiyyətin xalqımız və ölkəmizlə əlaqədar fəaliyyətinin naməlum və çox əhəmiyyətli səhifələrinə işıq salır.

Azərbaycanın qüdrətli tarixi şəxsiyyətlərinin yenidən öyrənilməsi və xalqa çatdırılması baxımından akademik Ramiz Mehdiyevin görkəmli dövlət xadimi Nadir şah Əfşara həsr olunmuş tədqiqatları mühüm əhəmiyyətə malikdir. Şah İsmayıl Xətai ilə müqayisədə həyatı, mübarizəsi və dövlətçilik fəaliyyəti az öyrənilmiş

Nadir şah Əfşara həsr edilmiş tədqiqatları ilə akademik Ramiz Mehdiyev Azərbaycan tarixşünaslığında mövcud olan böyük bir boşluğu doldurmuşdur. İndiyədək Azərbaycan tarixçilərinin Nadir şah Əfşar haqqında nəinki heç bir kitabının çap olunmadığını, hətta bu barədə barmaq ilə sayılacaq qədər az məqalələr yazıldığını nəzərə alsaq, onda akademik Ramiz Mehdiyevin bu böyük tarixi şəxsiyyətə dair tədqiqatlarının nə qədər böyük əhəmiyyətə malik olduğu bir daha əyani şəkildə aydınlaşa bilər. Əslində Ramiz Mehdiyev Azərbaycan elmində nadirşahşünaslığın elmi təməllərini atmış, mükəmməl nəzəri-tarixi əsaslarını yaratmışdır. Onun 2015-ci ildə nəşr olunmuş «Nadir şah Əfşar. Diplomatik yazışmalar» kitabı ilə bu qüdrətli dövlət xadimi haqqında tədqiqatların mükəmməl bir nümunəsi meydana qoyulmuşdur. İlk dəfə çoxsaylı yazışmaları və sənədləri elmi dövriyyəyə daxil edən və bu fonda Nadir şah Əfşarın tarixdəki yerini və rolunu obyektiv surətdə dəyərləndirən Ramiz Mehdiyev həm də Səfəvi hökmdarlarından, o cümlədən də Nadir şah Əfşardan Azərbaycan milli dövlətçilik tarixinin real faktı kimi söz açmağın, bəhs etməyin əsasını qoymuş, nümunəsini göstərmişdir. Ramiz müəllimin təqdim etdiyi faktlar və sənədlər, həmçinin irəli sürdüyü nəzəri arqumentlər həmin ideyanın elmi cəhətdən təsdiq olunmasını şərtləndirir.

Tanınmış ingilis şərqşünası Maykl Aksvörtinin «İranın qılıncı. Nadir şah: tayfa döyüşçüsündən müstəbid fatehədək» adlı dünya tarixşünaslığında qəbul olunmuş ciddi bir əsərini Azərbaycan cəmiyyətinə təqdim etməsi akademik Ramiz Mehdiyevin ölkəmizdə ictimai və humanitar elmlərin inkişafına göstərdiyi növbəti bir xidmətdir. Monoqrafiyada Səfəvi sülaləsinin qürubundan Nadirin hakimiyyətə gəlməsinə, mərkəzləşdirilmiş Azərbaycan dövlətinin yenidən dirçəldilərək möhkəmləndirilməsinə, sərhədlərinin daha da genişləndirilməsinə qədərki bütün təfərrüatlar inandırıcı surətdə təsvir edilmişdir. Dialoq baş tutmadıqdan sonra Osmanlı hakimiyyəti ilə müharibəyə girişməsi, Əfqanıstanda və Hindistanda əl-

də etdiyi ərazilər Nadir şahın dövlətçilik qabiliyyəti və sərkərdəlik məharətini səciyyələndirən əsas xüsusiyyətlər kimi təqdim olunmuşdur. Ona görə də bu əsər Nadir şah Əfşar dövrünün salnaməsi təəssüratı yaradır. Akademik Ramiz Mehdiyevin Maykl Aksvörtinin Azərbaycan oxucusuna «Nadir şah» adı ilə təqdim edilən kitabına yazdığı 70 səhifəlik sanballı müqəddimə geniş mənada Nadir şahın hakimiyyətinin bütün istiqamətlərini və əsl mahiyyətini açıb göstərən ciddi və sistemli bir elmi-tədqiqat işidir. «Azərbaycan nəşrinin elmi redaktorundan» ümumi başlığı ilə verilmiş müqəddimədə «Qərb tarixşünaslığında Nadir şah mövzusu. Tarixə bir nəzər» problemi eninə və dərininə olmaqla tam halda araşdırılıb oxuculara çatdırılır. Müəllif tədqiqatını «bir nəzər» adlandırsa da, əslində müqəddimədə Nadir şah mövzusu bütün yönləri ilə əsaslı şəkildə işıqlandırılır. Akademik Ramiz Mehdiyev özünün həmişə sadiq qaldığı azərbaycançılıq ideyasından və milli dövlətçilik prinsiplərindən çıxış edərək Nadir şah Əfşarın möhtəşəm siyasi portretini canlandırmışdır. Həmçinin «Bir nəzər»də Nadir şah haqqında mövcud olan ziddiyyətli məqamlara da həm elmi, həm də siyasi cəhətdən aydınlıq gətirilmişdir. Bu mənada akademik Ramiz Mehdiyevin «Qərb tarixşünaslığında Nadir şah» mövzusunda təqdim etdiyi müqəddimə Azərbaycan dövlətçiliyində xüsusi yer tutmuş həmin tarixi epoxaya dair bütün əsas nəzərləri tam halda və ümumiləşdirilmiş şəkildə əks etdirən sistemli və əhəmiyyətli bir tarixi tədqiqatdır.

Geniş ictimaiyyətə və oxuculara təqdim olunan «Nadir şah» kitabı müasir dövr üçün də mühüm əhəmiyyətə malikdir. Azərbaycan xalqının qədim və zəngin dövlətçilik ənənələrini və böyük tarixi simalarını diqqət mərkəzinə çəkən bu əsər hazırkı dövlət müstəqilliyi dövründə keçilmiş yolun dərslərindən yaradıcı şəkildə öyrənmək və tarixi şəxsiyyətlərimizə sahib çıxmaq baxımından, habelə vətənpərvərlik cəhətdən son dərəcə qiymətli mənbədir. Akademik Ramiz Mehdiyev də Maykl Aksvörtinin “Nadir

şah" kitabının müasir dövr üçün siyasi və elmi əhəmiyyətini yüksək qiymətləndirərək yazmışdır: "Şübhə etmirəm ki, ingilis aliminin ana dilimizə tərcümə olunmuş əsəri cəmiyyətimiz tərəfindən maraqla qarşılanacaq … və ən əsası hər bir azərbaycanlının yaddaşında Nadir şah mövzusunu yenidən təzələyəcək. Bu kitab Azərbaycan dilində Nadir şah Əfşarla bağlı elmi mənbə boşluğunun da aradan götürülməsi üçün irəliyə doğru atılmış addım kimi təqdirəlayiqdir. Belə təşəbbüslərin davam edəcəyinə ümid edir və inanıram ki, tariximizlə, mədəniyyətimizlə bağlı sanballı elmi mənbələrin yazılması və tərcüməsi milli kimliyimizi dərk etmək yolundakı işimizi xeyli asanlaşdıracaqdır". İnanıram ki, ictimai və humanitar elm sahələrini təmsil edən institutlarımız və alimlərimiz üçün «Nadir şah» kitabı və əsərə yazılmış qiymətli müqəddimə həmin tarixi dövrü, qüdrətli Azərbaycan hökmdarı Nadir şah Əfşarın həyatı və mübarizəsini və görkəmli şəxsiyyətləri araşdırıb öyrənmək üçün faydalı elmi mənbə olacaqdır. Eyni zamanda, Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin ideya müəllifliyi, elmi redaktorluğu və dərin məzmunlu geniş müqəddiməsi ilə nəşr olunmuş tanınmış ingilis şərqşünası Maykl Aksvörtinin "Nadir şah" kitabının təqdimatı mərasimində edilmiş məruzə və çıxışların mətnlərindən ibarət olan bu məqalələr toplusu da çəkilmiş böyük zəhmətə elmi qiymət verilməsi ilə bərabər, həm də Azərbaycan dövlətçilik tarixinin böyük bir epoxası haqqında əhəmiyyətli bir mənbə ola biləcəkdir. Azərbaycan tarixşünaslıq elmi Qərb tarixçilərinin əsərlərini diqqətlə və dərindən öyrənməli, Azərbaycan tarix elminin mənbəşünaslıq bazasını daha da genişləndirməli və zənginləşdirməlidir.

**Nərgiz AXUNDOVA**
*AMEA-nın İctimai Elmlər Bölməsinin*
*akademik-katibi, akademik*

# MAYKL AKSVÖRTİNİN "NADİR ŞAH"I VƏ AZƏRBAYCAN TARİXŞÜNASLIĞI



Nadir şahın həyat yolu dünyanın digər böyük fatehlərinin yaşadıqları həyata bənzəyir. O, yoxsulluq içində doğulmuş, şöhrətə aparan uzun yol keçmiş və nəticədə (bir tarixi xronika göstərdiyi kimi) dövlətin taxt-tacı onu öz qoynuna qəbul etmişdir. Bu gün də onun və dövləti haqqında bir çox açılmamış və yaxud təhrif olunmuş məqamlar az deyil. Tədqiqatçıların maraq dairəsində Nadir şahın Səfəvilərdən sonra sülalə qurması, Əfşarların dövlət dili, din siyasəti, islahatları, Azərbaycan vilayətini qurma səbəbləri və s. suallar qalmaqdadır.

Təqdimatı keçirilən "İranın qılıncı. Nadir şah: tayfa döyüşçüsündən müstəbid fatehədək" İngiltərənin tanınmış iranşünası Maykl Aksvörti tərəfindən yazılmış və 2006-cı ildə ilk dəfə nəşr olunmuşdur. Qeyd etmək lazımdır ki, XVIII əsr Şərq tarixi Qərb alimlərinin diqqət mərkəzində olmuş, burada yaranan dövlətlərin, görkəmli şəxsiyyətlərin tarixləri geniş elmi araşdırmaların mövzularına çevrilmişdir. Sözügedən kitabda da Səfəvi dövlətinin dağılmasından başlayan tarixi hadisələr Nadir şahın ölümünə qədər izlənilib.

Monoqrafiyada yeni mənbələr cəlb olunmaqla, Nadir imperiyasının yaranmasının və süqutunun səbəblərinin daha müasir izahatı, bəzi tarixlərin dəqiqləşdirilməsi verilmişdir. Qərb alimləri arasında qəbul olunmuş, oxunaqlı, bir qədər ədəbi dildə yazılmış əsərdə həm də Nadir şah haqqında rəvayətlər, əfsanələrdən də istifadə olunub ki, bu, kitabı nəinki alimlər, geniş oxucu kütləsi üçün də maraqlı edir. Lakin əsərdə iqtibasların, elmi aparatın olmaması tədqiqatçılar üçün istifadə olunmuş ədəbiyyatları dəyərləndirməkdə çətinlik yaradır. Ümumiyyətlə isə, tədqiqat Nadir şah dövrünə aid və tarixdə təsbit olunan müddəalara yenidən baxır və onun fəaliyyətinin məqsəd və nəticələrinə fərqli yanaşmaları ilə seçilir.

Məlumdur ki, XVIII əsrin əvvəlləri üçün artıq iqtisadi və siyasi böhran yaşayan Səfəvi dövləti zəifləmiş, əfqan tayfalarının hücumlarına və işğallarına məruz qalmış, dini qarşıdurmalarla üzləşmişdir. Bu zaman qonşu imperiyaların – Rusiya və Osmanlı dövlətlərinin diqqəti zəifləmiş Səfəvilərə yönəlmişdir. Aparılan hərbi əməliyyatlar nəticəsində Səfəvi dövləti əfqanlar, türklər və ruslar arasında bölünmüş oldu. 1724-cü ildə Rusiya və Osmanlı imperiyası arasında tərəflərin Azərbaycanda və Qafqazda işğallarını qanunlaşdıran müqavilə də imzalandı.

Milli ruhun dirçəlişi 1726-cı ildən, Nadirqulu xanın II Təhmasib xanla birləşməsindən sonra başladı. 1729-cu ildə əfqanları məğlub edən Nadir İsfahanı, 1730-cu ildə isə Azərbaycanı Osmanlılardan azad etdi, Rusiya ilə 1732-ci ildə Astrabad, Mazandaran və Gilan əyalətlərinin qaytarılması haqqında saziş imzaladı.

Səfəvi dövlətinin sərhədlərini bərpa edəndən sonra Nadir, qədim türk adəti ilə 1736-cı ildə Muğan düzündə qurultay çağırdı və burada şah elan edildi. Hakimiyyətə gələn Nadir ölkəsinin dövlət quruluşunu dəyişdi. Xəzinəyə daxil olan pul vəsaitlərinə nəzarət məqsədi ilə dövlət dörd yerə bölünmüşdü və onların başında dayanan məmurlar hər bölmənin maliyyə hesabatlarını şaha təqdim etməli idilər.

Nadir şah Azərbaycanın və İranın ilk müsəlman hökmdarı idi ki o, dövlətə məxsus dəniz donanmasının əhəmiyyətini dərk etmiş və nəinki Xəzərdə, Fars körfəzində də onu yaratmağa başlamışdı.

Zamanında əfqanlara dəstək vermiş zərdüştlüyün nümayəndələrindən başqa bütün dini azlıqlara Nadir şah çox tolerant münasibət bəsləmişdir. Hətta o dövrün yəhudiləri üçün onun hakimiyyət illəri çiçəklənmə və şiə ruhanilərinin təzyiqindən qurtulma dövrü hesab edilir.

Taxta çıxan Nadirin dini islahatı da çoxməqsədli olmuşdur. O, ordudakı çoxsaylı sünnilərin hakimiyyətə sədaqətini artırmışdır. Öz ölkəsini sünniliyə keçmiş kimi təqdim etməsi Nadir şaha imkan verirdi ki o, Osmanlı soltanı ilə rəqabətə girib, müsəlman dünyası üzərində hakim olsun. Bu isə imperiyanın şiə ideologiyası altında qalması ilə mümkünsüz idi. Beləliklə, Cəfəri məzhəbinin qəbul olunmasını elan edən Nadir şah Osmanlılara bir çağırış atmış, lakin onlar Cəfəri məzhəbinin tanınmasına qətiyyətlə qarşı çıxmışlar. Nadir hər bir vasitə ilə istəyinə nail olmağa çalışırdı, Osmanlı imperiyasına həm diplomatik (emissarlarını göndərir, yazışmalar aparır və s.) və həm də hərbi təzyiqlər edirdi.

1743-cü ildə Nadir şah Nəcəfdə din xadimlərinin görünməyən bir məşvərətini təşkil etdi, 70 nəfərlik İran nümayəndəliyi ilə yanaşı, burada onun işğal etdiyi ərazilərdən – Mərkəzi Asiya və Əfqanıstandan, həm də Bağdad, Kərkük, Kərbəla və s. alimlər iştirak etmişdir. Onlar ortaq bir məxrəcə gələ bilmiş və ümumi bir sənəd də imzalamışlar. Lakin Osmanlı imperiyası ilə sülh müqaviləsi ancaq 1746-cı ildə, Nadir şahın Cəfəri məzhəbini tanımaq tələbini aradan götürəndən sonra baş tutmuşdur.

Məşhur Hindistan səfəri də müzakirə olunan kitabda geniş yer tutur. Dehlinin fəthindən sonra Nadir şah Mərkəzi Asiyaya səfər etmiş, özbəklərin və türkmənlərin çıxışlarını yatırtmış, Osmanlılarla yeni bir qələbə ilə nəticələnən müharibəni də tamamlamışdır. Müəllif göstərir ki, Hindistan səfərindən sonra Nadirin həyatı enən xətlə

davam etmış, o müəyyən sarsıntılar keçirmiş, xasiyyətinin mənfi tərəfləri güclənmiş və nəticədə siyasi oyunların qurbanı olmuşdur.

İranda böyümüş müəllif öz münasibətini, hətta müəyyən qədər təəssübkeşliyini də tədqiq etdiyi tarixə nümayiş edir. Nadir şahın bir sıra qəddar hərəkətlərini xəyanətlə qarşılaşdığı üçün etdiyini və xəstəliyi ilə izah edir. Lakin bununla yanaşı onun ziddiyyətli şəxsiyyət olduğunu da inkar etmir.

Müəllif qeyd edir ki, onun zəfərləri ilk zamanlarda rəğbətlə qarşılanır, Nadirin ədalətli hakimiyyətinə inam artırdı. Son illərində isə onun mənfi cəhətləri üzə çıxır, xalqın və ətrafının ona olan münasibəti dəyişir. Beləliklə, Nadir şaha müxtəlif prizmalardan baxan müəllif onu dövrünün meyarları ilə qiymətləndirməyə çalışır.

Azərbaycan dilinə tərcümə olunan kitaba yazılan ön söz və yekun sözün müəllifi Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyev son illərdə Azərbaycanın tarixinə, dövlətçilik ənənələrinə və görkəmli şəxsiyyətlərinə həsr olunmuş bir neçə dəyərli əsərlər yaratmışdır. Nadir şahın diplomatik yazışmalarını özündə ehtiva edən monoqrafiyaya yazılan müqəddimədə o, Əfşarlar imperiyasının əsasını qoyan böyük sərkərdə haqqında fikirlərini bölüşmüş, yeni elmi məqamları ortaya qoymuşdur.

Maykl Aksvörtinin əsərinə də diqqət yetirən və münasibətini bildirən alim, bu dəfə də obyektiv və elmi fikirlər söyləmiş və bu gün müzakirə olunan məsələləri gündəmə gətirmişdir.

Tamamilə haqlı olaraq, akademik Ramiz Mehdiyev ön sözündə vurğulayır ki, Maykl Aksvörtinin əsəri bir sıra müəlliflərin, hətta Nadir şahın müasirlərinin, sovet tarixçilərinin əsərlərindən fərqli olaraq, şahı elə təsvir edir ki, oxucuda Nadirə qarşı qorxu və nifrətdən daha çox müəyyən rəğbət hissləri doğurur. Nadir şahın güclü və zəif tərəflərini nəzərə alan görkəmli alim belə hesab edir ki, hökmdarın qələbələrlə dolu həyat yolu tək onun üçün deyil, öz xalqı naminə atılmış addımlardır.

Nadir şah haqqında olan elmi ədəbiyyatı təhlil edən akademik Ramiz Mehdiyev göstərir ki, Qərb alimlərinin Əfşarlar tarixinə, Nadir şaha verdikləri qiymət çox vaxt obyektiv olmuş, burada böyük sərkərdə və dövlət başçısına ən yüksək dəyər verilmişdir. Bununla yanaşı, bir çox məsələlərin hələ də öz məntiqi nəticəsini tapmaması, tarixdə əsrlərlə yaradılmış və çətin aradan qaldırılan stereotiplərin yeni mənbələrin cəlb olunması ilə sındırılması zərurəti də vurğulanmışdır.

Ümumiyyətlə, hər bir tarixi dövrə onun reallıqları ilə baxmaq və bundan irəli gələrək də tarixi hadisələrə yanaşmaq lazımdır. Bu baxımdan Nadir şah, dövrünün bir fatehi kimi rəqiblərini məhv də edir, əraziləri qarət də edir, ancaq eyni zamanda məğlub olanları öz tərəfinə çəkməyi, dövlətinin gələcəyi və sabitliyi haqqında düşünməyi də bacarır. Bütün bunlar təhlil olunmalı, bəlkə də, tarixin hansı bir səhifəsi yenidən yazılmalıdır.

Girişin digər hissəsi bilavasitə Maykl Aksvörtinin əsərinin təhlilinə həsr olunmuşdur. Akademik Ramiz Mehdiyev burada göstərilən faktlara və fikirlərə öz münasibətini bildirir, mənbələrə əsaslanaraq Nadir şahla əlaqəli olan həqiqətləri və reallıqları ön plana çəkir. Britaniya aliminin Nadir şahın hərbi məharətinə, təşkilatçılığına və siyasi vəziyyəti dərk etmə qabiliyyətinə verdiyi qiymət də nəzərdən qaçmamış, onun həqiqətə uyğunluğu qeyd olunmuşdur. Həm də kitabda qəhrəmanın şəxsi keyfiyyətləri, onun bir fərd kimi keçirdiyi hislər və düşüncələrin də əks olunduğu göstərilir.

Akademik Ramiz Mehdiyev həm də Vətən tarixçilərinə haqlı irad tutaraq, onların tədqiqatlarında analitik təhlilə az yer verilməsini və təqdimetmə tərzində bu cür əsərlərin çoxluq təşkil etməsini də nəzərə çarpdırıb. Hətta bu ənənənin hələ M.F.Axundzadə tərəfindən də tənqid edildiyini, onun mənbə müəlliflərinin əsərlərinin salnamə xarakterini qəbuledilməz hesab etdiyi vurğulanır. Bu baxımdan, təqdimatı keçirilən Maykl Aksvörtinin kitabı düşünməyə vadar edən bir əsərdir, onun bəzi nəticələri mübahisəli olsa da, Azərbaycan alimləri ondan faydalana bilərlər.

Alim Azərbaycan tarixi irsinə Qərb elminin yanaşmasında olan problemlərə də girişdə geniş yer verir və bu məsələyə xüsusi diqqət ayırır. Birinci növbədə Maykl Aksvörti Nadir şahın azərbaycanlı olması və ölkəmizin tarixində onun rolu və yerini kənarda qoymuş, ordusunu fars ordusu kimi təqdim etmişdir. Azərbaycan türklərinin regionda yaratdıqları dövlətlərin, tarixə verdikləri böyük şəxsiyyətlərin farslara məxsus olması kimi təqdimatı Qərb tarixçiləri üçün qəbul edilmiş bir üslubdur. Baxmayaraq ki, onların əksəriyyəti Nadirin türk mənşəyini inkar etmir, lakin onun qurduğu dövlət fars imperiyası adlandırılır. Bu zaman onun məhz Azərbaycan ərazisində şah elan olunması, Azərbaycan adı altında inzibati bölgə yaratması bir düşünmə məqamı kimi də nəzərə alınmır.

Dövlət səviyyəsində istifadə edilən türk dili ilə yanaşı, fars dilinin də istifadəsi o dövr üçün təbii idi. Əfşarlar dövlətində sayca türklərdən sonra farsdilli tayfalar gəlirdi və bu dildə yazılan sənəd və əsərlərə də geniş rast gəlirik. Akademik Ramiz Mehdiyev bu məsələyə də toxunaraq, Britaniya alimini tənqid edir, onun real faktları görməməklə tarixə xələl gətirdiyini qeyd edir.

Ümumiyyətlə, girişdə akademik Ramiz Mehdiyev tərəfindən İran anlayışına verilən təhlil tamamilə elmi, Qərb alimlərinin ənənəvi təsəvvürlərinə aydınlıq gətirən bir yanaşmadır. Və Azərbaycan tarixçiləri məhz həmin yanaşmaya əsaslanaraq Vətənimizin tarixini yazırlar. "İran" məsələsinə gəlincə, bu coğrafi ərazidə ən azı min il türk sülalələri hakim idilər (Səlcuqlular, Elxanilər, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər, Əfşarlar və sonda Qacarlar). Burada yaşayan digər etnoslar isə bunu təbii qəbul etmiş və 1925-ci ilə qədər, Pəhləvilər İranda hakimiyyətə gələnədək İranın sırf farslara məxsusluğu müzakirə olunmamışdır. Akademik Ramiz Mehdiyev bu prosesin siyasi tərəflərini, İran dövlətçilik tarixini genişləndirmək cəhdlərinin səbəblərinin üzə çıxarılmasını zəruri hesab edir. Bu isə bizim tarixçilərin qarşısına yeni vəzifələr qoyur, Qərb elmi cəmiyyətində hakim olan fikirlərin dəyişməsi gərgin əmək tələb edir.

Bütün deyilənlərin əsas nəticəsi isə ondan ibarətdir ki, Nadir şaha olan münasibətin dəyişməsi tarixi zərurətdir. Nadir şahın Azərbaycan tarixində, dövlətçiliyində rolu yenidən öyrənilməli, yeni tarixi mənbələrdən istifadə olunmalı, onun və apardığı siyasətin ünvanına yazılan iftiralar aradan götürülməlidir. Həm də Nadir şahın dünya tarixinə təsiri dərindən tədqiq olunmalı və layiqli səviyyədə qiymətləndirilməlidir.

**Gövhər BAXŞƏLİYEVA**
*AMEA akad. Z.M. Bünyadov adına*
*Şərqşünaslıq İnstitutunun direktoru, akademik*

# MİLLİ TARİXŞÜNASLIĞIMIZA DAİR KONSEPTUAL BAXIŞ




Haqqında söhbət açacağımız kitab – Maykl Aksvörtinin “Nadir şah” (Bakı, 2018) “Şərq-Qərb” nəşriyyatı tərəfindən yenicə nəşr edilib. Kitab tanınmış ingilis şərqşünası Maykl Aksvörtinin “İranın qılıncı. Nadir şah: tayfa döyüşçüsündən müstəbid fatehədək” adlı əsərinin Azərbaycan dilinə tərcüməsi, geniş ön söz, tarixi məlumatlar, qeydlər, şərhlər və son sözdən ibarətdir. Bu nəşr, heç şübhəsiz, görkəmli dövlət xadimi Əfşarlar dövlətinin banisi Nadir şah Əfşar və onun dövrü haqqında milli tarixşünaslığımızda mövcud olan boşluğu dolduran zəngin faktoloji bazaya malik bir əsər kimi dəyərləndirilə bilər.

İlk növbədə kitabı ərsəyə gətirmiş bütün yaradıcı heyətə – başda Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının rəhbəri hörmətli akademik Ramiz Mehdiyev olmaqla, tərcüməçilərə, tarixi məlumatlar, qeyd və şərhlərin müəlliflərinə dərin təşəkkürümü bildirmək istərdim. Kitab bir çox yenilik və məziyyətləri ilə fərqlənir. Müəllif Səfəvi dövlətinin tənəzzülündən başlayaraq, Nadir şahın həyatı, çoxşaxəli fəaliyyəti, böyük mübarizəsi, apardı-

ğı müharibələr, saray çəkişmələri və sairə haqqında elmi-populyar şəkildə dolğun, maraqlı məlumatlar verir, dövrün həqiqətlərini real boyalarla təsvir etməyə nail olur.

Eyni zamanda, qeyd etməliyik ki, əsər bizim razılaşa bilmədiyimiz məqamlardan da xali deyil. Müəllif istər Nadir şaha, istər Azərbaycan türklərinə (azərbaycanlılara), istərsə də onların yaşadığı ərazilərə paniranist, panfarsist mövqedən yanaşır. Səbəb isə mövcud ədəbiyyatın əsasən həmin mövqedə duran müəlliflər tərəfindən yazılmasıdır. Bütün bunlardan kitabın ideya müəllifi və Azərbaycan nəşrinin elmi redaktoru akademik Ramiz Mehdiyev əslində müstəqil elmi araşdırma səciyyəsi daşıyan 70 səhifəlik geniş və dərin məzmunlu ön sözündə ətraflı bəhs etmiş, milli tarix və mənbəşünaslıq elmlərimiz üçün son dərəcə vacib, konseptual, proqram xarakterli tövsiyə və mülahizələr irəli sürmüşdür. O, Nadir şah Əfşarın fəaliyyətini dövlətçilik baxımından dəyərləndirmək sahəsində mühüm addım atmış və azərbaycançılıq məfkurəsi nöqteyi-nəzərindən Nadir şah Əfşarın şəxsiyyətinə, eləcə də Vətən tarixi ilə bağlı bir çox məqamlara yenidən baxmışdır.

Akademik Ramiz Mehdiyevin son illər milli tariximizlə bağlı nəşr etdirdiyi çoxsaylı əsərlər – “Gorus 2010: absurd teatrı mövsümü”, “Dağlıq Qarabağ: məxəzlərdən oxunmuş tarix”, “Ermənilərin mif yaradıcılığı tarixdə ilk xristian dövləti kontekstində”, “Şah İsmayıl Səfəvi ali məramlı şəxsiyyət kimi”, “Tarixi idrakın elmiliyinə dair”, “Şah İsmayıl Səfəvi: hökmdar və döyüşçü portreti”, “Şah İsmayıl Səfəvi: tarixi-diplomatik sənədlər toplusu”, “ADR-İran diplomatik münasibətləri Qafqaz Fövqəladə Komissiyasının sənədləri işığında (1919-1920-ci illər)” kitabına ön söz və s. Azərbaycan tarixinin ətraflı və obyektiv araşdırılmasına mühüm töhfədir və bu sahədə mövcud boşluqları aradan qaldırır. Ən vacibi isə hörmətli akademik tərəfindən Vətənimizin keçmişinin tarixi reallıqlar əsasında və azərbaycançılıq ideologiyası işığında araşdırılmasıdır. Bu gün xalqımızın hələ də ərazi bütövlüyünü bərpa etmək üçün bəd-

nam qonşularımızla bütün cəbhə boyu gərgin mübarizə apardığını, 70 illik sovetlər dönəmində tarix elmimizin güclü ideoloji təzyiq altında olduğunu və tariximizin bir çox şanlı səhifələrinin qonşu xalqlara mənsub alimlər tərəfindən özününküləşdirildiyini nəzərə alsaq, bu araşdırmaların əhəmiyyəti daha aydın dərk edilər və onların əslində milli təəssübkeşlikdən qaynaqlandığı aydın olar.

Əsrlər boyu indi İran adlanan ərazidə soydaşlarımız böyük dövlətlər yaradıb, onları parçalanmaqdan qoruyub, yadellilərə sinə gərərək yaşadıb, ərazisini xeyli genişləndirib, dövlətçiliyini inkişaf etdirib. Bu mənada akademik Ramiz Mehdiyevin aşağıdakı fikirləri tamamilə haqlıdır və real tarixi faktlara əsaslanır: "Görünən odur ki, "İran" anlayışının etnik yox, sırf coğrafi məfhum olması faktını, bu məkanın ərəb əsarətinin bitməsindən 1925-ci ilə qədər, təxminən 1000 illik dövr ərzində türklər, o cümlədən Azərbaycan türkləri tərəfindən idarə edildiyi həqiqətini dünyaya hələ çox xatırlatmalı olacağıq. Maraqlısı budur ki, İrana XI əsrdən bəri hökm edən Qəznəvilərin (962-1186), Səlcuqların (1038-1157), Elxanilərin (1256-1353), Cəlairilərin (1336-1432), Teymurilərin (1370-1506), Qaraqoyunluların (1380-1468), Ağqoyunluların (1378-1503), Səfəvilərin (1501-1736), Əfşarların (1736-1795), Qacarların (1795-1925) türk mənşəli olduqları nüfuzlu Qərb tarixçiləri tərəfindən əsla şübhə altına alınmır. Lakin söhbət ümumilikdə İranın dövlətçilik tarixindən düşdükdə, şərqşünasların əksəriyyəti nədənsə həmin sülalələrin qurduqları dövlətləri farsların adına çıxırlar!".

Əlavə etmək istərdim ki, eyni farslaşdırma siyasətinə əsrlərlə bu ərazidə azərbaycanlılar tərəfindən yaradılan maddi və qeyri-maddi mədəni sərvətlər də məruz qalıb. Bu gün dünyanın bir çox muzeylərini bəzəyən qədim sənət əsərləri, o cümlədən məşhur Təbriz xalçaları "Persiya" adı altında nümayiş etdirilir.

Beləliklə, kitab eyni zamanda tariximizi təhrif edənlərə tutarlı cavab kimi səslənməsi baxımından diqqətəlayiqdir. Məlumdur ki,

Azərbaycan tarixi bir sıra konyunkturaya uymuş, müxtəlif ideoloji təsirlərə məruz qalmış "tarixçilər", "alimlər" və "siyasətçilər" tərəfindən kobud şəkildə təhrif edilib və edilir, falsifikasiyaya məruz qalır, bəzən isə şərəfli tariximizin bütöv dövrləri inkar edilir, bədxahlarımız tərəfindən özününküləşdirilir. Fars salnaməçiləri və tarixşünasları, onların ardınca isə digərləri İran ərazisində qeyri-farsların yaratdıqları dövlətləri İran dövləti və ya iranlıların dövləti kimi təqdim etməyə xüsusi əhəmiyyət vermişlər və verməkdə davam edirlər.

Bütün bunlara və bir çox digər məsələlərə hörmətli akademik Ramiz Mehdiyev "Azərbaycan nəşrinin elmi redaktorundan" adlı dərin analitik yazısında münasibət bildirir. Yazı üç hissəyə bölünür və onların hər birində müasir elmimiz üçün son dərəcə vacib məsələlər qaldırılır, eyni zamanda, onların həlli yolları göstərilir.

Birinci hissədə – "Qərb tarixşünaslığında Nadir şah mövzusu (tarixə bir nəzər)" – Avropa müəlliflərinin Nadir şah haqqında əsərləri nəzərdən keçirilir, onların dolğun icmalı verilir. Müəllif ürək ağrısı ilə vurğulayır ki, həmin Avropa qaynaqları dilimizə tərcümə edilməyib və hətta məsləhət verir ki, əgər onları bu gün əldə etmək problemdirsə, onların fars dilinə tərcümələrinə üz tutulmalıdır. Daha sonra akademik yazır: "Mövcud boşluğun intensiv və keyfiyyətli şəkildə doldurulması, problemin ildən-ilə, nəsildən-nəslə ötürülməməsi üçün tarixçilərimiz və mənbəşünaslarımız fəaliyyətlərini **koordinasiya etməli**, real nəticəyə hesablanan addımlar haqqında ciddi şəkildə düşünməlidirlər".

Bununla əlaqədar AMEA-nın İctimai Elmlər Bölməsinin nəzdində müvafiq Koordinasiya Şurasının yaradılmasını təklif edərdim. Eyni zamanda, artıq 40 ildən çox Şərqşünaslıq İnstitutunda çalışan bir mütəxəssis kimi problem barədə mülahizələrimi bölüşmək istərdim.

İndiyə qədər xalqımızın tarixinə və mədəniyyətinə dair tarixçi və mənbəşünas alimlərimiz tərəfindən çoxsaylı mənbələr tərcümə

edilərək araşdırılıb, nəşr edilib, onların əsasında dissertasiyalar müdafiə edilib. Şərqşünaslıq İnstitutu olaraq, biz daim çalışmışıq ki, əməkdaşlarımızı məhz bu istiqamətə yönəldək. Onlar xalqımızın tarixi, mədəniyyəti, ədəbiyyatı, dili və s. ilə bağlı ərəb, fars və türk mənbələri üzərində davamlı araşdırmalar aparırlar. Bu mənbələrin təkcə adların çəksək, çox böyük siyahı alınar. Problem ondan ibarətdir ki, bu əsərlər əksər halda geniş oxucu kütləsi üçün naməlum qalır, onlarla yalnız mütəxəssislər tanış olur. Çox təəssüf ki, bugünkü informasiya bolluğunda ölkə KİV-ləri ciddi elmi əsərlərə kifayət qədər diqqət yetirmirlər, onları daha çox bayağı, əyləncə xarakterli informasiya cəlb edir. Odur ki, elmi institutların apardıqları çox dəyərli tədqiqatlar, böyük zəhmət bahasına hazırlanan monoqrafiya və kitablar haqqında ictimaiyyətin bir çox hallarda xəbəri olmur.

"Nadir şah Əfşar irsi Maykl Aksvörti qələmindən" adlanan ikinci hissədə əsərin özü geniş təhlil edilir. Öncə müəllif haqqında arayış verilir, daha sonra əsərin müsbət cəhətlərinə nəzər yetirilir: farsdilli və qərbdilli qaynaqlardan, müasir tarixşünaslığın nailiyyətlərindən geniş istifadə, Nadir şahın siyasi və psixoloji portretinin yaradılması, əsərin üslub xüsusiyyətləri vurğulanır. Bu yerdə akademik yazır: "Etiraf etməliyik ki, Azərbaycan tarixşünaslığında eyni zamanda bir neçə dildən sərbəst şəkildə istifadə edə bilən, apardığı elmi axtarışları peşəkar həmkarları ilə qarşılıqlı əlaqə şəklində həyata keçirən tədqiqatçıların sayı olduqca məhduddur. Maykl Aksvörtinin əsəri bu mənada, yəni müasir elmin tələb etdiyi iş üslubunun mənimsənilməsi, öyrənilməsi baxımından da tədqiqatçılarımız üçün yaxşı örnək, gözəl bir nümunədir".

Daha sonra Nadir şahın şəxsiyyəti və fəaliyyəti təhlil edilərək, onun öz dövrünün, mühitinin, gərgin mübarizəsinin yetirməsi olduğu vurğulanır. Bu zaman mövcud ədəbiyyat nəzərdən keçirilir və qiymətləndirilir. Akademik Ramiz Mehdiyev bir sıra konkret nümunə əsasında tarix elmimizin çağdaş dünya elminin inkişaf sə-

viyyəsinə qalxması zərurətindən yazır və bu sahədə mövcud nöqsanları göstərir: “...Bizim tarixçilərin axsadıqları əsas istiqamət məhz faktların hərtərəfli təhlilinə, müqayisə və qarşılaşdırılmaya əsaslanan təqdimetmə, çatdırılma tərzidir. Əgər sözügedən qüsurun bir hissəsi, artıq vurğuladığım kimi, şəxsiyyətlərə bəslənən subyektiv rəğbətdən, yaxud qərəzdən qaynaqlanırsa, digər bir qismi əksər tədqiqatçılarımızın hələ də salnaməçilikdən təhlilə, analitik tarixə keçid edə bilməməsindən irəli gəlir”.

“Azərbaycanın tarixi irsinə yanaşmada bəzi Qərb müəlliflərinin mühüm xətası haqqında” adlandırılan sonuncu hissədə müəllif bu sahədə mövcud olan çox ciddi problemlər haqqında mövqeyini bildirir. O yazır: “Nadirin Azərbaycan tarixindəki müstəsna yerini şərtləndirən və Qərb şərqşünaslarının göz yumduqları həqiqətlərdən biri də onun azərbaycanlıların yaşadıqları torpaqları ilk dəfə “Azərbaycan" adlanan inzibati vahiddə birləşdirməsi faktıdır”. Və əlavə edir: “Əgər biz hal-hazırda 1813-cü ilin Gülüstan və 1828-ci ilin Türkmənçay müqavilələri əsasında iki yerə parçalanmış vahid tarixi Azərbaycandan, onun konkret hüdudlarından, əyalət və şəhərlərindən əminliklə söhbət aça biliriksə, bunu ilk növbədə Nadir şaha, onun yaratdığı inzibati vahidə borcluyuq.”

Daha sonra görkəmli alim milli tariximizə bəzi xarici tədqiqatçılar, eləcə də yerli müəlliflər tərəfindən nümayiş olunan ədalətsiz, obyektivlikdən uzaq münasibəti qeyd edir: “Bir sıra əcnəbi tədqiqatçılar, həmçinin bəzi Azərbaycan müəllifləri siyasi mərkəzləri İranın qeyri-türklər yaşadığı bölgələrində qurulan, yaxud sonradan hərbi-siyasi reallıqların diktəsi ilə paytaxtlarını İranın mərkəzi vilayətlərinə köçürmək məcburiyyətində qalan türk dövlətlərini heç bir tutarlı əsas gətirmədən milli tariximizin ayrılmaz tərkib hissəsi kimi qəbul etməkdən boyun qaçırırlar.”

Hörmətli akademik Ramiz Mehdiyev bütün bunları nəzərdən keçirərək, ürək yanğısı ilə yazır: “Niyə Azərbaycanın öz dövlətçilik və mədəniyyət tarixi ilə öyünməsinə etiraz edilir, müxtəlif ad-

lar altında buna maneələr yaradılır? Azərbaycan tarixçiləri haqqında danışdığımız mətləbləri daim diqqətdə saxlamalı, tariximizlə bağlı bu həqiqətlərin xaricdə akademik səviyyədə təbliğini əsas mənəvi vəzifələrdən biri kimi görməlidirlər."

Məlumdur ki, Qərb tarixşünaslığında və ictimai fikrində indiki İran ərazisini "Persiya" adlandırmaq ənənəsi özünə möhkəm yer eləyib. Bununla yanaşı, Qərb tarixçilərinin antitürk, ariyasentizm mövqeyi də məlumdur. Digər bir səbəb isə milli Azərbaycan tarixşünaslığının nisbətən gec formalaşmasıdır. Odur ki, milli tarixşünaslığımızın müasir tələblər əsasında inkişafı bu sahədə Qərb tarixçilərinin mövqeyinin dəyişməsinə şərait yarada bilər.

Tədqiqatına yekun vuraraq, görkəmli alim bu cür təşəbbüslərin davam edəcəyinə ümidvar olduğunu bildirir və belə bir inam ifadə edir ki, tariximizlə, mədəniyyətimizlə bağlı sanballı elmi araşdırmaların aparılması "**milli kimliyimizi dərk etmək** yolundakı işimizi xeyli asanlaşdıracaqdır."

Düşünürəm ki, akademik Ramiz Mehdiyevin tariximizlə bağlı sanballı əsərlərindən sonra Azərbaycan tarixinə, onunla bağlı ayrı-ayrı hadisələrə yenidən azərbaycançılıq mövqeyindən yanaşılması prosesi daha da genişlənəcək, dərinləşəcək və ümumiyyətlə, intensiv xarakter alacaqdır. 70 il məhdud ideoloji-sinfi çərçivədə inkişaf edən tarix elmimiz hazırda milli tarixşünaslığa keçid mərhələsini yaşayır. Hörmətli akademikin son illər göstərdiyi səylər milli tarixşünaslığımızın obyektiv elmi-metodoloji prinsiplər əsasında formalaşması prosesinin sürətlənməsinə xidmət edir.

Yuxarıda qeyd olunduğu kimi, kitabda bir sıra digər məsələlərə də toxunulur. Müəllif tariximizin araşdırılmasına hərtərəfli dövlət dəstəyini nümayiş etdirərək, bu irsi yenidən xalqımıza qaytara biləcək, tarixi həqiqətlərin təhrifinə tutarlı cavab verəcək peşəkar mütəxəssislərin qarşısında konkret vəzifələr qoyur.

Bu gün xalqımızın çoxəsrlik tarixini, mədəniyyətini, elmini, ədəbiyyatını, vahid xalq kimi formalaşması prosesini əks etdirən

mənbələri tərcümə və tədqiq edərək xalqımıza çatdırmaq alimlərimizin müqəddəs borcudur. Bu sahədə, deyildiyi kimi, bir çox işlər görülüb və görülməkdədir. Bununla belə, yeni mənbələrin axtarışı və surətlərinin ölkəmizə gətirilərək elmi dövriyyəyə daxil edilməsi istiqamətində müntəzəm, məqsədyönlü iş aparılmalıdır. Eyni zamanda, Şərqin və Qərbin bir çox kitabxanalarında orta əsrlər azərbaycanlı müəlliflərinin qələminə məxsus, elmin və ədəbiyyatın müxtəlif sahələrinə aid yüzlərlə əlyazmalar saxlanılır. Bu əsərləri ölkəmizə gətirmək üçün uzun müddətli ezamiyyətlər təşkil olunmalıdır.

Son olaraq bir daha vurğulamaq istərdim ki, akademik Ramiz Mehdiyevin haqqında danışdığımız tədqiqatı bugünkü və gələcək nəsil tədqiqatçılara ünvanlanmış çox ciddi və dərin elmi araşdırmadır. Akademik Ramiz Mehdiyev bu sahədə gələcək elmi fəaliyyətin nəzəri-metodoloji bazasını müəyyən etmiş və ayrı-ayrı konkret istiqamətlərini göstərmişdir, alimlərimizə çox qiymətli tövsiyələr vermiş, gələcək tədqiqatların strateji əhəmiyyətli çərçivəsini müəyyənləşdirmişdir. Alimin milli dövlətçilik ənənələrinə dair mülahizələri, gəldiyi nəticələr elmi-nəzəri ümumiləşdirmə gücünə, mühüm ideoloji-siyasi əhəmiyyətə malikdir.

Düşünürəm ki, haqqında bəhs etdiyimiz kitabın giriş hissəsi tarixçilərimiz və mənbəşünaslarımız tərəfindən çox ciddi şəkildə öyrənilməli, qavranmalı, müzakirə edilməli, orada qaldırılan məsələlər, irəli sürülən tövsiyələr təhlil olunmalı və gələcək işlərdə rəhbər tutulmalıdır.

**Şahin MUSTAFAYEV**
*AMEA akad. Z.M. Bünyadov adına*
*Şərqşünaslıq İnstitutunun direktor müavini, akademik*

# TARİXİN VƏ BU GÜNÜN İŞIĞINDA NADİR ŞAH
## (İngilis şərqşünasının kitabı üzərində bəzi düşüncələr)



İngilis şərqşünası və tarixçisi Maykl Aksvörtinin "İranın qılıncı. Nadir şah: tayfa döyüşçüsündən fateh müstəbidədək" kitabının Azərbaycan dilinə tərcüməsi və nəşri son dövrdə elmi ictimaiyyətimizin həyatında baş vermiş diqqətədəyər hadisələrdən biridir. Bunun bir neçə səbəbi var. İlk növbədə ona görə ki, bu kitab Azərbaycan və Yaxın Şərq tarixində ən dərin iz qoymuş şəxsiyyətlərdən birinin həyat və fəaliyyətinə həsr olunub. Eyni zamanda, nəzərə alınmalıdır ki, bu şəxsiyyətin tarixdəki yeri, onun siyasi və hərbi fəaliyyəti istər bizim tarixşünaslıqda, istərsə də xarici, xüsusilə Qərb şərqşünaslığında ənənəvi olaraq birmənalı qəbul edilməyib.

Bu baxımdan Nadir şah kimi möhtəşəm tarixi personajın bütün əzəməti və ziddiyyətləri ilə yenidən, ciddi və dərin şəkildə öyrənilməsi və dəyərləndirilməsi elmimizin ümdə vəzifələrindən biridir. Çünki Nadir şah İran və Qərbdə sadəcə bir İran hökmdarı kimi qələmə verilsə də, əslən Azərbaycan xalqının övladıdır,

soykökü etibarilə oğuz-türkman mühitinin *əfşar* boyundan çıxmış Azərbaycan türküdür.

Nəhayət, Nadir şahın Azərbaycan xalqının tarixinə, xüsusilə dövlətçilik tarixinə aidiyyəti nədir, bunların arasında nə dərəcədə əlaqə mövcuddur? – bu suallar yalnız akademik xarakter daşımır, onlar həm də bizim tarixi şüurumuzun fundamental məsələləridir. Və onların önəmini dərk etmək və ciddi elmi araşdırma mövzusuna çevirmək üçün Nadir şah haqqında dünya tarixşünaslığının, xüsusilə Qərb elminin önəmli əsərlərini dəyərləndirmək və konsepsiyalarını bilmək və təhlil etmək zəruridir. Xüsusilə nəzərə alsaq ki, dünya tarixində Sezar, Çingiz xan, Əmir Teymur, Napoleon kimi şöhrətli sərkərdə və fatehlərlə müqayisə edilən bu şəxsiyyət haqqında yazılan əsərlərin sayı nisbətən çox deyil. Sadəcə xatırlatmaq istərdim ki, Sovet şərqşünaslığında Nadir şaha həsr edilən ən fundamental əsər Marianna Arunova və Klara Aşrafyanın 1958-ci ildə Moskvada işıq üzü görmüş "Nadir şah Əfşarın dövləti"[1] adlı monoqrafiyası sayılırdı və uzun müddət rusdilli elmi ədəbiyyatda bu böyük şəxsiyyətə, bir qayda olaraq, qeyd edilən monoqrafiyanın bir sıra mübahisəli dəyərləndirmələri əsasında qiymət verilirdi. Son dövrlərdə Qərb şərqşünaslığında Nadir şahla bağlı işıq üzü görmüş diqqətədəyər əsərlərdən biri 2006-cı ildə M.Aksvörtinin Londonda nəşr olunmuş kitabıdır.[2]

Zənnimcə, heç də təsadüfi deyildir ki, bu kitabın ana dilimizə tərcümə və nəşrinin təşəbbüskarı, eyni zamanda, redaktoru və ön söz müəllifi akademik Ramiz Mehdiyevdir. Ramiz müəllim son illər tariximizin bir sıra fundamental problemləri ilə əlaqədar öz fikri və mövqeyini bir neçə mühüm çıxış, yazı və monoqrafiyala-

---

[1] М.Р.Арунова, К.З.Ашрафян. Государство Надир-шаха Афшара. Очерки общественных отношений в Иране 30-40-х годов XVIII века. Москва: Издательство восточной литературы, 1958

[2] M.Axworthy. The Sword of Persia. Nader Shah, from Tribal Warrior to Conquering Tyrant. London: 2006

rında ifadə etmiş alimdir. Xüsusilə dövlətçilik tariximizdə müstəsna rol oynamış Şah İsmayıl və Nadir şah kimi şəxsiyyətlər, tarixşünaslığımızın metodoloji və konseptual məsələləri, Azərbaycanda tarix elminin inkişafı üçün zəruri istiqamətlərin müəyyənləşdirilməsi kimi problemlər onun əsərlərində önəmli yer tutur.

Bunun səbəblərini aydınlaşdırmaq üçün qeyd edilən problemlər üzərində sadəcə elmi çərçivə daxilində düşünməklə məhdudlaşmaq kifayət etmir. Məsələyə daha qlobal müstəvidə baxmaq, müasir dünyanın çağırışları kontekstində müstəqil dövlətçiliyimizin bu günü və gələcək perspektivlərini nəzərə almaq zəruridir. Son zamanlar istər dünyada, istərsə də bizim ətraf regionda və qonşu ölkələrdə baş verən dramatik hadisələr məlum həqiqəti tam çılpaqlığı ilə bir daha üzə çıxarır və qarşımızda qoyur – tarixi yaddaşı zəif və milli şüuru yetkin olmayan xalqlar öz istiqlalı və dövlətçiliyinin qədrini lazımi səviyyədə dərk edə bilmir, onları istər daxili, istər xarici təhdidlər qarşısında qorumaq iradəsinə sahib olmur və bu müqəddəs dəyərləri itirmək təhlükəsi ilə üzləşir. Bu baxımdan Yaxın Şərqin bəzi ərəb ölkələrinin acı taleyi hamının gözü önündədir. Təhdid və təhlükələr qarşısında milli həmrəylik və yüksək dövlətçilik şüuru nümayiş etdirə bilməyən cəmiyyətlər qısa bir zamanda müxtəlif sosial, etnik və məzhəb maraqları əsasında parçalanır, nəticə etibarı ilə öz siyasi suverenliyi və ərazi bütövlüyünü qorumaq iqtidarından məhrum olurlar. Öz dövlətçiliyini itirən xalqın aqibəti isə məlumdur. Bu baxımdan müstəqil dövlətçiliyin qədrini bilmək, onu daxildə və xaricdə necə qorumağı anlamaq üçün cəmiyyətin güclü tarixi yaddaş, milli şüur və vətəndaşlıq həmrəyliyi hislərinə sahib olması son dərəcə mühüm şərtdir. Düşünürəm ki, akademik R.Mehdiyevin öz əsərlərində dönə-dönə tariximizin belə önəmli məsələlərinə diqqəti cəlb etməsi, ilk növbədə, onun təcrübəli dövlət xadimi və alim kimi müasir Azərbaycan dövlətçiliyinin keçmişi, bu günü və gələcək istiqamət inkişafına işıq tutmaq ehtiyacından irəli gəlir.

Nadir şahın bir dövlət xadimi, sərkərdə, diplomat və inzibatçı kimi fəaliyyəti üzərindən təqribən 300 il ötsə də, bu gün də öz aktuallığını qoruyur. Nadirin qurduğu dövlətin tarixi təcrübəsi Azərbaycan dövlətçilik tarixinin düzgün dərk edilməsi üçün son dərəcə zəngin material verir. Bu təcrübəyə müraciət etmək, üzərində düşünmək və müzakirələr aparmaq dövlətçilik arxetiplərinin güclü və zəif tərəflərini doğru dəyərləndirmək baxımından önəmlidir. Çünki ot kökü üstə bitdiyi kimi, hər dövlət də öz tarixi təcrübəsinin üzərində formalaşır və inkişaf edir. Bu nöqteyi-nəzərdən keçmişlə bu günün səsləşməsini, müasirliyin üzərinə tarixin kölgəsinin düşdüyünü nəzərə almadan bir sıra önəmli ictimai məsələlərin həlli müşkül ola bilər. Akademik R.Mehdiyevin qeyd edilən məsələlərlə bağlı M.Aksvörtinin kitabına yazdığı və əslində, tarixi esse xarakteri daşıyan ön sözündə xeyli maraqlı düşüncələr yer alır. Tarixdə şəxsiyyətin rolu, dövlət qurucusu və başçısının keçdiyi sınaqlar və onların düzgün dəyərləndirilməsi, hökmdar-siyasi elita münasibəti, dövlət idarəçiliyində tutulması mühüm olan yol və tətbiq edilməsi gərək olan prinsiplər – bütün bu və digər suallarla əlaqədar ön söz müəllifinin irəli sürdüyü mülahizələr, dövlətçilik tariximizdə istər müsbət, istərsə də bəzi mənfi ənənələrin təhlili, əslində, universal xarakter daşıyır. Məsələn, Səfəvilərin son dövründə hakim feodal sinfin nümayəndələrinin öz şəxsi dar mənfəətlərini dövlətin mənafeyindən üstün tutmalarının mərkəzi hakimiyyəti necə zəiflətməsi, nəticə etibarilə Səfəvi dövlətinin çökməsi problemləri məharətlə təhlil edilir. Həqiqətən, M.Aksvörti özü də əsərində etiraf edir ki, "Şah Sultan Hüseynin hakimiyyətinin son illərində sanki məqsədli şəkildə iqtidarı gözdən salacaq hər şey edilirdi. Saray əyanlarından kimsə dövlətə təhdid törədən təhlükənin qarşısını almağa çalışdıqda həmin şəxsin uğur əldə edəcəyindən ehtiyatlanan digər məmurlar çəkişmələrə əl atıb onu gözdən salmaq üçün bir-biri ilə yarışırdılar... Bütün bunların yekunu olaraq Səfəvi dövləti süquta uğradı. Çünki mühüm dövlət vəzifə-

lərinin etibar edildiyi şəxslərin heç biri öz məsuliyyətini dərk etmir, əksinə, dövlətə zərər vuran fəaliyyətlə məşğul olurdular. Saray əyanları sanki başqa bir dünyanın sakini idilər və hakimiyyətin aqibəti onları qətiyyən maraqlandırmadığından hər kəs qayğısız və rahat həyat sürməyə davam edirdi”.[3]

Dövlətçilik tariximiz baxımından ibrətamiz səciyyə daşıyan bu hadisələr, onların ingilis şərqşünası tərəfindən dəyərləndililməsi akademik R.Mehdiyevin diqqətini xüsusilə çəkir və onları bir alim və dövlət xadimi mövqeyindən təhlil etməyə sövq edir. Kitaba yazılan ön sözdə qeyd olunur ki, “Nadirin siyasi qərarlar vermək və dövlətçilik məsələlərində tutduğu qətiyyətli mövqe şəxsi mənfəətlərini güdən, mənsəbpərəst, qanun-qaydaya tabe olmaq istəməyən nüfuzlu feodalları və əyanları son nəticədə onları əməli fəaliyyət tələb edən hökmdara qarşı birləşməyə sövq etmiş başlıca amilə çevirmişdi. Həmin feodallar həmişə tayfa-qəbilə münasibətləri sistemində yaşayan, əsrlərdən bəri sərt idarəçilik üsuluna alışmış, yalnız güclü, qətiyyətli şəxsiyyətin iradəsi ilə birləşib, böyük hərbi-siyasi uğurlar əldə etməyə adət etmiş insan kütləsinin ancaq işlək qanunlarla vahid siyasi çətir altında toplaşıb bütöv bir xalq ola biləcəyini anlamaqda çətinlik çəkirdilər. Bu cür siyasi şüursuzluğun nəticəsi idi ki, dövlətçilik miqyasında düşünmək qabiliyyəti olmayan, vətən təəssübkeşliyindən uzaq ayrı-ayrı əyanlar həlledici məqamda doğma xalqın gələcək taleyini qısamüddətli fərdi mənfəətlərə qurban verəcək qədər alçala bilmişdilər!”[4] Kitaba yazılan ön sözdə belə passajlar oxucunu düşündürür, istər-istəməz onun diqqətini Azərbaycan dövlətçilik tarixinin arxetipləri üzərində cəmləməyə və mühüm nəticələrə gəlməyə sövq edir.

Bununla yanaşı, tarixi düşüncə və dövlətçilik şüurunun sağlam inkişafı üçün tarix elmimizin müasir dünya elmi səviyyəsinə

[3] M.Aksvörti. Nadir şah. Bakı: “Şərq-Qərb”, 2018, s. 136-137
[4] Yenə orada, s. 42

yüksəlməsi, müasir elmi konsepsiya və standartlara üz tutması da son dərəcə zəruri bir məsələdir. Bu məsələ akademik R.Mehdiyevin istər "Nadir şah" kitabına yazdığı ön sözdə, istər onun Moskvada keçən il çap olunmuş "Milli ideyanın formalaşmasında tarixin idrakının faydası haqqında" ("О пользе познания истории в формировании национальной идеи") monoqrafiyasında, istərsə də bir sıra digər yazılarında dəfələrlə vurğulanır. "Nadir şah" monoqrafiyasının elmi metodologiyasını və müəllifin üslubunu dəyərləndirən Ramiz müəllim xüsusi olaraq qeyd edir ki, bu kitabın Azərbaycan dilində nəşrinin faydalarından biri onun bir tarixi araşdırma nümunəsi kimi bizim elmi ictimaiyyətə təqdim edilməsindədir. Bəzən təsvirçiliyə, və ya "salnaməçiliyə" meyil edən bizim müasir tarixçilərin bir hissəsi "analitik tarix"in nümunəsi olan bu əsərdən mühüm metodoloji üsullar əxz edə bilərlər. Bunların arasında ilk növbədə hadisələri geniş tarixi kontekstdə təhlil etmək, onları bir-biri ilə əlaqəli şəkildə və səbəb-nəticə zənciri çərçivəsində dəyərləndirmək kimi cəhətlər nəzərdə tutulur. Eyni zamanda müasir Azərbaycan tarixşünaslığında mövcud olan bir sıra digər dərin kök salmış problemlərin aradan qaldırılmasının zərurəti vurğulanmaqla tarix elmi sahəsində yaradıcılığın dəyərinin artıq məlum faktlar və başqa müəlliflərin fikirlərinin təkrarlanması və ya tərcümə edilməsi ilə deyil, bu sahədə yeni, orijinal və analitik yanaşmaların ortaya qoyulması ilə ölçüldüyü bir daha xatırladılır və qeyd edilir ki, "elm saxtakarlığı, gözdən pərdə asmağı qətiyyən sevmir və belə cəhdlər edənlər başa düşməlidirlər ki, onlar heç kəsi deyil, məhz özlərini aldadırlar".[5]

M.Aksvörtinin öz əsərində Nadir şahın şəxsiyyəti və fəaliyyəti, dövrün tarixi hadisələri ilə bağlı irəli sürdüyü bir sıra konseptual mülahizələri qəbul etmək mümkündür, bəziləri ilə isə birmənalı şəkildə razılaşmaq imkansız görünür. Bundan başqa, bu kitab sırf

[5] M.Aksvörti. Nadir şah. Bakı: "Şərq-Qərb", 2018, s. 398

akademik xarakter daşımır, müəyyən dərəcə elmi-populyar üslubda qələmə alınıb. Belə ki, müəllif bir çox önəmli və yeni mənbə və araşdırma əsərlərinə istinad versə də, elmi aparat kitabda öz əksini tapmayıb. Belə olan halda ortaya sual çıxa bilər ki, bu əsərin Azərbaycan dilində nəşr edilməsinin səbəbi nə idi? Şübhəsiz, ən mühüm səbəblərdən biri, Qərb şərqşünaslığında meydana çıxan, tariximizlə bilavasitə əlaqədar olan və xüsusilə haqqında nisbətən az fundamental əsər qələmə alınmış Nadir şahla bağlı yeni əsərlərlə Azərbaycan oxucusunu tanış etməkdir. Sonuncu məqama müəllif özü kitabında düzgün qiymət verir. Nadir şahın 1739-cu ildə Dehlini fəth etməsindən sonra Hindistanda öz müstəmləkəçilik siyasətini fəal şəkildə həyata keçirməyə başlayan İngiltərə bu zəkalı hökmdarın fəaliyyəti və uğurlarını uzun müddət kölgədə saxlamağı üstün tutmuşdur. Çünki Viktorian dövrü ingilis tarixşünaslığının ənənələrinə görə, Şərq aləmi "dinamik və tərəqqiyə yönəlmiş" Avropa toplumlarından fərqli olaraq, "statik və passiv" bir cəmiyyət tipi kimi dəyərləndirilirdi. Nadir şahın enerjili və islahatçı fəaliyyəti isə bu avrosentrist ictimai-tarixi konsepsiya ilə ziddiyyət təşkil edirdi, sxemin əsas postulatlarını pozurdu. M.Aksvörti etiraf etmək məcburiyyətində qalır ki, Nadirin "Hindistanda hərbi uğurları Kliv və digər müstəmləkəçilərin şöhrətini geridə qoya bilərdi və ümumilikdə Qərbin hərbi gücünün müstəsnalığına kölgə salmış olardı".[6]

Nadir şah şəxsiyyəti nə səbəblə bizim tarix üçün mühümdür? Axı, zahirən Nadir Azərbaycanda deyil, İranın şərq bölgəsi olan Xorasanda anadan olub, fəaliyyətinin böyük hissəsi orada keçib, hətta öz dövlətini qurduqdan sonra paytaxtını da Məşhəd şəhərinə keçirib. Yeri gəlmişkən qeyd etmək gərəkdir ki, İran və Qərb şərqşünaslığında da bu zahiri əlamətlərə üstünlük verilərək, Nadir şahı məhz İran hökmdarı, İranın xilaskarı və İran tarixinin qəhrəmanı kimi dəyərləndirirlər. Bu baxımdan M.Aksvörtinin kitabı da

[6] M.Aksvörti. Nadir şah. Bakı: "Şərq-Qərb", 2018, s. 78

istisna deyil. Bu əsərdə Nadirin Azərbaycanla, Azərbaycanın tarixi-mədəni mühiti ilə əlaqəsi barədə bir kəlmə də söz deyilmir. Və bu cəhət akademik R.Mehdiyevin ön sözündə haqlı və kəskin tənqidə məruz qalır.

Bununla belə, obyektiv olaraq Nadir şahın şəxsiyyətini Azərbaycan mühiti və tarixindən bir neçə səbəbə görə ayrı tutmaq qətiyyən mümkün deyil. Bunları sadalamaq və təhlil etmək yerində olardı:

1. Yuxarıda da qeyd edildiyi kimi, Nadir əslən Azərbaycan türklərindən olub, Azərbaycandan Xorasana köçürülmüş qızılbaş oğuz-türkman boyu olan əfşarların *qırxlı* tayfasına mənsub idi. Bu baxımdan Nadirin nəsli etnomədəni köklə Azərbaycana bağlı idi.

2. Bu nəsil Xorasana, yəni İranın şimal-şərqinə köçürüldükdən sonra bir çoxlarının təsəvvür edə biləcəyi kimi, yabançı fars mühitinə düşmədi. Xorasan orta əsrlərdə polietnik və türklərin də çox sayda yaşadığı bir bölgə idi. Hələ Səlcuq dövründə, yəni X əsrin sonu-XI əsrin əvvəllərində buralar bir oğuz-türkman eli idi və bu yerlərdən Azərbaycana və Anadoluya güclü türk köçləri və axınları baş verirdi. Əslində Səlcuq imperiyasının ilkin formalaşması və bərqərar olması da burada baş vermişdi. Bilindiyi kimi, Toğrul bəy özünü 1038-ci ildə Xorasanda Nişapur şəhərində sultan elan etmişdi. Xorasan islam dövründə oğuz-türk mədəniyyəti və ədəbiyyatının formalaşması və inkişafında da müstəsna rol oynamışdır. Orta əsrlər türk təsəvvüfünün ocağı Xorasan olmuş və tariximizdə "Xorasan ərənləri" kimi tanınan türk sufilərinin adı da təsadüfən meydana çıxmamışdı. Və nəhayət, biz anadilli ədəbiyyatımızın köklərini araşdırarkən, istər-istəməz üzümüzü Xorasana tuturuq, çünki XIII əsrin sonunda Azərbaycan-türk dilində ilk qəzəllərini yazan Həsənoğlu əslən Xorasanın Əsfərain şəhərindən idi. Xorasanda türk əhalisinin sayının artmasına Nadir özü də ciddi diqqət yetirir və buraya müxtəlif bölgələrdən, xüsusilə Azərbaycandan böyük sayıda türkmənşəli insanların köçürülməsinə rəvac verirdi. Belə ki, M.Aksvörtinin qeyd etdiyi kimi, Təbrizi Os-

manlı hakimiyyətindən azad etdikdən sonra o, Məşhədə doğru istiqamət götürdü və "Azərbaycanı tərk etməzdən əvvəl 60.000 ailədən ibarət türk tayfalarının, o cümlədən əfşar qəbiləsinin nümayəndələrinin Xorasana köçürülməsinə dair əmr verdi".[7] Bütün bunlar bir şeyi nümayiş etdirir: Azərbaycan məfhumu və Azərbaycan tarixi yalnız bu günün siyasi sərhədləri çərçivəsində götürüldükdə, onları qətiyyən tam dolğunluğu və mənasıyla anlamaq mümkün olmur. Keçmiş zamanlarda Azərbaycanın tarixi-mədəni mühiti bugünkündən qat-qat geniş olmuşdur, ona görə də siyasi və mədəni tariximizi öyrəndikdə bu gerçəklik mütləq nəzərə alınmalıdır.

3. Nadirin həyat və fəaliyyətinə diqqət yetirdikdə bir daha şahid oluruq ki, bu gerçəklik əsrlərlə, hər halda XX əsrdə İranda Pəhləvilər tərəfindən irqçi paniranizm siyasəti həyata keçirilməyə başlayana qədər dəyişməmişdir. Biz görürük ki, Nadir ailədə, məişətdə, öz dostları, əqrəbaları, həmyerliləri ilə həmişə ana dilində, yəni türk dilində danışıb. Fars dilini o, artıq xeyli böyüdüyü zaman öyrənib. Ordu sıralarında və hətta böyük hökmdar olduğu zaman da Nadir həmişə türkcə danışıb, müstəsna hallarda fars dilindən istifadə edib. Nadirin saray tarixçisi və yaxın sirdaşı olan Mirzə Mehdi xan Astarabadi bu dövrdə türk dilinin lüğəti və qrammatikasına həsr olunmuş özünün məşhur "Sənglax" əsərini qələmə almışdır. Nadirin dövründə sarayda, dövlət işlərində, orduda ən çox işlənən dil türk dili olub. Osmanlı səfirləri ilə və hətta 1739-cu ildə Hindistanın hökmdarı Məhəmməd şahla görüşündə o, türk dilində danışırdı. Nadir şah Hindistanın paytaxtı Dehlini tutduqda Məhəmməd şahı taxtdan endirməmiş və bunun səbəbini onunla izah etmişdir ki, onlar hər ikisi türk-türkman nəslindən gəlirlər və türkmanlıq adətinə görə Nadir Əmir Teymurun və Baburun nəslinə mənsub olan Məhəmməd şahın hakimiyyətinə qıya bilməzdi. Nadirin öz dilindən bu türkmanlıq təəssübü belə səslən-

---

[7] M.Aksvörti. Nadir şah. Bakı: "Şərq-Qərb", 2018, s. 213

dirilir: "Bu ölkənin (Hindistanın, Böyük Moğol imperiyasının – Ş.M.) vilayətlərinin fəth edilməsi və işlərin qaydaya salınması asanlaşıb təkmilləşəndən bir az sonra İlahi dərgahına möhtac olanın (Nadir şahın – Ş.M.) türkman və adı çəkilən padşahın (Məhəmməd şahın – Ş.M.) türkmaniyyə ümmətinin və cəlalətli Gürqaniyyə (Teymurilər – Ş.M.) sülaləsinin nümayəndəsi olduqlarını nəzərə alaraq, bundan əvvəl olduğu kimi, el və birlik qaydası ilə Hindistan padşahlığını adı zikr olunmuş o aliməqama həvalə etdik və xütbə ilə sikkəni onun adına düzəltdik".[8]

Burada belə bir önəmli cəhətə də diqqəti cəlb etmək istərdim ki, orta əsrlərdə bütün islam Şərqində yayılmış türk siyasi hakimiyyətinin etnomədəni şüur ilə bağlı cəhətlərini tədqiq etmək son dərəcə mühümdür. Çünki Nadir şahın nümayiş etdirdiyi türkman həmrəyliyi hissi Azərbaycan tarixində müstəsna bir hadisə deyildi. Belə ki, hələ XV əsrin əvvəllərində Qaraqoyunlu hökmdarı Qara Yusif Ağqoyunlu bəyi Qara Yölük Osmana məktub göndərərək, sülh bağlamağı təklif etmişdi. Bu müraciətin ən önəmli tərəfi ondan ibarət idi ki, Qara Yusif barışığın zərurətini məhz onların ortaq etnik mənsubiyyəti – türkmanlığı ilə əsaslandırırdı: "Biz hər ikimiz türkman xalqındanıq. Bundan sonra bir-birimizə qarşı vuruşmamalıyıq, bundan artıq bir-birimizi əzməməliyik".[9]

4. Ancaq məsələ yalnız Nadirin şəxsi görüşlərində, onun türk dili və mədəniyyətinə bağlılığında, hətta müəyyən mənada onun türk təəssübkeşliyində deyildi. Bu məsələni daha geniş kontekstdə, Azərbaycan dövlətçiliyi fonunda dəyərləndirmək lazımdır. Səfəvi dövləti və sülaləsinin daxili tənəzzül və xarici zərbələr, daha doğrusu, 1722-ci ildə əfqanların hücumları nəticəsində çökməsindən sonra mərkəzi müsəlman torpaqları və ya bu gün İran adlanan geniş ərazidə siyasi hakimiyyətsizlik, parçalanma, xaos hökm sürürdü.

---

[8] Nadir şah Əfşar: diplomatik yazışmalar. Bakı: Şərq-Qərb Nəşriyyat Evi, 2015, s. 65

[9] Ş.Mustafayev. Səlcuqilərdən Osmanlılara: XI-XV yüzilliklərdə Anadolunun türk mühitində etnosiyasi proseslər. Bakı: "Elm", 2010, s. 230

Keçmiş Səfəvi ərazilərinin şərq və cənub torpaqları İsfahanla birlikdə əfqanların, şimal-qərb torpaqları, yəni Azərbaycanın böyük hissəsi Osmanlıların, Azərbaycanın Xəzəryanı əraziləri isə rusların əlinə keçmişdi. Belə bir şəraitdə bu ərazilərin siyasi birliyini bərpa etmək ağlasığmaz dərəcədə çətin, bəlkə də, artıq mümkün olmayan bir məsələ idi. Ancaq bu dəfə də Azərbaycan və bütün İranın türk xalqı öz milli varlığı və dövlətçilik iradəsini ortaya qoydu, Nadir kimi həqiqətən dünya tarixində nadir bir şəxsiyyəti yetişdirdi, o, dəmir iradəsi, əzmkarlığı, hərbi və inzibati istedadı ilə ordular yaratdı və təqribən 7-8 il ərzində Amudəryadan Fərat çayına qədər əraziləri bütün yadellilərdən azad etdi. Bu təsəvvür edilməyəcək dərəcədə ağır bir işi yerinə yetirən, bu yolda olmazın əziyyətlərə məruz qalan, qurbanlar verən, əlində qılınc və tüfənglə düşmənlərə qarşı vuruşan və yenidən bu böyük ərazidə dövlətçiliyi bərpa edən xalq, ilk növbədə, məhz türklər – Azərbaycan türkləri idi. Azərbaycan xalqının bu qəhrəmanlıq dastanını yazmasının başlıca təsdiqi və Nadir tərəfindən etirafı onda idi ki, yeni dövlətin qurulması, Nadirin taxta çıxıb şah elan edilməsi 1736-cı ildə Azərbaycanda Muğan düzündə çağırılan Qurultayda baş verdi. Bu Qurultay qədim türk dövlətçilik ənənələrinin davamı olaraq, yeni qurulan Əfşar dövlətinin türk xarakterini vurğulamaq üçün təşkil edilmişdi. Çünki ən əski zamanlardan bəri, hələ islamdan öncə qədim Hun imperiyası və Türk xaqanlığı dövrlərində türk xaqanlarının taxta çıxma mərasimi məhz bu şəkildə baş verirdi. Təsadüfi deyil ki, Muğan Qurultayında da qərar qəbul edə biləcək əmir və sərkərdələrin hamısı türk bəyləri idi. Heç şübhəsiz, Nadir şah Osmanlı sultanına yazdığı məktubda özünü "Tanrının inayəti ilə ... Türkman elinin böyüyü və İran ilə Türküstan məmləkətlərinin sahibi" kimi təqdim etdikdə öz ali statusunun mahiyyətini açıq şəkildə ifadə edirdi.[10] Burada İran və

[10] Nadir şah Əfşar: diplomatik yazışmalar. Bakı: Şərq-Qərb Nəşriyyat Evi, 2015, s. 101

Türküstan məmləkətləri daha çox coğrafi anlayış kimi işlədildiyi halda, "Türkman eli" sözü birmənalı olaraq etnosiyasi anlam daşıyırdı. Xüsusi olaraq vurğulamaq gərəkdir ki, "türkman" sözü orta əsrlərdə islamı qəbul etmiş oğuzların etnonimi kimi istifadə edildiyi halda, təqribən XIII əsrdən etibarən Yaxın Şərq oğuzlarının, o cümlədən azərbaycanlıların xoronimінə də çevrilmişdi. Artıq XIV-XV əsrlərdə Azərbaycan və Şərqi Anadoluda yaranan dövlətlər özlərini "türkman" dövlətləri kimi təqdim edirdilər. Xüsusilə Qaraqoyunlu və Ağqoyunlu dövlətləri tarixi mənbələrdə birmənalı şəkildə "məmaliki-türkmaniyyə", sülalələr isə "səlatini-türkmaniyyə" adlandırılırdı. Mühüm bir amil ondan ibarətdir ki, bu dövlətlərin mərkəzini təşkil edən Azərbaycan və Şərqi Anadolu da tarixi qaynaqlarda "Türkman eli" olaraq tanıtdırılır. Məsələn, Osmanlı tarixçisi İbn Kamal XV əsrdə Qaramanlı bəyi Pir Əhmədin Ağqoyunlu Uzun Həsənin sarayına qaçması haqqında yazırdı ki, o, "tərki-diyar edib Türkman elinə qaçdı, çıqdı vardı Azərbaycanda qərar etdi, asitani-Həsən xanda xizmət ixtiyar etdi"; və ya Azərbaycanın paytaxtı Təbriz barədə deyirdi ki, "Şəhri-Təbriz ki, darül-mülki-Türkman idi...".[11]

Yuxarıda Qaraqoyunlu Qara Yusifin məktubundan da göründüyü kimi, xüsusilə XV əsrdə Azərbaycan türkləri öz etnomədəni mənsubiyyətlərini "türkman" kimliyi, öz vətənlərini isə "Türkman eli" məfhumu ilə ifadə edirdilər. Bu baxımdan Nadir şahın özünü "Türkman elinin böyüyü" adlandırması onun bu etnomədəni və etnosiyasi ənənənin davamçısı kimi çıxış etdiyini təsdiqləyir.

5. Nadir şahın Azərbaycanın taleyinə biganə olmaması həm də Azərbaycanın tarixi bir bütöv olaraq torpaqlarının inzibati birliyinin təmin edilməsində özünü göstərir. Akademik R.Mehdiyevin qeyd etdiyi kimi, "Nadirin Azərbaycan tarixində müstəsna yerini şərtləndirən və Qərb şərqşünaslarının göz yumduqları həqiqətlər-

[11] Ş.Mustafayev. Səlcuqilərdən Osmanlılara: XI-XV yüzilliklərdə Anadolunun türk mühitində etnosiyasi proseslər. Bakı: "Elm", 2010, s. 243

dən biri də onun azərbaycanlıların yaşadıqları torpaqları ilk dəfə "Azərbaycan" adlanan inzibati vahiddə birləşdirməsi faktıdır".[12] Həqiqətən, tarixi mənbələr də Nadirin istər taxta çıxmasından öncə, istərsə də Muğan Qurultayından sonra şərti ifadə ilə "Azərbaycan məsələsini", onun torpaq bütövlüyünü diqqətdə saxladığını təsdiq edir. Osmanlı sultanı I Mahmuda ünvanladığı məktubda Nadir şah xüsusi olaraq vurğulayırdı ki, Səfəvi dövlətinin yaranmasından sonra Osmanlı-Səfəvi müharibələri nəticəsində "keçmiş zamanlarda Türkman sultanlarına (səlatini-türkmaniyyə, yəni Qaraqoyunlu və Ağqoyunlu sülalələri – Ş.M.) bağlı olmuş Azərbaycan məmləkətlərindən (məmaliki-Azərbaycan) bəziləri ali Osman dövlətinin tərkibinə keçmişdi". Nadir şah Əfşar iki dövlət arasında barış və dostluq şərtlərinə görə, "həmin iki məmləkətdən birini bağışlamaq qaydası ilə bu tərəfin (Azərbaycanın – Ş.M.) tabeliyində olan məmləkətlərin hövzəsinə" qatılması, yəni Azərbaycana qaytarılması arzusunu izhar edirdi.[13]

Təbii ki, bütün yuxarıda deyilənlər məsələnin birtərəfli – sırf türkmərkəzli və Azərbaycanmərkəzli tarix görüşü çərçivəsində dəyərləndirilməsi mənasına gəlmir. Şübhəsiz, Azərbaycan və İran ərazisində yaranmış dövlətlərin şərti olaraq, "etnik kimliyi" problemi daha mürəkkəb idi, tarixi gerçəklik daha əlvan, etnomədəni mühit daha rəngarəng idi. Bu dövrdə Şərqdə mövcud olan bütün böyük imperiyalar kimi Nadir şahın yaratdığı Əfşar dövləti də polietnik xarakter daşıyırdı və onun ərazisində yaşayan bütün xalqların nümayəndələri dövlətin inkişafına öz töhfələrini verirdilər. Burada söhbət sadəcə bir qisim İran və Qərb şərqşünas və tarixçilərinin əsərlərində bu dövləti yalnız İran dövlətçilik tarixi çərçivəsində təqdim etmək, bu sahədə digər xalqların, xüsusilə Azərbaycan türklərinin aparıcı rolunu inkar etmək və ya kölgədə saxlamaq

---

[12] M.Aksvörti. Nadir şah. Bakı: "Şərq-Qərb", 2018, s. 57-58

[13] Nadir şah Əfşar: diplomatik yazışmalar. Bakı: Şərq-Qərb Nəşriyyat Evi, 2015, s. 80

meyillərinə qarşı alternativ bir nəzər nöqtəsinin ortaya qoyulmasından gedir. Və qeyd etmək gərəkdir ki, akademik R.Mehdiyevin ön sözündə bu problem kifayət qədər obyektiv və ətraflı işıqlandırılmış və qeyd edilmişdir ki, "Azərbaycanla İranın, Azərbaycan türkləri ilə farsların müştərək tarixə malik olduqları, eyni siyasi taleyi bölüşdükləri tarixi dövrlər, əlbəttə ki, olmuşdur və onların inkarı mənasızdır. Eyni ilə də həmin dövrlərin böyük əksəriyyətində farsların Azərbaycan türkləri tərəfindən qurulmuş müxtəlif imperiyaların təbəəsi olması faktı danılmaz faktdır".[14]

Beləliklə, öz tarixini mifləşdirmiş, Pəhləvilərin paniranizm siyasəti və nəzəriyyəsi çərçivəsində bütün məziyyətləri, mədəniyyəti, dili və hətta hərbi şücaəti farslara aid edən bəzi İran millətçiləri və tarixçiləri unudurlar və ya unutdurmağa çalışırlar ki, əgər bu gün onlar "İran" adlı vahid bir dövlətin sərhədləri daxilində yaşayırlarsa, bu xoşbəxtlikləri üçün ilk növbədə Azərbaycan türklərinin fədakarlığı və qəhrəmanlığına borcludurlar. Çünki Nadir şah bu ərazidə dövlətçiliyi bərpa etməsəydi, Osmanlı və Rusiya kimi qüdrətli imperiyaların təzyiqi, baş qaldıran Avropa müstəmləkəçiliyinin zərbələri altında burada yenidən bir dövlət yaratmaq, bəlkə də, bir daha mümkün olmayacaqdı. Ancaq Nadirin və Azərbaycan xalqının fədakarlığının sonrakı tarixdə nə ilə nəticələndiyi də göz qabağındadır. Nadirin ilk növbədə bir türk imperiyası kimi gördüyü və qurmaq istədiyi dövlət XX əsrdə Pəhləvi dövründə fars şovinizmi və ari irqçiliyinin hökm sürdüyü, Azərbaycan dili və mədəniyyətinin qadağan edildiyi bir ölkəyə çevriləcəkdi. Təsadüfi deyil ki, ustad şairimiz Şəhriyar vətəninin acı taleyini ürək ağrısı ilə təsvir etdiyi "Azərbaycan" şeirində yuxarıda qeyd edilən həqiqətləri dilə gətirir:

*Bütün dünya bilir – sənin qüdrətinlə, dövlətinlə*
*Abad olub, azad olub mülk-i İran, Azərbaycan,*

---

[14] M.Aksvörti. Nadir şah. Bakı: "Şərq-Qərb", 2018, s. 68

*Bisütun-i inqilabda Şirin-Vətən üçün Fərhad*
*Külüng vurmuş öz başına zaman-zaman, Azərbaycan,*

*Qurtarmaqçün zalımların əlindən Rey şümşadını*
*Öz şümşadın başdan-başa olub al qan, Azərbaycan.*

Bu da, yəqin ki, tariximizdən çıxarmalı olduğumuz əsas ibrət dərsidir. Öz dilinin, mədəniyyətinin, dövlətinin qədrini bilməyən və qayğısını çəkməyən, canını, qanını, varını, gücünü özgələrin xidmətinə sərf edən xalq həmişə uduzmağa və kiçilməyə, alçaldılmağa və cılızlaşmağa məhkumdur. Cılız cəmiyyətlər isə Nadir kimi möhtəşəm şəxsiyyətlər yetişdirməyə qadir deyil. Və heç də təsadüfi deyil ki, Azərbaycan milli mədəniyyəti və şüurunun yüksəldiyi bir dövrdə, yəni XIX əsrin sonu-XX əsrin əvvəllərində Azərbaycanda milli müstəqil dövlətçilik düşüncəsi yaranmağa başladığı bir zaman ölkənin mütəfəkkir ziyalıları bu ideyaların rəmzinə çevrilə biləcək tarixi qəhrəmanlar axtararkən, ilk növbədə, Nadir şah obrazına müraciət etdilər. Bunun ilk örnəklərindən biri Nəriman Nərimanovun 1898-ci ildə yazdığı "Nadir şah" pyesidir.

Bir önəmli sual üzərində də diqqəti cəmləşdirmək düzgün olardı: Nadir şahın öz fəaliyyətinin əsas qayəsi kimi gördüyü siyasi və ictimai həyatın hər sahəsində köklü islahatlar aparıb möhtəşəm və cahanşümül imperiya qurmaq təşəbbüsü hansı səbəbdən nəticə etibarı ilə məğlubiyyətə uğradı? Nə üçün onun yaratdığı böyük dövlət öz qurucusunun ölümündən qısa bir müddət sonra süquta uğrayıb parçalandı? Sualın cavabı bu yazının formatına sığa bilməyəcək xeyli tarixi-sosioloji təhlil, çeşidli fakt və mülahizələrin analizini tələb edir. Ancaq məsələni qısa şəkildə dəyərləndirmək gərək olarsa, bir önəmli məqama xüsusi toxunmaq lazımdır. Əslində, nə qədər acı olsa da, etiraf edilməlidir ki, Nadir şahın böyük planları öncədən uğursuzluğa məhkum idi və bu uğursuzluğu onun yaşadığı zaman və məkanın özü müəyyənləşdirmişdi. Nadirin yaşadığı dövr ənənəvi sosial struktur və həyat tərzinə malik

olan Şərq cəmiyyətlərinin çökdüyü və yeni, müasir və dinamik Avropa burjua toplumlarının sürətlə önə çıxdığı bir dövr idi. Burjua inqilabları mərhələsindən keçmiş Hollandiya və İngiltərə artıq Hind-Çindən başlamış Yaxın Şərqə qədər əhalinin sayı və təbii zənginlik baxımından özlərindən qat-qat iri olan ölkələri öz iqtisadi və siyasi təsiri altına almağa başlamışdılar. Onların qurduqları Ost-İnd şirkətləri, əslində, yeni bir hərbi-ticari müstəmləkə imperiyası tipini təmsil edir və bəşər tarixində kapitalizm dövrünün başlanğıcının müjdəsini verirdilər.

Kapitalizm özü ilə sosial dinamizm, rasional düşüncə tərzi və texnoloji tərəqqi gətirir və bununla dünya tarixində möhtəşəm rol oynamış ənənəvi tipli əngin Şərq imperiyalarının sonunun yaxınlaşdığından xəbər verirdi. Nadir şahın var gücü ilə Osmanlılara qarşı mübarizə aparıb Səfəvi dövlətinin keçmiş qüdrətini kölgədə qoyacaq bir imperiya qurmaq arzusu ilə çarpışdığı zaman üç qitəyə yayılmış Osmanlı imperiyası artıq burjua Avropasının nəzərində "xəstə adama" çevrilməkdə idi. Nadirin Dehlini tutmasından bir müddət sonra İngiltərə müstəmləkəçiləri dünyanın ən zəngin və parlaq imperiyası olmuş Böyük Moğolları diz çökdürüb Hindistanı Britaniya imperiyasının baş tacına çevirəcəkdilər. XIX əsrin ortalarında isə həmin ingilislər "tiryək müharibələri" sayəsində Çin kimi qüdrətli imperiyanı yarımmüstəmləkə halına salacaqdılar. Bütün bu cahanşümul Şərq imperiyalarının Avropa müstəmləkəçiliyinə müqavimət göstərmək cəhdlərinin süquta uğramalarının səbəbi onların məhdud maliyyə və ya insan resurslarına malik olmalarında deyildi. Tam əksinə, Qərb burjuaziyasını tamahlandıran da elə onların əfsanəvi zənginlikləri idi. Səbəb ənənəvi Şərq cəmiyyətlərinin artıq keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoymuş kapitalist toplumlarla yarışda rəqabətə dözə bilməmələri, intellektual, sosial, iqtisadi və texnoloji baxımdan geri qalmaları idi.

Avropa müstəmləkəçiliyi ilə ənənəvi cəmiyyət formatında qalaraq uğurlu mübarizə aparmaq mümkün deyildi. Yeganə yol köklü

və hərtərəfli ictimai islahatların həyata keçirilməsi ilə sivilizasional müasirləşmənin təmin edilməsindən keçirdi. Bütün XIX əsr Şərq tarixində bu transformasiyanı zamanında və lazımi qətiyyətlə həyata keçirən və beləliklə, özünün istiqlalını və dünyadakı yerini təmin edə bilən ölkə Yaponiya olmuşdur. Meydzi islahatları yaponlara kapitalist düşərgədə özlərinə məxsus yer tutmağa imkan yaratmışdı. Ancaq unutmaq olmaz ki, Yaponiyada baş tutan islahatlar Nadir şahın ölümündən təqribən 120 il sonra, yəni Böyük Fransız inqilabının təsiri ilə liberalizm və millətçilik ideyalarının Şərqi Avropaya və Asiya ölkələrinə yayılmasından sonra həyata keçirilmişdi.

Nadirin dövründə isə islam aləmində Avropa ilə Şərqin inkişaf istiqamətləri və sürətləri arasındakı fərq artıq hiss edilməyə başlansa da, onların dərin sivilizasional səbəbləri hələ lazımi səviyyədə dərk edilmirdi. Belə ki, Avropa ilə bilavasitə və yaxın münasibətləri olan Osmanlı imperiyasında ilk ciddi islahat təşəbbüsləri XVIII əsrin ilk illərində başlamışdır. Sultan III Əhməd və baş vəzir Nevşəhirli Damad İbrahim paşa kimi islahatçı Osmanlı dövlət xadimləri imperiyanın Qərbdən get-gedə geri qalmasını anlayır və təcili dəyişikliklərin həyata keçirilməsini zəruri hesab edirdilər. Bu dövrdə Osmanlı cəmiyyətinin həyatında Avropanın təsiri ilə, həqiqətən, bir sıra önəmli yeniliklər əmələ gəlmiş, onlardan ən ciddisi də ilk mətbəənin yaradılması və türk kitab nəşrinin başlanması olmuşdur. Ancaq Osmanlı elitası bu cahanşümül proseslərin dərinliyini dərk etməkdə hələ aciz idi və bu tarixi çağırışlara səthi cavab verməklə vəziyyətdən çıxa biləcəyini sanırdı. O, sürətlə tərəqqi edən Qərblə rəqabətdə geri qalmamaq üçün Avropanın bəzi hərbi və mədəni nailiyyətlərini təqlid etməklə ortadakı fərqi aradan götürəcəyinə inanırdı. Təsadüfi deyil ki, bu Avropasayağı islahatlar dövrü Osmanlı tarixində “Lalə dövrü” adını almışdır. Çünki Osmanlı elitası Holland lalələrinin gözəlliyinə düşkünlüklə ictimai-mədəni həyatın bu zahiri atributlarına aludə olub Şərqlə Avropa arasındakı dərin sosial və intellektual fərqi nəzərdən

qaçırmışdı. “Lalə dövrü” islahatlarının uğursuzluğunun, 1730-cu ildə Patrona Xəlil üsyanı nəticəsində III Sultan Əhmədin taxtdan endirilməsi və baş vəzir İbrahim paşanın qətlə yetirilməsinin əsas səbəbi Osmanlı elitasının baş verən qlobal tarixi transformasiyaların mahiyyətini tam şəkildə dərk edə bilməməsi və ənənəvi cəmiyyət çərçivəsində səthi islahatların aparılması ilə Osmanlı dövlətinin Avropadan geri qalmasına son qoymaq cəhdləri olmuşdur.

Öz daxili siyasətində Nadir şahın nə dərəcədə “Lalə dövrü” Osmanlı islahatlarından təsirlənməsi məsələsi hələ də ciddi tədqiqatlara ehtiyacı olan mövzu kimi qalmaqdadır. Ancaq bir şey aydındır ki, Nadir şah da bir sıra tərəqqipərvər görüşləri, reformist ruhu və qətiyyətli siyasətinə baxmayaraq, Osmanlı elitasından o qədər də irəli gedə bilməmiş, bütün gücünü mərkəzləşdirilmiş və qüdrətli, lakin eyni zamanda ənənəvi Şərq tipli imperiyanın yaradılması və möhkəmləndirilməsinə sərf etmişdi. Bu baxımdan, Əmir Teymurun ömür yolunu xatırladan Nadirin həyatı, bəlkə də, Maykl Aksvörti tərəfindən təsadüfi olaraq, “tayfa döyüşçüsündən fateh müstəbidə qədər” aparan yol kimi dəyərləndirilməmişdir. Bu yolda dahiyanə şəxsi keyfiyyətləri sayəsində müstəsna uğurlar qazansa da, Nadir şah qlobal tarixin məntiqi və gedişatına qələbə çala bilmədi. Beləliklə, onun da islahatları ənənəvi cəmiyyət qəlibindən kənara çıxa bilmədiyi üçün nəticə etibarı ilə öz məqsədinə yetə bilməmişdi.

Heç şübhəsiz, Nadirin ömrünün faciəvi sonu, onun 1747-ci ildə öz yaxın silahdaşları tərəfindən qətlə yetirilməsi həm də bir məlum həqiqətdən xəbər verir: cəmiyyətdə dərin və köklü islahatlar aparmaq üçün yalnız liderin enerjisi, qətiyyəti və zəkası kifayət etmir. Ən önəmli şərt mühitin də bu dəyişiklikləri anlaması, onları dəstəkləməsi amili olmalıdır. XVIII əsrin birinci yarısında Azərbaycan və İranda belə mühit hələ yetişməmişdi. Tarixi mənbələrin verdiyi məlumatların sətiraltısı Nadirin enerjisinin əksər hissəsinin xarici qəsbkarlara deyil, daxili müqavimətə qarşı mübarizəyə sərf olunduğunu göstərir. Ən faciəli fakt da ondan ibarətdir ki, bu müba-

rizə sadəcə keçmiş Səfəvi dövlətinin Təhmasib başda olmaqla İsfahanın çürük ruhunu içinə hopdurmuş elitasına deyil, aşağı təbəqənin, hətta öz əlləri ilə yaratdığı ordunun nümayəndələrinə qarşı idi, həm də bu qarşıdurma aralıqsız hər gün, hər saat və hər dəqiqə davam edirdi. Buna kiçik bir örnək vermək kifayətdir. Dehlinin ələ keçirilməsindən sonra Nadir şah oğlu Nəsrullah Mirzəni Teymurilər nəslindən olan bir xatunla evləndirdiyi gün onun əsgərlərindən bir hissəsi itaətdən çıxmış və Nadirin dini sahədə yasaqlarına əhəmiyyət verməyərək, şəhərin meydanlarında toplaşıb məhərrəm ayının ənənəsinə uyğun şəkildə mərsiyələr deyib əzadarlıqla məşğul olmağa başlamışdılar. Bu sahədə ciddi islahatlar aparmaq fikrində olan Nadir, hətta öz əsgərlərinin müqavimətinə rast gədikdə son dərəcə qəzəblənmiş və M.Aksvörtinin yazdığı kimi, itaət etməyən adamlarını edam etdirmiş və meyitlərini şəhər darvazasında bir ay müddətində asılı saxlamağa əmr vermişdi ki, digərlərinə də ibrət olsun.

Nadirin yenilikçi ruhunu əzən, onun qol-qanadını sındıran son və başlıca amil isə onun öz ailəsinin içində anlayış görməməsi, öz sevimli oğlu və varisi Rzaqulu tərəfindən müqavimətlə üzləşməsi olmuşdur. Kiçik ehtiraslarla yaşayan, şöhrətpərəstlik və dəbdəbəyə düşkün Rzaqulu Nadir şahın şəxsiyyətinin dar və mühafizəkar İran mühitinə sığmayan masştabını, onun yüksək amalını dərk etməkdə aciz idi. Akademik R.Mehdiyevin qeyd etdiyi kimi, oğlunun saray həyatının cah-cəlallı, qayğısız, məsuliyyətsiz, yaramaz tərəfini seçməsi Nadiri daxilən incidirdi. Çünki o, özü belə həyat tərzi və dəyərlər sistemindən "qətiyyətlə üz döndərmiş, hərbçi sadəliyini, nizam-intizamını və ləyaqətini sarayın mənəvi bataqlığını xatırladan rahat, isti otaqlardan, əyləncədən üstün tutmuşdu".[15] Rzaqulu üçün Nadirin şücaətli və aralıqsız mücadiləsinin sərvət, hakimiyyət və eyş-işrət gətirən nəticələri məqbul, lakin bu yolda verilən qurbanlar, düçar qalınan təhlükələr və bitməyən müharibə-

[15] M.Aksvörti. Nadir şah. Bakı: "Şərq-Qərb", 2018, s. 31

lər yorucu idi. Ona görə bir an öz sayıqlığını itirən Rzaqulu açıq şəkildə "Mənim atam bütün dünyanı işğal etmək niyyətinə düşüb, ona görə də bizə və bütün İrana zülm edir. Hər yerdə döyüşlər davam edir. O ölməyincə nə bizim, nə İranın, nə də qonşu dövlətlərin dinclik tapması qeyri-mümkündür", – deyərək, atasını təhdid etmişdir.[16] Klassik bir deyim olan "Təbiət dahi insanların övladlarında dincini alır" ifadəsi Nadirin oğluna da aiddir. Əslində, Nadir şahla oğlu Rzaqulunun qarşıdurması dünya ədəbiyyatında dəfələrlə əksini tapmış tarixi qəhrəmanla bayağı və bəsit bir insanın münasibətləri mövzusunu xatırladır. Bu baxımdan, bir ata və dahi dövlət xadimi kimi Nadirin taleyi onun öz müasiri olmuş I Pyotrun həyat yoluna müəyyən mənada bənzəyir. Yeni və müasir Rusiya yaratmaq yolunda yorulmadan mübarizə aparan Pyotr ənənəvi və mühafizəkar mühitin tərəfdarı olan oğlu Aleksey ilə qarşı-qarşıya gəlmiş və onu edam etdirmək məcburiyyətində qalmışdı.

Pyotrdan fərqli olaraq, Rzaqulunun gözlərinə İransayağı üsulla mil çəkdirən Nadir bu hadisədən o dərəcə sarsıntı keçirmişdi ki, əslində, sonu görünməyən mübarizənin məğlubiyyətə uğradığını, özünün böyük və yüksək amallarının o dövr İran mühitinin bataqlığında boğulduğunu anlamışdı. Həyatının sonuna doğru artıq ümidsiz mübarizədən bezginliyə düçar olan Nadir şah "İranlılarda mərhəmət və dürüstlük yoxdur" deyə fəryad edərək yaşadığı və fəaliyyət göstərdiyi mühitin iç üzünü açıb etiraf etməyə məcbur olmuşdur.[17] O, hətta taxt-tacdan əl çəkmək və hakimiyyətini oğulları və nəvəsinə təhvil vermək haqqında niyyətini bəyan etmişdi. Akademik R.Mehdiyev Nadir şah şəxsiyyətini dəyərləndirməyə cəhd göstərən bəzi tarixçiləri bütün qeyd edilən məqamları nəzərə almağa dəvət edir, ona birmənalı şəkildə yalnız "qaniçən" və "müstəbid" ünvanını verməklə elmi baxımdan məsuliyyətsiz davrandıqlarını vurğulayır.

---

[16] M.Aksvörti. Nadir şah. Bakı: "Şərq-Qərb", 2018, s. 26
[17] Yenə orada, s. 313

Biz isə bir daha təkrar etmək istərdik ki, bütün bir cəmiyyətin mühafizəkarlığı, fanatizmi və dözümsüzlüyü ilə aralıqsız mücadilə hətta Nadir kimi dəmir iradəli və müqtədir bir şəxsiyyətin imkanı xaricində idi. Və təbii ki, belə bir cəmiyyətin mənəvi istibdadı onu sındırdı. Mühafizəkar bir ölkədə ictimai dəyişikliklərin ilkin şərti maarifçilikdən, elitanın və sonra da geniş kütlələrin düşüncə tərzinin dəyişdirilməsindən, cəmiyyətə müasir dəyərlərin təlqin edilməsindən keçirdi. Yalnız dünyanın gedişatını və özünün mövcud halını bütün gerçəkliyi ilə doğru dəyərləndirə bilən və yeniliyə meyil etməyə başlayan kütlələr islahatların təşəbbüskarlarını dəstəkləyə və hərəkatın aparıcı qüvvəsinə çevrilə bilər. Bu mənəvi və əqli yenilənmə missiyasını böyük mütəfəkkirimiz Mirzə Fətəli Axundov öz üzərinə götürərək, "Aldanmış kəvakib", "Kəmalüddövlə məktubları" və digər dahi əsərlərini ərsəyə gətirməklə Azərbaycan və İran cəmiyyətlərini yeni dövrə hazırlamışdı. Axundovun beyinlərdə və ruhlarda yaratdığı inqilab Azərbaycan Xalq Cümhuriyyətinin və İranda Səttar xan fenomeni və Məşrutə hərəkatının qələbələri ilə nəticələnmişdi. Ancaq unutmayaq ki, bu zəfərlərin bünövrəsində Nadir kimi parlaq şəxsiyyətin qəhrəmancasına mücadiləsi və həyat faciəsi durur. Heç şübhəsiz, Axundovun yolunu davam edən Azərbaycanın böyük maarifçiləri bu mənəvi və üzvi əlaqəni duyur və xalqın tarixinin ana nöqtələrini dərk etmək üçün öz axtarışlarında Nadirin surətinə təsadüfən dönə-dönə müraciət etmirdilər.

M.Aksvörtinin "Nadir şah" kitabı ilə tanış olduqca tariximizlə bağlı digər son dərəcə mühüm və konseptual suallar da ortaya çıxır və bir daha düşünürsən ki, bizim şərqşünaslıq və tarixşünaslıq elmləri bu problemlərin həllini prioritet istiqamətlərə çevirməlidir.

Kitabdan meydana gələn önəmli məsələlərdən biri tariximizdə məzhəb, sünni-şiə ixtilaflarının yeri və rolu ilə əlaqədardır. Ümumiyyətlə, orta əsrlərin bir çox dövrlərində dövlət siyasəti və ictimai-mənəvi həyatda özünü büruzə verən ifrat dini təəssüb hər zaman müxtəlif təlatümlərə yol açmışdır. Bu, istər Səfəvi dövləti, istər

Osmanlı imperiyasının tarixi üçün xarakterikdir. M.Aksvörti Səfəvilərin son dövrlərində, xüsusilə daha çox vaxtlarını eyş-işrətlə keçirən Şah Süleyman və oğlu Sultan Hüseyn zamanında mərkəzi hakimiyyətin zəifləməsi, dövlət işlərində saray əyanları və ruhanilərin, o cümlədən tanınmış şiə müctəhidi Məhəmməd Bağır Məclisinin söz sahibi olmalarının necə acınacaqlı nəticələr verməsini təsvir edir. Belə ki, Məclisinin təsiri ilə ölkədə şiəliyə zidd kimi dəyərləndirilən hər şeyə qadağa qoyulmuşdu. İçki məclisləri, qəhvəxanalar, şən musiqi və rəqslərlə bərabər islam mədəniyyəti və ədəbiyyatı tarixində özünəməxsus və önəmli yeri olan təsəvvüf də yasaq edilmişdir. Bundan başqa, qadınların sərbəstliyi bir qədər də məhdudlaşdırılmış və düşüncə azadlığı ilə bağlı digər qadağalar gətirilmişdi. Müəllifin ifadəsi ilə, Səfəvilərin son dövründə "Məhəmməd Bağır Məclisi bir növ İslam inqilabı həyata keçirmişdi".[18] Yeri gəlmişkən qeyd etmək gərəkdir ki, bu həmin Məclisidir ki, onun dini görüşləri və risalələri M.F.Axundov tərəfindən "Kəmalüddövlə məktubları"nda kəskin şəkildə tənqid edilmişdir.

Hər şeyin olduğu kimi, dini təəssübün də ifratı hər zaman mənfi nəticə verir. Tarixdə dini pedantların və özünün "ilahi" missiyasına fanatikcəsinə inanan möminlərin fəaliyyəti görülməmiş bir şey deyil. Onlar səmavi kitablarda buyurulan hər bir əmri mütləq şəkildə və riqoristcəsinə tətbiq etməklə cəmiyyəti mənəvi cəhətdən islah edəcəklərinə inanır və bu yolda, adətən, ən sərt və qəddar tədbirlərin görülməsindən çəkinmirlər. Məsələn, XV əsrdə Avropanın ən qabaqcıl Renessans şəhərlərindən biri olan Florensiyada Cirolamo Savonarola adlı bir dominikan rahibinin hakimiyyəti ələ keçirməsilə burada xristianlığın "qızıl əsrini", yəni özünün təxəyyülündə yaşayan ideal bir xristian cəmiyyətini "bərpa" etmək arzusuna düşdüyü, bu məqsədlə sərt və bəsit dini qanunların və yasaqların tətbiqinə başlaması, musiqi, rəqs, karnaval və digər əy-

[18] M.Aksvörti. Nadir şah. Bakı: "Şərq-Qərb", 2018, s. 119

ləncələrə qadağa qoyması, şəhər əhalisinə qarşı dini terror tətbiq etməsi tarixi ədəbiyyatda geniş işıqlandırılmış faktdır. Savonarolanın Renessans dövrünün humanist idealları və dünyagörüşünə zidd olan sxolastik əqidələri və fanatik əməlləri tezliklə şəhərin bütün ictimai-mədəni həyatının çökməsinə və şəhər əhalisinin üsyanına səbəb olmuşdu. Üsyan nəticəsində rahib qətlə yetirilmiş, şəhər sakinləri yenidən öz ənənəvi həyat tərzinə dönmüşdülər. Dövrün məşhur Florensiyalı tarixçisi və siyasət nəzəriyyəçisi Nikkolo Makiavelli Savonarolanı öz moizələri ilə insanların şüurunu manipulyasiya edən riyakar bir fanatik kimi dəyərləndirir, özünün "Hökmdar" əsərində onun tətbiq etdiyi dini qaydaların insanların inamını itirməsinə görə çökdüyünü yazırdı.[19]

Səfəvi dövlətinin son dövründə, M.Aksvörtinin ifadəsi ilə, "İslam inqilabının" baş verməsi də ağır nəticələrlə sonuçlanmışdı. Məhəmməd Bağır Məclisi və onun davamçıları tərəfindən aşırı şiə qaydalarının tətbiqi cəmiyyətin daha mömin olmasına, şəriət qaydalarına uyğun yaşamasına deyil, tam əksinə, dini dözümsüzlüyün və fanatizmin artmasına, daxili balansın pozulmasına, məzhəblərarası ixtilafın kəskinləşməsinə və ideoloji-ictimai ziddiyyətlərin açıq qarşıdurma səhifəsinə keçməsinə gətirib çıxarmışdı. M.F.Axundov "Aldanmış kəvakib" əsərində Şah Abbas dövründə baş verən hadisələri təsvir edərkən, mollabaşı vəzifəsini tutan Axund Səməd surətinin öz ifadəsi ilə ölkədə aparılan dini siyasətin əsas mahiyyətini açıqlayaraq yazırdı ki, şah Məhəmməd Xudabəndənin dövründə İran və ölkənin paytaxtı olan Qəzvin əhalisinin yarısı sünni məzhəbində idi; ancaq mollabaşının tutduğu yol və həyata keçirdiyi tədbirlər nəticəsində bütün sünnilər "isnə-əşəriyyəyə hidayət" edilmiş, yəni şiəliyi qəbul etməli olmuşdular. Mollabaşının sözləri ilə "indi Allahın kərəmindən səfheyi-İranda beş-altı nəfərdən ziyadə sünni tapılmaz. Bu

---

[19] Никколо Макиавелли. Избранные сочинения. Переводы с итальянского. Москва: «Художественная литература», с. 317

xüsusda İran xalqından dəxi kəmali-riyazməndliyim var ki, bəmücərrədi-təklif qədimi ata və babalarının məzhəblərindən əl çəkib hidayətə rağib oldular”.[20] Şübhəsiz, vəziyyəti bu şəkildə təsvir etdiyi zaman Axundov Səfəvilərin son dövründə Məclisinin təsiri ilə aparılan dini siyasətə də işarə edirdi. M.Aksvörtinin qeyd etdiyi kimi, Sultan Hüseynin həmişəki kimi başlıca məsləhətçiləri mollalar olduğu üçün ölkənin sünnilər yaşayan bölgələrində üsyanlar başlamış, onların ən bariz nümunəsi də Şirvan qiyamı olmuşdur. Bu dövrdə hakimiyyətin ölkədə apardığı ağlasığmaz dərəcədə uğursuz dini siyasəti nəticəsində Şirvanda “sünnilər öldürülür, onların kitabları yandırılır və onların məscidləri isə tövlələrə çevrilirdi”. Öz növbəsində qiyam qalib gəldikdən və 1721-ci ildə Şamaxıda Səfəvi hakimiyyəti devrildikdən sonra “ətraf ərazilərdə şiələrin kütləvi qırğını başladı. Şiələrin başçısı, onun qardaşı oğlu və digər qohumları izdiham tərəfindən tikə-tikə doğrandı, onların əti isə itlərə yem oldu”.[21] İngilis şərqşünasının Şirvanda məzhəb ixtilafı zəminində meydana çıxan faciəvi hadisələrlə bağlı verdiyi bu məlumat hər bir Azərbaycan tarixçisini və ümumiyyətlə, vətəndaşını düşündürməyə bilməz. Zənnimcə, gənc nəsillərin yaddaşında tarixin ağır ibrət dərsi kimi həkk olunması üçün bu hadisələr məktəb dərsliklərində öz əksini tapmalıdır. Azərbaycan cəmiyyəti tariximizdə bəzən özünü büruzə vermiş dini fanatizm təzahürlərinin eyni xalqın övladlarını, eyni torpağın sakinlərini bir-birinə qarşı nə qədər qəddar və amansız davranmağa vadar etdiyini, eyni dili danışan və mədəniyyəti bölüşən insanların özləri özlərinə necə düşmən kəsildiyini, nəticədə dövlətin məhv olduğunu, vətən torpaqlarının əldən getdiyini bilməlidir ki, belə meyillərin təkrarlanmasına, bəzi xarici qüvvələrin bu meyillərə gizli və açıq şəkildə rəvac verməsinə qarşı möhkəm milli “immunitetə” sahib olsun.

[20] M.F.Axundov. Komediyalar. Şe’rlər. “Aldanmış kəvakib”. Bakı: “Yazıçı”, 1982, s. 204-205
[21] M.Aksvörti. Nadir şah. Bakı: “Şərq-Qərb”, 2018, s. 135

Məzhəb ixtilafı yalnız ölkənin daxili həyatına deyil, xarici münasibətlərinə də öz mənfi təsirini göstərmişdir. XVI əsrin əvvəllərindən başlayan Osmanlı-Səfəvi qarşıdurması və müharibələri istər Azərbaycan, istərsə də ümumi türk tarixinin ən qanlı və faciəvi səhifələrini təşkil edir. Əslində, beynəlxalq ticarət yollarının nəzarəti və regionda hərbi-siyasi üstünlük uğrunda aparılan bu mübarizəyə məzhəb qarşıdurması kimi dini-ideoloji xarakter verilməsi iki türk xalqı arasındakı münasibətləri son orta əsrlərdə zəhərləyən ən mühüm amil olmuşdur. Bu ziddiyyət və arası kəsilməyən silahlı toqquşmalar hər iki dövləti daxilən sarsıtmış, onların iqtisadiyyatını və hərbi qüdrətini çökdürmüş, minlərlə insanın ölümünə və ya yurdlarını tərk etməsinə gətirib çıxarmış, bir çox şəhər və kəndlərin xarabazarlığa çevrilməsinə və nəticə etibarı ilə Osmanlı dövlətinin və Azərbaycanın Avropa müstəmləkəçiliyi qarşısında zəif vəziyyətə düşməsinə səbəb olmuşdur. Xüsusilə Səfəvi dövləti qurulduğu dövrdə bir metropoliya, siyasi və iqtisadi mərkəz rolunu oynayan Azərbaycanın XVIII əsrdə artıq dövlətin sıravi bir əyalətinə çevrilmiş olması düşündürücü faktdır. Və Azərbaycanın maarifçi mütəfəkkirləri bu məzhəb ixtilafını Mirzə Ələkbər Sabirin sözləri ilə tamamilə düzgün dəyərləndirmişdilər:

*Bir vəqt Şah İsmayilü Sultan Səlimə*
*Məftun olaraq eylədik islamı dü nimə,*
*Qoyduq iki tazə adı bir dini-qədimə,*
*Saldı bu təşəyyö, bu təsənnün bizi bimə...*
*Qaldıqca bu halətlə səzayi-əsəfiz biz!*
*Öz dinimizin başına əngəlkələfiz biz!*

Nadir kimi zəkalı və milli təəssübkeşliyi ilə fərqlənən bir liderin cəmiyyətin daxilində dini zəmində baş verən çaxnaşmaların, eyni zamanda iki türk dövlətinin bir-biri ilə məzhəb donu geydirilmiş uzun müddətli mübarizəsinin acınacaqlı nəticələrini gözardı etməsi

mümkün deyildi. Nadir şahın fəaliyyətinin ən mühüm cəhətlərindən biri bu ixtilafı aradan qaldırmaq, cəmiyyətə dini barış və dözümlülük gətirmək təşəbbüsü idi. O, dini sahədə həyata keçirdiyi islahatların amalını dəfələrlə bəyan edir, məqsədinin qətiyyən islam dinini zəiflətmək və ya onun əsaslarını sarsıtmaq olmadığını bildirirdi. Əksinə, məzhəb ayrı-seçkiliyinin və ixtilafının islam aləminə, müsəlman türk dövlətlərinin birliyinə necə ağır zərbə vurduğunu, onları xarici təhlükə və təcavüzlərin qarşısında zəif düşürdüyünü hamıdan yaxşı dərk edən Nadir müsəlmanların mənəvi birliyi və islam dövlətləri arasında həmrəyliyin yaranması tərəfdarı olduğunu açıqlayırdı. Təsadüfi deyil ki, Osmanlı sultanı I Mahmuda ünvanladığı məktubda o, "Rum padşahını" nümayişkaranə ehtiramla "cahan şahlarının ən əzəmətlisi, dövran xaqanlarının ən böyüyü, Allahın yaratdığı ölkələrin himayədarı, Allaha ibadət edənlərin qoruyucusu, Allahın yerdə olan kölgəsi, kafirlər ilə müşriklərin qənimi, islam ilə müsəlmanların yardımçısı" olan "islampənah hökmdar" adlandırır, Əfşar və Osmanlı dövlətlərinin arasında mehriban münasibətlər yaratmaqda özünün "məzhəblərin paklaşmasından, iki dövlətin möhkəmləndirilməsindən və iki tərəfin müsəlmanlarının dostlaşmasından başqa" bir məqsədinin olmadığını xüsusi vurğulayırdı.[22] Bu məqsədlə Nadir şah məsələnin yalnız iki qüdrətli türk-müsəlman dövlətinin əlbirliyi və həmrəyliyi ilə həll ediləcəyinin fərqində olduğunu nümayiş etdirir və Osmanlı sultanına öz məramını izhar edən namələr və elçiliklər göndərirdi. İxtilafı aradan qaldırmaq üçün o, Azərbaycan və İranda şiəliyin radikal və açıq anti-sünni təzahürlərini və mərasimlərini qadağan etməyin və Osmanlı dövləti və üləmaları tərəfindən də, öz növbəsində, cəfəri məzhəbinin digər dörd ortodoksal sünni məzhəbi (hənəfi, şafii, maliki, hənbəli) ilə yanaşı islam dininin beşinci rüknü kimi tanınmasını zəruri hesab

[22] Nadir şah Əfşar: diplomatik yazışmalar. Bakı: Şərq-Qərb Nəşriyyat Evi, 2015, s. 83-84

edirdi. Öz niyyətlərini həyata keçirmək məqsədi ilə Nadir şah Nəcəf şəhərində İmam Əli türbəsində tanınmış və nüfuzlu şiə və sünni məzhəblərinin nümayəndələri və ruhanilərinin görüşünü təşkil edərək, dini məsələlərlə bağlı aralarında razılığa gəlib məzhəb ixtilafına son qoymağı tələb etmişdi. O, Məhəmməd peyğəmbərin və Qurani-Kərimin "tək və məzhəbdə müttəhidül-üsul", yəni eyni əsilli olduqlarını, cəfəri məzhəbinə də digər "dörd rəvac məzhəblə bərabər beşinci məzhəb deyilməsini" düzgün hesab edirdi. Nadir şah sultan Mahmuda yazırdı ki, "buna qanuni yolla və sözlə nə mane və əngəl ola bilər", əgər "uca Osmanlı dövlətinin bəzi məmurları bu məsələnin çözülməsinə maneçilik törətsələr, hər birisinin qərəzliliyi onun xatirəsinə salınacaqdır, çünki qardaşlıq aləmində sözügedən işlərin təkrarı ilə təzkarı", yəni xatırladılması lazımdır.[23]

Böyük ehtimalla Nadir şahın bu sahədə özünün sələfi olmuş Fransa kralı IV Henri Burbonun 1598-ci ildə "Nant edikti" adı ilə qanun çıxardığı və beləliklə, Fransada böyük faciələr və qanlı toqquşmalarla müşayiət olunan katoliklərlə qugenotlar arasında onilliklərlə davam edən dini müharibələr dövrünə son qoyduğu, məzhəblər arasında barış və dözümlülük şəraitinin əsasını yaratdığından xəbəri yox idi (ehtimal etmək olar ki, onun son illərində şəxsi həkimi olmuş fransalı iyezuit Pyer Lui Bazen, bəlkə də, bu barədə şaha bir məlumat verə bilərdi). "Nant edikti"nin Fransanın sonrakı yüzilliklərdə hərbi-siyasi, iqtisadi və mədəni çiçəklənməsində fövqəladə yeri olmuşdur. IV Henri kimi zəka və uzaqgörənliyi ilə fərqlənən Nadir şah da sünni-şiə ixtilafına son qoymadan müsəlman xalqlarının düşdükləri bataqlıqdan çıxa bilməyəcəklərini, bu sahədə məsuliyyətli və qətiyyətli addımların zərurətini gözəl anladığı üçün Osmanlı sultanına belə bir təkliflə müraciət etmişdi. O dövrdə Nadirin irəli sürdüyü bu layihə sözün əsl mənasında inqilabi xarakter daşı-

---

[23] Nadir şah Əfşar: diplomatik yazışmalar. Bakı: Şərq-Qərb Nəşriyyat Evi, 2015, s. 100-101

yırdı. Doğrudur, onun şəkli və ya bəzi cəhətləri müəyyən mənada qəribə və ya qəbuledilməz görünə bilərdi. Eyni zamanda, belə bir layihənin XVIII əsrin müsəlman Şərqi mühitində həyata keçirilməsinin nə dərəcədə mümkün olması da ciddi suallar doğurur. Məlumdur ki, istər sünni üləmaları, istərsə şiə mollaları şahın bu planına bəzən açıq etiraz edir, bəzən də onu üstüörtülü şəkildə sözün tam mənası ilə sabotaj edirdilər. M.Aksvörtinin qeyd etdiyi kimi, sünni və şiə ruhanilərinin Nəcəfdə gəldikləri zahiri razılığa baxmayaraq, "hər kəs evinə getdikdən sonra onlar yenə də əvvəlki ibadətlərinə davam etdilər. Bu razılaşma, demək olar ki, heç nəyi dəyişmədi".[24] Bununla belə, bir şey aydındır ki, bu sahədə islahatların aparılması həyati önəmə malik zəruri məsələ idi. Əfsus ki, fransız elitasından fərqli olaraq, müsəlman xalqlarının siyasi və dini rəhbərləri Nadirin bu təklifinin mahiyyətini anlamaqda çətinlik çəkdilər və ya xalqın gələcəyi üçün mühüm olan məsələni öz dar mənfəətlərinə qurban verdilər. Bu siyasi və strateji dargörüşlülüyün acı nəticələrini hər iki dövlətin xalqları və müsəlman aləmi tezliklə hiss etməyə başlayacaqdı. Bu gün Yaxın Şərqin bir sıra ölkələrində məzhəb ixtilafı zəminində baş verən və minlərlə insanın həyatına son qoyan, şəhər və kəndlərin dağılmasına səbəb olan qanlı toqquşmalar və dini terrorizm, əslində, Nadir şahın öz dövrünü nə qədər uzaqgörənliklə qabaqladığını göstərmirmi?

Bu hadisə həm də bir daha Nadirin nə dərəcədə cəsarətli və dövlət məsuliyyətinə sahib bir lider olduğunu nümayiş etdirən faktdır. Fransız kralının fəaliyyətindən xəbərsiz olsa da, Dehlini tutmuş Nadir, heç şübhəsiz, Böyük Moğol sultanı Əkbərin dini sahədə islahat təşəbbüsləri barədə məlumata malik idi. Polikonfessional Hindistan şəraitində dinlərarası ixtilafları aradan götürmək və bu sahədə ahəngdar bir cəmiyyət qurmaq məqsədi ilə Əkbər şah "dini-ilahi" adı ilə yeni sinkretik din yaratmaq təşəbbüsü ilə

[24] M.Aksvörti. Nadir şah. Bakı: "Şərq-Qərb", 2018, s. 334

çıxış etmiş, amma uğur qazana bilməmişdi. İnsanların dini mühafizəkarlığını aradan götürmənin, onları xürafat və mövhümatdan azad etmənin son dərəcə ağır bir məsələ olduğunu dərk etsə də, Nadir şah öz xalqının və dövlətinin gələcək inkişafı üçün həyati önəmə sahib olan bu islahatları aparmaqda tərəddüd etmədi. Ancaq çox təəssüflər olsun ki, onun təşəbbüsləri uğurla nəticələnə bilmədi. Sabir Nadirin sünni-şiə qarşıdurmasına son qoymaq istəyini nəzərdə tutaraq ürək yanğısıyla yazırdı:

*Nadir bu iki xəstəliyi tutdu nəzərdə,*
*İstərdi əlac eyləyə bu qorxulu dərdə,*
*Bu məqsəd ilə əzm edərək girdi nəbərdə,*
*Məqtulən onun nəşini qoyduq quru yerdə,*
*Bir şeyi-əcibiz, nə bilim, bir tühəfiz biz,*
*Öz dinimizin başına əngəlkələfiz biz.*

Düşünürəm ki, bizim tarixşünaslıqda məzhəb ayrı-seçkiliyi və onun xalqımızın tarixinə gətirdiyi faciələr məsələsi ciddi və ətraflı şəkildə öz qiymətini almayıb və bu sahədə də dərin araşdırmaların aparılmasına ehtiyac vardır.

Kitabdan ortaya çıxan digər son dərəcə önəmli problem, ümumiyyətlə, Qərb şərqşünaslığında Azərbaycan tarixi və xüsusilə dövlətçilik tarixi məsələsinin dəyərləndirilməsi və ya bugünkü İran ərazisində tarixən mövcud olmuş dövlətlərin xarakteristikasıdır. İstər İran, istərsə də Qərb şərqşünaslığında bir qayda olaraq, müasir İran ərazisində və ya digər bir istilahla "mərkəzi müsəlman torpaqlarında" qədim dövrdən başlamış müasir zamana qədər mövcud olmuş bütün dövlətlər, orada hakimiyyətdə olan sülalələrin etnomədəni mənşəyindən asılı olmayaraq, İran (Persia) dövlətçiliyi çərçivəsində qəbul edilir. Bu həssas problemin təhlilinə bəzi tədqiqatçıların əsərlərində bu və ya digər dərəcədə toxunulub. Qeyd etmək lazımdır ki, M.Aksvörtinin kitabına yazılan ön sözün də əhəmiyyətli hissəsi bu məsələnin dəyərləndirilməsinə həsr olunub.

Bu sətirlərin müəllifi də özünün “Səlcuqilərdən Osmanlılara” adlı monoqrafiyasında və bəzi məqalələrində problemin nəzəri əsaslarını tədqiq etməyə səy göstərmiş və müəyyən nəticəyə gəlmişdir. Zənnimcə, məsələnin mahiyyəti qısaca olaraq bundan ibarətdir ki, orta əsrlər müsəlman ədəbiyyatında, xüsusilə İran mənşəli tarixçilərin və onların təsiri ilə bir sıra Osmanlı tarixçilərinin yazdıqları əsərlərdə qədim dövrlərdən başlayaraq mövcud olan və varlığını orta əsrlərdə də davam etdirən “vahid İran dövlətçiliyi” nəzəriyyəsi qəbul edilmişdir. Bu nəzəriyyəyə görə, əfsanəvi Pişdadilər və Kəyanilərdən başlayan bir hakimiyyət xətti Əhəmənilər, Sasanilər və digər sülalələrdən keçərək, islam dövründə Samanilər, Səlcuqilər, Elxanilər, Cəlayirilər, Teymurilər, Qaraqoyunlular, Ağqoyunlular və Səfəvilərdə öz “qanuni” davamını tapmışdır. Yəni istər əfsanəvi Cəmşid və Kəyumərslər, istər Keyxosrov və Daralar, istər Xosrov Ənuşirəvan və Şapurlar, istərsə də Məlikşahlar, Qazan xanlar, Şeyx Üveyslər, Cahanşahlar, Uzun Həsənlər, Şah İsmayıllar – bunların hamısı vahid İran dövlətçilik zəncirinin həlqələri sayılırdı. Bütün bu hökmdarların tamamilə müxtəlif dini və etnik mənsubiyyətinə baxmayaraq, onların hamısının ortaq cəhəti “İran hökmdarı” və ya orta əsrlər müəlliflərinin çox işlətdikləri ifadə ilə desək, “Əcəm padşahları” olmaları idi. Beləliklə, “mərkəzi müsəlman torpaqlarında” hökmranlıq etmiş türk sultanları və monqol xanlarını əski İran şahları kimi “Əcəm padşahı” elan etməklə orta əsr tarixçiləri Yaxın Şərqin türk-monqol dövlətlərini İran dövlətçiliyi tarixinin içində əridirdilər.

Farsdilli ədəbiyyatda belə misallara tez-tez rast gəlmək mümkündür. Belə ki, Qəznəvi sülaləsinin banisi olan Səbük Təkin, şamanist türk nəslindən gəlməsinə baxmayaraq, qədim İran şahlarının xələfi elan edilmişdi. Səlcuq dövrünün tanınmış şairlərindən Əbdülvase Cəbəli Xarəzmşah titulu ilə Xarəzm bölgəsinin idarəsinə təyin olunmuş türk əmiri Toğrul Təkini öz qəsidəsində “pəhlivani-mülki-İran” kimi vəsf edirdi. Və ya Anadoluda Qeysəriyyə əyanlarına ünvanlanmış məktubunda Elxanilərin vəziri Fəzlullah Rəşidəddin Qa-

zan xanı "İranın hökmranı və Kəyani şahlarının varisi" adlandırırdı. Beləliklə, öz dövrünün türk və monqol xanlarını qədim İran şahlarının varisləri kimi qələmə verməklə bu tarixçilər "vahid İran dövlətçilik zəncirinin" davam etdiyi fikrini ictimai şüura qəbul etdirirdilər. Bu da, əslində, şüubiyyə dövründə siyasi-mədəni irançılıq ideyalarını canlandıran fars mütəfəkkirlərinin nəzəriyyələrinə tamamilə uyğun idi. Ağqoyunlu dövründə özünün "Ərznamə" əsərini Uzun Həsənin oğlu Sultan Xəlilə həsr edən Cəlaləddin Dəvvani oğuzların *bayandur* boyundan gələn bu Ağqoyunlu şahzadəsinin şəcərəsini açıq şəkildə əfsanəvi İran-fars şahı Cəmşidə bağlayırdı. Səfəvilər zamanında, xüsusilə Şah Abbasın dövründə bu fikrin artıq ictimai şüurda kifayət qədər özünə yer etdiyini görürük. Belə ki, İspaniyaya mühacirət etmiş Oruc bəy Bayat öz ölkəsinin tarixini avropalılara tanıdarkən məhz bu nəzəriyyənin müddəalarından çıxış edirdi. O, hətta Əmir Teymuru İran şahı kimi təqdim edərək yazırdı: "Bizə elə gəlir ki, biz Teymurləngə Persianın (İranın) şahlarından biri kimi baxa bilərik".[25]

Mühüm cəhət ondan ibarətdir ki, həmin nəzəriyyə bu gün də dünya şərqşünaslıq mediyevistikasına təsirsiz qalmamışdır. Təsadüfi deyil ki, Qərb tarixşünaslığında, hətta bir sıra türk alimlərinin əsərlərində orta çağda "mərkəzi müsəlmən torpaqlarında" və ya "Əcəmdə" dövlətlər qurmuş və hakimiyyətdə olmuş türk-monqol sülalələri İran şahları kimi təqdim edilirlər. O cümlədən M.Aksvörti bu nəzəriyyənin davamçısı kimi çıxış edərək, Nadir şahı İran hökmdarı, onun qurduğu Əfşar dövlətini isə ənənəvi İran dövləti kimi dəyərləndirir. Beləliklə, Əhəməni və Sasani dövründəki qədim İranın fars mənşəli şahənşahları ilə türk-monqol sülalələri arasında prinsipial tipoloji fərq nəzərdən qaçır və ya qaçırdılmağa çalışılır. Bununla da sanki tarix boyu vahid İran dövlətçiliyi xəttinin mövcud olduğu fikri müdafiə edilir.

---

[25] Ş.Mustafayev. Səlcuqilərdən Osmanlılara: XI-XV yüzilliklərdə Anadolunun türk mühitində etnosiyasi proseslər. Bakı: "Elm", 2010, s. 220-221

Halbuki İran qədim dünyanın bütün digər ölkələri kimi nə din, nə mədəniyyət, nə dil, nə də dövlətçilik baxımından tarix boyu davamlılıq və vahid xətt nümayiş etdirməmişdir. Əksinə, bugünkü İran ərazisində minilliklər ərzində bir sıra müxtəlif etnosların gəlib yerləşməsi ilə burada köklü etno-mədəni və sosial-siyasi transformasiyalar baş vermişdir. Müasir İranın titul etnosu sayılan farslarla bu torpaqların qədim dövr əhalisini yalnız etnonim eyniliyi birləşdirir. Din, mədəniyyət və hətta dil bu müddət ərzində dəyişmişdir. Bu dəyişikliklərin baş verməsində bir sıra amillər, o cümlədən öncə ərəb-müsəlman, daha sonralar türk-monqol fəthləri böyük rol oynamışdır. Bu baxımdan, orta əsrlərdə İran ərazisini də əhatə edən və türk sülalələri tərəfindən qurulub idarə edilən dövlətləri "vahid İran dövlətçiliyi zəncirinin" üzvi həlqələri kimi dəyərləndirmək doğru deyil. Atilla Hun dövləti və ya Lanqobardlar krallığını İtaliya dövlətləri olaraq dəyərləndirmək yanlış olduğu kimi, Ağqoyunlu və ya Əfşar dövlətlərini də ancaq İrana aid eləmək, onları sadəcə İran dövlətləri kimi təqdim etmək eyni dərəcədə səhvdir. Lakin təəssüf ki, bu fikir orta əsrlərdə olduğu kimi, bu gün də istər İran, istərsə də Qərbdə özünə müdafiəçi tapmağa davam edir.

M.Aksvörtinin kitabı ilə tanış olduqca tarixşünaslığımızda tədqiqi önəmli olan bir sıra digər məsələlər də diqqəti cəlb edir. Məsələn, elə kitabın sərlövhəsindən də göründüyü kimi, Nadir şahın həyat yolu müəllif tərəfindən "tayfa döyüşçüsündən fateh müstəbidədək" kimi dəyərləndirilir. Xüsusi olaraq qeyd etmək gərəkdir ki, Qərb şərqşünaslığında tayfa və dövlət, köçərilik və oturaqlıq dualizmi türk xalqlarının tarixinin fundamental problemi kimi göstərilir. Düşünürəm ki, bizim elmimiz də bu nisbətən diqqətdən kənarda qalmış problemi inkar edə bilməz və bu sahədə ciddi araşdırmalar aparılması günün tələbi kimi qarşıya çıxır.

Son olaraq Nadir kimi cəmiyyətin aşağı təbəqəsindən çıxmış, öz parlaq zəkası, cəsarəti, qətiyyəti və istedadı sayəsində möhtəşəm

dövlət yaradıb şahlıq mənsəbinə yüksəlmiş, həyatını böyük amal və məqsədlərə həsr etmiş, bütün qüdrətli fateh və hökmdarlar kimi hədəfinə yetişmək uğrunda addımladığı yolda səbir, səxavət və rəhmdillik nümayiş etdirməklə bərabər qəddarlıq və amansızlıq göstərməkdən də çəkinməmiş, adını bəşər tarixinə yazmış Nadirin faciəli ölüm hadisəsindən də yan keçmək mümkün deyil. Əslində, bu böyük şəxsiyyətin mənən bu dünyanı tərk etməsi fiziki ölümündən bir neçə il əvvəl baş vermişdi. Və bu həqiqəti ilk dəfə səsləndirən onun gözləri ovulmuş sevimli oğlu Rzaqulu oldu. M.Aksvörti yazır: "Rzaqulunun gözləri kor olandan 3 gün sonra Nadir oğlunun yanına gəldi. O, şahzadənin başını öz sinəsinə qoyaraq onu öpür və göz yaşlarına boğulurdu. Orada olan saray əyanlarının çoxu da göz yaşlarını saxlaya bilmədi. Əvvəlcə Rzaqulu danışmaq istəmirdi, lakin sonra belə dedi: "Gərək biləsən ki, mənim gözlərimin nurunu almaqla sən özünü kor qoydun və öz həyatını isə məhv etdin".[26] Bütün tarixi mənbələr etiraf edir ki, oğlunun faciəsi, əslində, Nadirin özünün şəxsi faciəsinə çevrildi, onun həyatının fiaskosu oldu. Saray tarixçisi Mirzə Mehdi xan Astarabadi şahın ölümündən bir neçə il sonra öz keçmiş hökmdarı haqqında yazırdı ki, hakimiyyətinin ilk illərində Nadir şah ölkəni ədalət və qayğı ilə idarə edir və buna görə ölkənin bütün əhalisi onu qorumaq üçün canlarından keçməyə belə hazır idi. Ancaq sonra o, "pisniyyətli casusların, narazı məmurların təhriki ilə ən yaxşı və sevimli oğlu Rzaqulunun gözlərini çıxartdı. Tez və axmaqcasına həyata keçirilən bu qəddar qərardan sonra vicdan əzabı çəkən Nadir sanki ağlını itirdi".[27] Onun bütün mənliyini sarsıdan bu faciə həm də həyat və fəaliyyətinin dönüş nöqtəsi, ömrünün son pərdəsinin başlanğıcı oldu. Bundan sonra hərbi işlər, idarəçilik və şəxsi güzəranında get-gedə daha çox uğursuzluqlara düçar olan Nadir şah bu mənəvi yükün ağırlığına

---

[26] M.Aksvörti. Nadir şah. Bakı: "Şərq-Qərb", 2018, s. 314
[27] Yenə orada, s. 317

dözə bilməyib əvvəlki həyat eşqini, dinamizm və qətiyyətini itirdi. Onun öz övladına qarşı amansız hərəkətinin səbəbi isə bəşər tarixində bütün taxt-tacları kölgə kimi müşayiət edən saray əyanlarının intriqaları, elit qruplaşmaların hakimiyyət və var-dövlət uğrunda daxili çəkişmələri və hökmdarla varisi arasında səpdikləri etimadsızlıq toxumları oldu. Tədricən Rzaqulunun təcrübəsizliyi və səbatsızlığından, Nadirin isə təbiətində olan çılğınlıqdan istifadə edən əyanlar onların hər ikisini hörümçək kimi məharətlə və səbirlə hördükləri tora salmağa müvəffəq oldular. Atasına qarşı törədilən sui-qəsddə Rzaqulunun birbaşa iştirakı və günahı olmasa da, o, görünür, bu işdən tamamilə xəbərsiz də deyildi. Lakin Nadirin canına qıyıb onu aradan götürmək niyyətində olan əyanların sui-qəsd cəhdi uğursuzluqla nəticələndikdə bütün suçu Rzaqulunun üzərinə atmağı bacardılar. Onsuz da oğlundan şübhələnən və qəzəbindən məsələni sona qədər araşdırmağa səbri yetməyən Nadir öz varisinin gözlərinə mil çəkmək əmrini verməklə həyatda öz böyük planlarının üzərindən də xətt çəkmiş oldu.

Rzaqulunun kor edilməsi bir hökmdar ailəsinin daxili və faciəvi bir epizodu kimi görünə bilər, çünki Nadir tarixdə öz övladına qıyan birinci və yeganə hökmdar deyildi. Xüsusilə Səfəvi dövründə şahzadələrə qarşı belə "cəza" üsulu geniş yayılmışdı. Yenə də M.F.Axundov "Aldanmış kəvakib" əsərində bu qorxunc ənənəni kəskin şəkildə tənqid edir. Dövlət əyanlarının Yusif Sərracdan sonra taxta oturtmaq üçün namizəd axtardıqları və Şah Abbasın harada gizləndiyini bilmədikləri vaxt məlum olur ki, "Səfəviyyə şahzadələrinin heç biri səltənətə şayistə deyil: tamam kəməndiş və kordurlar. Bir parasını Şah İsmayıl sani (ikinci – Ş.M.) kor edibdir, bir parasın şah Abbas özü".[28] Lakin Nadir şahın varisinin gözlərinə mil çəkilməsi hadisəsinə bütöv bir xalqın tarixi nöqteyi-nə-

---

[28] M.F.Axundov. Komediyalar. Şe'rlər. "Aldanmış kəvakib". Bakı: "Yazıçı", 1982, s. 225

zərindən baxdıqda, onun mühüm rəmzi xarakter daşıdığı görünür. Çünki yuxarıda da qeyd edildiyi kimi, Rzaqulunun faciəsi Nadir şahın sonu və beləliklə, onun illərlə böyük fədakarlıq və qurbanlar sayəsində qurduğu dövlətin süqutu oldu. Bu isə, nəticə etibarı ilə bütün ölkənin yenidən parçalanması, ərazilərin itirilməsi, daxili hərbi qarşıdurmaların və silahlı toqquşmaların başlanması, şəhər və kəndlərin xarabazarlığa çevrilməsi, insanların məhv olması və öz ev-eşiklərindən məhrum olmasına gətirib çıxaracaqdı. Bu hadisə orta əsrlər tariximizdə mənsəbpərəstlik və hərislik duyğuları ilə hərəkət edən müxtəlif feodal qruplaşmalarının daxili çəkişmələri nəticəsində dövlətçiliyin necə çökməsinin klassik bir örnəyidir. Bu baxımdan akademik R.Mehdiyevin xalqımızın tarixi taleyi ilə bağlı söylədiyi fikir maraqlı və diqqətəlayiqdir: "Dövlət maraqlarının mənsəbpərəstlik və hərislik duyğuları ilə hərəkət edən şəxslərin mənfəətlərindən daha yuxarıda dayanmadığı hər bir tarixi mərhələdə xalqımız bunun əvəzini müstəqilliyinin itirilməsi ilə ödəmiş, məhv olmaq təhlükəsi ilə üzbəüz qalmışdır. Müxtəlif vaxtlarda ayrı-ayrı qüvvələrin şöhrətpərəstliyi, vəzifə iddiası naminə yaratdıqları mənasız çəkişmələrin nəticəsidir ki, Azərbaycan öz tarixi torpaqlarının böyük bir qismini itirmiş, qüdrətli dövlətçilik ənənələrinə sarsıdıcı zərbə vurulmuşdur. İnanmaq istərdim ki, gələcək nəsillər bu dərslərin mahiyyətini lazımi qaydada anlayacaq, ondan zəruri nəticələr çıxarmağı bacaracaqlar".[29]

Beləliklə, M.Aksvörtinin "Nadir şah" monoqrafiyasının Azərbaycan dilində çap olunmasının əsas qayəsi sadəcə Qərb şərqşünaslığının uğurlu bir tədqiqatının Azərbaycan oxucusuna çatdırılması ilə məhdudlaşmır. Bu nəşrin məqsədi həm də Azərbaycan ictimaiyyətini öz tarixi və öz gələcəyi haqqında ciddi düşünməyə sövq etməkdən ibarətdir...

---

[29] Nadir şah Əfşar: diplomatik yazışmalar. Bakı: Şərq-Qərb Nəşriyyat Evi, 2015, s. 47

**Vidadi MUSTAFAYEV**
*AMEA akad. Z.M. Bünyadov adına Şərqşünaslıq İnstitutunun İran tarixi və iqtisadiyyatı şöbəsinin müdiri, t.ü.f.d., dosent*

# MAYKL AKSVÖRTİNİN "NADİR ŞAH" KİTABI VƏ MÜASİR DÖVR




Burada artıq təqdimatı keçirilən kitab və xüsusən kitabın ərsəyə gəlməsinin ideya müəllifi və elmi redaktoru akademik Ramiz Mehdiyevin əsərin tərcüməsinə yazdığı geniş, əhatəli, müəyyən mənada həmçinin proqram xarakteri daşıyan "Ön söz" və "Son söz" haqqında ətraflı danışıldı. Həm əsər, həm də "Ön söz" və "Son söz"-ün Azərbaycan tarixşünaslığı və o cümlədən nadirşünaslıq üçün əhəmiyyəti diqqətə çatdırıldı. Deyilənlərə nəsə əlavə etmək çətin olsa da, bir neçə kəlmə ilə biz də kitab haqqında öz mülahizələrimizi bildirməyi vacib hesab edirik.

Tarix mürəkkəb, çoxşaxəli, artıq baş vermiş müxtəlif səviyyə və xarakterli, istiqamətli hadisə və hadisələr silsiləsi və ya sistemi kimi bir variantlı olsa da, onun tarixşünaslıqda inikası, xüsusən faktların seçilməsi, təhlili və dəyərləndirilməsi konkret zaman və şəraitdə, yəni qlobal, regional, milli səviyyə və miqyasda baş verən mühüm dəyişikliklərin təsiri nəticəsində daim dəyişir. Bunu

istənilən ölkənin, o cümlədən Azərbaycanın tarixşünaslığında müşahidə etmək olar. Azərbaycanda tarixşünaslığın çoxəsirlik tarixi olsa da, onun yeni, institusional mərhələsi Sovet hakimiyyəti illərində başlanmış və Azərbaycanın öz müstəqilliyini bərpa etməsindən sonra davam etməkdədir. Məlum olduğu kimi, Sovet dövründə Azərbaycan tarixşünaslığı müəyyən ideoloji prinsip və yanaşma əsasında böyüyür və inkişaf edirdi. Müstəqilliyin bərpa edilməsi ilə Azərbaycan Respublikası beynəlxalq münasibətlər sisteminin müstəqil subyektinə çevrilmiş və nəinki öz tarixini, eləcə də regional və qlobal tarixi müstəqil şəkildə öz maraqları prizmasından yazmaq imkanı əldə etmişdir. Başqa sözlə, Azərbaycan tarixşünaslığı ideoloji-sinfi tarixşünaslıqdan milli tarixşünaslığa keçid mərhələsinə qədəm qoymuşdur. Azərbaycan tarixşünaslığı bütövlükdə həmin istiqamətdə hərəkət etsə də, bir sıra obyektiv və subyektiv səbəblərdən müəyyən daxili və xarici müqavimətlə rastlaşır.

Bir dövlət xadimi kimi akademik Ramiz Mehdiyevin son illər həyata keçirdiyi təşəbbüslər tarixşünaslığımızın və tarixçilərimizin milli istiqamətdə hərəkətinin, milli tarixşünaslığın formalaşması və ya tarixşünaslığımızın milliləşdirilməsinin sürətlənməsi və genişlənməsinə keçid mərhələsinin daha tez başa çatmasına xidmət edir.

Azərbaycan tarixşünaslığının mühüm məsələlərindən biri də Azərbaycanın tarixi şəxsiyyətlərinə münasibət məsələsidir. Tarixi şəxsiyyətlərin tarixdə roluna münasibət birmənalı olmasa da, aparıcı meyil onların xüsusi şəraitdə və zaman kəsiyində həlledici rol oynadıqları fikrinin qəbul edilməsidir.

Azərbaycan xalqı ictimai həyatın bütün sahələrində yetişdirdiyi böyük şəxsiyyətlər baxımından bənzəri az olan, xüsusən qonşu xalqlar arasında seçilən xalqlardan biridir. Ona görə bizim tarixşünaslığımızda böyük tarixi şəxsiyyətlər mövzusu təqdimatı keçirilən kitabın elmi redaktorunun yazdığı “Ön söz”də qeyd edildiyi kimi, ayrıca yer tutmalıdır. Azərbaycanın görkəmli tarixi şəxsiyyətləri arasında Nadir şah Əfşarın özünəməxsus müstəsna yeri vardır.

Məlum olduğu kimi, Nadir şahın türk\azərbaycanlı mənşəyi Qərb və İran tarixşünaslığında heç bir mübahisə doğurmasa da, onun yaratdığı dövlət hər iki tarixşünaslıqda İran\fars dövləti kimi təqdim edilir. Qərb tarixşünaslığında bu ənənənin mövcudluğu bir tərəfdən istər Nadir şahın hakimiyyəti illərindən əvvəl və onun hakimiyyəti illərində, istərsə də ondan sonra beynəlxalq münasibətlər sistemində indiki İran ərazisinin xoronimi kimi "Persiya" termininin sabitləşməsi, digər tərəfdən Qərb tarixçilərinin antitürk, ariyasentrizmindən irəli gələn iranpərəst mövqeyi, həmçinin müasir millət və millət-dövlət anlayışlarını əsassız olaraq İranda baş verən tarixi hadisələrə şamil etmələri ilə izah oluna bilər. Qərb tarixşünasları indiki İran ərazisində meydana gələn Azərbaycan\türk dövlətlərinin etnik xüsusiyyətlərini, dövlət yaradan xalqın rolunu nəzərə almadan ətalətin və ya daha çox antitürk və ariyasentrist mövqedən çıxış edərək onları Persiya və perslərin (farsların) dövləti adlandırırlar. Halbuki orta əsrlərdə və ondan əvvəl mövcud olmuş dövlətlər dövlət yaradan xalqın nümayəndəsi olan hakim sülalənin adı ilə adlandırılır. Qərb tarixçiləri İrana xüsusən həmin ərazini öz hakimiyyəti altında idarə edən türk\Azərbaycan sülalələrinə münasibətdə ümumi qəbul olunmuş prinsipə əməl etmirlər. Bu bir tərəfdən qeyd edildiyi kimi, Qərb alimlərinin antitürk, İran (farspərəst) mövqeyi əsasında azərbaycanlıların yaratdığı Səfəvi, Nadir şah Əfşar dövlətlərini İranın milli dövlətləri kimi qələmə vermələri, digər tərəfdən müasir, elmi Azərbaycan tarixşünaslığının nisbətən gec formalaşması və həmin istiqamətin inkişaf etməməsi ilə bağlı idi. Azərbaycan tarixşünaslığında həmin mövzunun intensiv şəkildə işlənməsi Qərbin mövqeyinin dəyişməsinə səbəb ola bilər.

Qərb iranşünaslığının təsiri ilə hazırda İran tarixşünaslığında Nadir şahın iranlı olması və İran dövləti yaratması, daha doğrusu, İran dövlətini məhv olmaqdan xilas etməsi, onun əzəmətini özünə qaytarması və s. baxımından tam yekdillik hökm sürür. Bununla

belə İranda Nadir şaha münasibət birmənalı deyildir. Bu, onun türklüyü\azərbaycanlılığı – etnik mənsubiyyəti ilə iranlılığını – ərazi mənsubiyyətini uzlaşdırmağın çətinliyindən irəli gəlir.

Maraqlıdır ki, İranda Nadir şaha böyük diqqət və ehtiram Qacar sülaləsinin hakimiyyətinin zəifləməyə başlaması, xüsusən Rza xanın hakimiyyət pillələri ilə irəliləməsi, antiazərbaycan\antitürk əhval-ruhiyyəsinin meydana gəlməsi ilə bir zamanda başlanmış, Rza xanın şah elan edilərək yeni fars sülaləsi – Pəhləvi sülaləsinin əsasını qoyması ilə davam etmişdir. Rza xan tacqoyma mərasimində Qacar şahlarının varisi olmadığını göstərmək üçün Sasani şahlarının tacları nümunəsində yeni tac düzəltdirmiş, Nadir şahın taxtını seçmiş, ona Nadir şahın almazla bəzədilmiş qılıncı təqdim olunmuş və tacı başına özü (qaydaya görə tacı şahın başına ruhanilər qoyurdu) qoymuşdu. Rza şah hakimiyyətinə legitimlik vermək üçün Nadir şahın adından geniş yararlanırdı.

Rza şah öz sosial mənşəyi, peşəsi və hakimiyyətə gəliş yolu, eləcə də sonrakı fəaliyyəti ilə Nadir şahın yolunu getdiyini, həmin yolu davam etdirəcəyini vurğulamaq istəyirdi. Lakin türk-Azərbaycan etnosuna arxalanan, eyni zamanda digər etnoslara qarşı ayrı-seçkilik siyasəti yeritməyən Nadir şahdan fərqli olaraq, Rza şah sərt millətçi-antitürk\antiazərbaycan mövqeyi tutaraq, qeyd edildiyi kimi, azərbaycanlılara qarşı hərtərəfli, zorakı assimilyasiya siyasəti yeridirdi. Başqa sözlə, bir tərəfdən türk\azərbaycanlı Nadir şaha ehtiram nümayiş etdirir, digər tərəfdən isə onun mənsub olduğu xalqa qarşı milli zülm siyasəti yeridirdi. Bunun nəticəsində Rza şah hakimiyyətini möhkəmləndirdikdən sonra Nadir şah demək olar ki, yaddan çıxdı. Nadir şah İran ictimai-siyasi fikrində ikinci dəfə 1956-cı ildən sonra – Məhəmməd Rza şahın İranda neftin milliləşdirilməsi ilə bağlı yaranmış kəskin daxili böhrandan ABŞ-ın yardımı ilə çıxdıqdan və hakimiyyətini daha da möhkəmləndirdikdən sonra gündəmə gəldi. Həmin dövr azərbaycanlılara qarşı sərt milli zülm siyasəti güclənməkdə idi. Həmin siyasətin ən yüksək səviy-

yəyə çatdığı zaman Nadir şaha ehtiram özünün ən yüksək zirvəsinə çatmışdı. Bu, hər şeydən əvvəl İran ərazisində hökmranlıq etmiş Nadir şaha ən əzəmətli heykəlin qoyulmasında özünü göstərdi.

Yeri gəlmişkən, onu da qeyd etmək lazımdır ki, İranda Pəhləvi sülaləsinin hakimiyyəti illərində heykəli qoyulan ikinci hərbi-siyasi şəxsiyyət indiki Əfqanıstanda anadan olmuş, bəluc tayfalarından birinə mənsub olan Səffari sülaləsinin (861-901\1003) banisi Yaqub Lis Səffari (861- 879) olmuşdur. Həmin şəxsiyyətin ən əsas xidməti fars dilini saraya daxil etməsi olmuşdur. Sünni məzhəbinə mənsub olan həmin tarixi şəxsiyyətə heykəl 1977- ci ildə İslam inqilabı ərəfəsində qoyulmuşdu.

Nadir şaha heykəl qoyulması bizim fikrimizcə, onun İran tarixi qarşısında xidmətlərini ön plana çəkmək yox, ondan siyasi-ideoloji məqsədlər üçün istifadə etməklə bağlı idi.

Belə ki, heykəlin qoyulduğu tarixə nəzər saldıqda məsələnin həmin cəhəti özünü aydın göstərir. Heykəl 1963-cü ildə qoyulmuşdur. 1963-cü il İranda "Ağ inqilab" və ya "Şah və xalqın inqilabı" adlandırılan aqrar islahatların və onu müşayiət edən ictimai həyatın, siyasi sfera istisna olunmaqla, bütün sahələrində geniş islahatlara başlandığı il idi. Aqrar islahat iri torpaq sahibliyinin ləğv edilməsinə yönəldiyindən siyasi hakimiyyətdə olan həmin təbəqənin, digər sahələrdə keçirilməsi nəzərdə tutulan islahatlar, həm də ruhanilərin mövqeyinin zəiflədilməsinə hesablandığından ruhanilərin geniş müqaviməti ilə üzləşirdi.

Nadir şah tərəfindən iri torpaq sahibləri-dehqanların torpaq mülklərinin, ruhanilərin iqtisadi dayaqlarından biri olan vəqflərin müsadirə edilməsi, eyni zamanda onların cəmiyyətin həyatına təsirinin son dərəcə məhdudlaşdırması İran şahı üçün bir nümunə xarakteri daşıyırdı. Ona görə Nadir şahın heykəli daha çox simvolik məna kəsb edirdi. Yəni İran şahı Məhəmməd Rza Pəhləvi Nadir şahın yolunu davam etdirərək xalqı iri torpaq sahibləri və ruhanilərin təsiri və zülmündən xilas etmək əzmində olduğunu nü-

mayiş etdirmək istəyirdi. Başqa sözlə, şah xilaskar missiyası yerinə yetirdiyini və islahatlar nəticəsində İranı Nadir şah kimi regionun ən güclü dövlətinə çevirmək məqsədi güddüyünü nümayiş etdirmək üçün Nadir şah obrazından istifadə etmişdir. Bununla bağlı onu da əlavə etmək olar ki, İran rəsmi tarixşünaslığında Səfəvilər dövləti İran milli dövlətçiliyinin bərpaedicisi kimi qəbul edilsə də, həmin sülalənin nümayəndələrindən heç kimə heykəl qoyulmamışdır. Bu da Səfəvilər dövlətində dinin\şiəliyin və ruhanilərin mühüm rol oynaması ilə bağlı idi. Əməldə dünyəvi dövlət prinsiplərini həyata keçirən və bununla bağlı olaraq ruhanilərin ictimai həyata təsir imkanlarını ardıcıl məhdudlaşdırmaq siyasəti yeridən Pəhləvi sülaləsi Səfəvi şahlarını özü üçün nümunə kimi seçə bilməzdi. Heykəl üçün Məşhəd şəhərinin seçilməsi də siyasi-ideoloji məna daşıyırdı, çünki Məşhəd Nadir şah dövlətinin paytaxtı olsa da, daha çox şiələrin 8-ci imamı İmam Rzanın məqbərəsi ilə məşhur idi. Məhz İmam Rzanın təsirini zəiflətmək üçün məqbərənin yanında ona rəqib kimi dinə və ruhanilərə münasibəti bəlli olan Nadir şahın əzəmətli heykəli ucaldılmışdır.

Nəhayət, onu da qeyd etmək lazımdır ki, heykəlin qoyuluşu ilinin İran tarixinin Nadir şahla bağlı heç bir əlamətdar hadisəsi ilə əlaqəsi yox idi. Digər tərəfdən, İranda həmin vaxtlar Nadir şaha həsr edilmiş hər hansı təntənəli mərasim keçirilməsi haqqında məlumat da yoxdur.

İran İslam inqilabından sonra məlum səbəblərdən Nadir şaha münasibət də xeyli soyuyubdur. Cənubi Azərbaycanda milli kimlik və onun əsas baza ünsürü olan Azərbaycan dili uğrunda mübarizə və həmin məsələdə Səfəvilər və Nadir şah zamanı türk dilinin hakim dövlət dili olduğunun vurğulanması həmin münasibətə birbaşa təsir edir. İranda panfarsist millətçilər Nadir şah dövlətinin İran dövlətçilik ənənəsi (icra hakimiyyəti – vəzirlər sistemi, mülki bürokratiya, dinin və ruhanilərin rolu və s.) ilə heç bir əlaqəsi olmadığını xüsusi qeyd edir, dövlətin iranlılıq mahiyyətini həmin

dövrdə yazılmış “tarixlər”in köməyi ilə, ilk növbədə İran termininin neçə dəfə işlənməsi ilə əsaslandırmağa çalışırlar. Beləliklə, Nadir şah İran şahı hesab edilsə də, fars olmadığından iranlılıqla əlaqəsi şübhə doğurur. Burada onu da əlavə etmək olar ki, fars millətçi dairələrini təmsil edən, həmçinin məsələyə obyektiv yanaşan bəzi alimlər Səfəviləri İran milli dövlətini bərpa edən sülalə hesab etmirlər. Onlar İran dövlətçiliyinin bərpasını Rza şahın hakimiyyətindən hesablayırlar.

Çünki istər Səfəvilər, istərsə də Nadir şah, həmçinin Qacarlar sülaləsinin hakimiyyəti illərində dövlət yaradan xalq qismində türklər\azərbaycanlılar və ya Azərbaycan xalqının müxtəlif qollarını təmsil edən etnik qrupların çıxış etdiyini yaxşı bilirlər. Digər tərəfdən, həmin dövlətlərdə əsl fars dövlətləri olan Əhəmənilər və Sasanilərdən fərqli olaraq fars dili fars etnosunun sosial statusuna uyğun olaraq köməkçi funksiya yerinə yetirirdi. Nəhayət, məlum bir faktı da xatırlatmaq olar; Səfəvilər, Nadir şah, Qacarlar türklərdən və ya əsasən türklərdən ibarət hərbi dayağa etimad edirdilər.

Yuxarıda qeyd edilənlər Azərbaycan xalqının öz görkəmli tarixi şəxsiyyətlərinə, o cümlədən Nadir şaha sahib çıxmaqda daha geniş və ardıcıl fəaliyyət göstərməsinin zəruriliyini göstərir.

Kitab haqqında, xüsusən “Ön söz”də onun məziyyətləri və nöqsanları haqqında deyilənləri təkrar etməyə ehtiyac yoxdur. Deyilənləri qüvvətləndirərək onu əlavə etmək olar ki, kitabda Nadir şahın fəaliyyətinin əsas dövrləri şəxslərarası münasibətlər səviyyəsində faktlarla zənginləşdirilərək elmi-populyar formada təqdim edilmişdir. Yuxarıda qeyd edildiyi kimi, müəllif Nadir şaha panariyayizm, hətta paniranist mövqeyindən yanaşmışdır. Müəllif, “Ön söz”də deyildiyi kimi, nəinki Azərbaycanla bağlı hadisələri işıqlandırmır, hətta Azərbaycan yaxud İran türkləri ifadəsini belə işlətmir. Şimali Azərbaycana isə əsl müasir paniranist, panfarsist mövqedən yanaşır. O yazır: “indiki Ermənistan, Gür-

cüstan və Şirvan". Müəllifin hazırkı millətçi İran ziyalıları kimi "Aran" yazmadığı təəccüb doğurur.

Hazırda İran ilə Azərbaycan Respublikası arasında rəsmi münasibətlər ən yüksək səviyyədə olsa da, iki ölkə arasında "Dostluq müqaviləsi" imzalansa da, İranın zahirən qeyri-rəsmi informasiya-ideoloji, hətta bir çox elmi dairələrində Azərbaycan Respublikasının varlığı İranın mövcudluğu üçün təhdid hesab edilir, həmin təhdidi aradan qaldırmaq üçün müxtəlif tədbirlər təklif edirlər. Bunu Azərbaycan Respublikasına qarşı fəaliyyət göstərən çoxsaylı internet resursları, tez-tez təşkil edilən siyasi, dini, elmi toplantılar, konfranslar, nəşr edilən jurnal, məqalə, kitablar və s. aydın şəkildə nümayiş etdirir.

Maykl Aksvörtinin kitabı haqqında söhbəti davam etdirərək bir cəhətə diqqət yetirmək gərəkdir. Məlum olduğu kimi insanın hiss və emosiyalarına təsir edən informasiya onun tərəfindən daha tez və asan mənimsənilir və uzun müddət yaddaşlarda qalır. Ona görə geniş oxucu kütləsi haqqında danışılan kitabı mütaliə edərkən Nadir şahın şəxsi həyatı, ailədaxili və yaxınları, eləcə də ayrı-ayrı hərbi mülki və başqa şəxsiyyətlər ilə münasibətləri ilə bağlı informasiyanı daha tez mənimsəyir və Nadir şahın fəaliyyətinin qlobal mahiyyətini unudur. Başqa sözlə, Nadir şahla bağlı xırda məsələlər böyüdülür, böyük məsələlər isə ötəri qeyd edilərək kiçildilir.

Haqqında danışılan kitabın əsas qəhrəmanı Nadir şah yalnız xilaskar və fateh deyil, həm də bənzədildiyi digər fatehlər – Makedoniyalı İsgəndər (ellinizm) və Napoleon (müasir Avropanın atası) kimi gələcəyə yönəlmiş və bəşəriyyətin inkişafının qlobal meyillərini əks etdirən ideyalar sahibi idi. Bu hər şeydən əvvəl həmin dövrün müsəlman və türk dünyasını əsasən əhatə edən üç böyük müsəlman-türk dövlətinin bu və ya digər şəkildə birləşdirilməsi ideyasının irəli sürülməsində özünü göstərirdi. Nadir şah həmin birliyə nail olmaq üçün onun yolunda əsas maneə olan si-

yasi islamın\şiəliyin status və funksiyasını aradan qaldırmağa və ya məzhəblərin bərabərhüquqluluğunu təmin etməyə çalışmışdır.

Yeri gəlmişkən İran İslam Respublikasında cənubi azərbaycanlıların milli kimlik və ana dili uğrunda fəaliyyətinə qarşı mübarizə aparan qatı fars millətçiləri azərbaycanlıları "pantürkizm"də ittiham edir və xüsusi olaraq göstərirlər ki, onların İranda "pantürkizm"ə qarşı mübarizəsi əslində türk birliyinə qarşı mübarizənin ön cəbhəsidir, çünki İran türk arealının coğrafi və fiziki cəhətdən birləşməsi qarşısında əsas səddir və regionun, eləcə də dünyanın türk birliyinə qarşı duran qüvvələri İrana həmin sahədə geniş dəstək göstərməlidir. Bundan əlavə, İran İslam Respublikasının meydana gəlməsi, burada ruhanilərin ali hakimiyyətinin təsbit olunması və şiəliyin dövlət dini elan olunması obyektiv olaraq onsuz da zəif olan islam birliyini daha da zəiflədir. Yəni hazırkı İran türk birliyi və islam birliyi üçün bir maneə rolunu oynayır, hərçənd həmin birliyin formalaşmasına ciddi təsir göstərə bilmir.

Təkcə həmin fakt Nadir şahın zamanını qabaqlamış ideyasının böyük tarixi əhəmiyyət daşıdığını göstərir. Paniranist və panfarsistlərin səylərinə baxmayaraq, Nadir şahın türk-müsəlman birliyi ideyası əsasən yeni şəraitdə və yeni formada reallaşmışdır deyə bilərik. Belə ki, müsəlman-türk birliyi ideyası zaman keçdikcə tərkib hissələrinə ayrılaraq iki ideya şəklində təzahür etmişdir. Türk xalqlarının birliyi – Böyük Turan və islam xalqlarının birliyi – İslam ittifaqı. Həmin ideyalar təşkilati forma kəsb edərək türk və müsəlman xalqlarının milli azadlıq və müstəmləkəçiliyə qarşı mübarizəsinə ciddi təsir göstərmişdir. Həmin ideyanı, türkləri və müsəlmanları bir dövlətdə birləşdirmək şəklində həyata keçirmək mümkün olmasa da, yeni şəraitdə, XX əsrin 60-cı illərinin əvvəlində müstəqil müsəlman dövlətlərinin ittifaqı – İslam Əməkdaşlıq Təşkilatı və XX əsrin sonlarında, SSRİ dağıldıqdan və türk respublikalarının öz müstəqilliklərini bərpa etməsindən sonra müstəqil türk dövlətləri birliyi – 1992-ci ildən türkdilli dövlət başçıları-

nın zirvə görüşləri; 2009-cu ildən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası formasında həyata keçirilmişdir. Nadir şahın dini dövlətdən ayırmaq ideyası da İslam dünyası üçün son dərəcə yeni və zamanını qabaqlayan bir ideya idi. Həmin ideya müsəlman ölkələrində ilk dəfə Azərbaycan Xalq Cümhuriyyətində həyata keçmiş və ondan sonra müsəlman ölkələrində çətinliklə olsa da, aparıcı meylə çevrilmişdir.

Bütün bunlar Nadir şahın böyük ideyalara sahib olan, ideyaları özündən sonra reallaşan böyük tarixi şəxsiyyət olduğunu nəzərə çarpdırır və onun Azərbaycan xalqına mənsubluğu isə xalqımızın böyüklüyünü göstərir. Buna görə xalqın öz böyük şəxsiyyətlərini tanıması və onlara sahib çıxması qarşıda duran mühüm vəzifədir. Həmin yolda dövlətimizə, xalqımıza və tarixçilərmizə böyük uğurlar arzu edirik.

**Səməd BAYRAMZADƏ**
*AMEA akad. Z.M. Bünyadov*
*adına Şərqşünaslıq İnstitutunun*
*Cənubi Azərbaycan şöbəsinin müdiri, t.ü.f.d., dosent*

# MAYKL AKSVÖRTİNİN "NADİR ŞAH" KİTABI AZƏRBAYCANÇILIQ BAXIMINDAN



Ermənistan silahlı qüvvələri və ermənilərin Dağlıq Qarabağdakı separatçı dəstələrinin Vətənimizin ərazi bütövlüyünə təcavüz etdiyi bir zamanda, torpaqlarmızın 20%-nin yadelli qəsbkarlar tərəfindən işğal olunduğu bir şəraitdə Azərbaycan ikinci dəfə dövlət müstəqilliyini elan etdi və həlli uzun illər sürəcək çox böyük problemlər qarşısında dayanmalı oldu. Digər bir tərəfdən də Azərbaycanı müstəqil dövlət kimi görmək istəməyən, onun zəngin sərvətlərindən bəhrələnməyə çalışan müəyyən qüvvələr ölkəmizin əleyhinə fəal iş aparırdılar. Həmin qüvvələr o dövrdə yaranmış belə bir gərgin şəraitdən istifadə edərək məkrli məqsədlərini həyata keçirməyə çalışırdılar. Lakin 1993-cü ilin iyununda xalqın istəyi ilə yenidən ölkə rəhbərliyinə qayıdan ulu öndər Heydər Əliyevin fəaliyyəti sayəsində dövlətçiliyə qarşı yönəlmiş cinayətkar qəsdlərin qarşısı alındı, ölkədə sabitlik yarandı, zəruri islahatlar aparıldı. Azərbaycanın dövlət müstəqilliyi dönməz və əbədi xarakter aldı. Respublikamız müstəqil, demokratik dövlət quruculuğu prosesinə başladı. Azərbaycan özünün enerji, nəqliyyat

və ərzaq təhlükəsizliyini təmin edib, dünya birliyinin bərabərhüquqlu üzvünə çevrildi.

Son illərdə Azərbaycanda iqtisadiyyatla paralel şəkildə elmi, ədəbi, mədəni proseslərdə, xüsusilə ordu quruculuğunda baş verən irəliləyişlər və uğurlar cəmiyyətimizdə psixoloji-siyasi ruh yüksəkliyinin təmin olunmasını əsaslı şəkildə şərtləndirir. Bütün bunlar ulu öndər Heydər Əliyevin yürütdüyü siyasətin Prezident İlham Əliyev tərəfindən daha da inkişaf etdirilməsinin, müasir Azərbaycan dövləti modelinin gerçəkləşməsinin məntiqi nəticəsidir. Bu gün Azərbaycan regionda qüdrətli dövlətə çevrilib. Bu da uzun illər müharibə şəraitində yaşayan bir xalqın və onun ordusunun mənəvi-psixoloji ruhunun yüksək səviyyədə saxlanılmasına xidmət edən güclü amildir.

Biz də çalışdığımız sahədə öz gücümüz çərçivəsində elə bir təbliğat aparmalıyıq ki, cəmiyyətin hər bir üzvü, xüsusilə gələcəyimizin təminatçısı olan gənc nəslin nümayəndələri, bir sözlə, hər bir azərbaycanlı yüksək vətənpərvərlik hissini həmişə öz daxilində hiss etsin.

Uzun illər yaşadığımız kommunist rejimi dövründə ictimai elmlər, xüsusilə də tarix elmi "yuxarı"dan idarə edilirdi. Həqiqəti yazmaq və əks etdirmək üçün göstərilən ən xırda cəhd çox ciddi və əsaslı təzyiqlərə məruz qalırdı. Nəticədə, bu vəziyyət ona gətirib çıxardı ki, SSRİ məkanında olduğu kimi, Respublikamızda da bütün tarixi və sosial-siyasi hadisələr birtərəfli və tarixi həqiqətlərin əksinə olaraq təqdim və şərh edilirdi. Bu hərəkətlərin izlərini bu gün də yumaq çox çətindir (1941-ci ildə Qankovskinin başçılıq etmiş olduğu redaksiya heyəti tərəfindən çap edilmiş "Azərbaycan tarixinin qısa kursu"nun tənqidi hələ də yoxdur!).

Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyev ön sözünün müəllifi və Azərbaycan nəşrinin elmi redaktoru olduğu və bu gün təqdimatı keçirilən

"Maykl Aksvörtinin "Nadir şah" əsərində[30] bu barədə yazır: "Mövcud boşluğun intensiv və keyfiyyətli şəkildə doldurulması, problemin ildən-ilə, nəsildən-nəslə ötürülməməsi üçün tarixçilərimiz və mənbəşünaslarımız fəaliyyətlərini koordinasiya etməli, real nəticəyə hesablanan addımlar haqqında ciddi şəkildə düşünməlidirlər"[31].

Onun "Şah İsmayıl Səfəvi ali məramlı tarixi şəxsiyyət kimi" adlı məqaləsi (2012), "Nadir şah Əfşar: diplomatik yazışmalar" kitabı (2015), eyni zamanda bu gün təqdimatı keçirilən Maykl Aksvörtinin "Nadir şah" əsəri (2018) bu sahədə mövcud olan boşluğu əhəmiyyətli şəkildə aradan qaldırmaq işində əvəzsiz töhfələrdəndir.

Belə ki, bu səpkidə yazılan və ortaya qoyulan əsərlər müharibə şəraitində yaşayan xalqımızın milli mənliyini, kimliyini və varlığını təsbit etmək, uca tutmaqla yanaşı, onu vətəni Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək yolunda real qələbəyə ruhlandırır və inandırır, gənclərimizin, ordudakı əsgərlərimizin vətənpərvərlik hisslərini coşdurur, mübarizə əzmini gücləndirir, ümidlərini sönməyə qoymur.

Akademik Ramiz Mehdiyev elmi-mədəni və tarixi irsimizin araşdırılması, tədqiqi və təbliği işində də tədqiqatçılarımız qarşısında çox ciddi vəzifələr qoyur. "Maykl Aksvörtinin "Nadir şah" əsərinə yazdığı ön sözdə bu barədə qeyd edir: "Tariximizə, ədəbiyyatımıza və mədəniyyətimizə dair aparıcı Şərq və Qərb dillərində qələmə alınmış ilkin mənbələr, müasir elmi araşdırmalar müqayisəli şəkildə öyrənilməli, onların məlumatları əsasında keçmişimizin qaranlıq, təhrif olunmuş səhifələrinə işıq tutulmalıdır".[32]

Akademik Nadir şah dövrü tarixinin tədqiqi və öyrənilməsi ilə bağlı çox həssas bir məsələyə də toxunaraq yazır: "Əfsus ki, Azər-

[30]Maykl Aksvörti. Nadir şah, Bakı, Şərq-Qərb", 2018, 400 s. (İdeyanın və ön sözün müəllifi, Azərbaycan nəşrinin elmi redaktoru: akademik Ramiz Mehdiyev.)
[31]Maykl Aksvörtinin göstərilən əsəri, s.10
[32]Yenə orada, s.10

baycan tarixinin dönüş nöqtəsi sayılan həmin həssas dövrün proseslərini lazımi qədər dərk etmək üçün farsdilli qaynaqlardan heç də az əhəmiyyətə malik olmayan 18-ci əsr Qərb müəlliflərinin əsərləri hələ də ana dilimizə tərcümə edilməyib və onların adları belə bu günədək sıravi ölkə oxucusuna, bəlkə də, tarixçilərimizin bir çoxuna məlum deyil. Müqayisə üçün deyim ki, qonşu İranda haqqında söz açdığımız mənbələr çoxdan fars dilinə tərcümə edilərək, nəşr olunmuşdur. Mənbəşünaslarımız həmin əsərlərin artıq nadir kitablar sırasına daxil olan Avropa nəşrlərini tapmaqda çətinlik çəkirlərsə, heç olamsa fars dilindəki tərcümələrinə üz tutmalı, onların ölkəmizdə elmi dövriyyəyə fəal şəkildə cəlb edilməsinə çalışmalıdırlar"[33].

Ramiz Mehdiyevin haqlı olaraq qeyd etdiyi bu həssas məqamın təsdiqi üçün qeyd etməliyəm ki, uzun illər Azərbaycan Respublikasının İran İslam Respublikasındakı səfirliyində hərbi attaşe sifətilə çalışmış tarix elmləri doktoru, professor Mehman Süleymanovun 2010-cu ildə Tehranda çap etdirdiyi 740 səhifəlik "Nadir şah" monoqrafiyası da bu qəbildən olan elmi-tədqiqat əsərləri sırasındadır. Belə ki, müəllif mövzu üzərində işləyərkən Frezer Ceyms[34], Conas Hanvey[35], Jan Kevr[36], Laurens Lokkart[37], Con Malkom[38], Jan Otter[39], Pyer Luis Bazin[40], Con Perri[41], Persi Sayks[42] kimi Qərb müəlliflərinin fars dilinə tərcümə olunmuş əsərlərindən əsaslı qaynaq kimi istifadə etmişdir.

---

[33]Maykl Aksvörtinin göstərilən əsəri, s.7
[34] Frezer Ceyms. Tarix-e Nader şah Əfşar və moxtəsəri əz tarix=e səlatin-e moğol dər Hend, Tehran, 1363/1984
[35]Hanvey C. Hocum-e əfqan və zəval-e doulət-e Esfəhan, Tehran, 1367/1988
[36]Xace-ye tacdar, Tehran, 1366/1987
[37]Lokkart Laurens. Nader şah, Tehran, 1331/1954; Lokkart L. Enqeraz-e selsele-ye Səfəvi, Tehran, 1344/1965
[38] Malkolm Con. Tarix-e İran, Tehran, 1383/2004
[39] Otter jan. Səfərname-ye əsr-e Nader, Tehran, 1366/1987
[40] Bazin Pyer Luis. Nameha-ye təbib-e Nader şah, Tehran, 1365/1986
[41] Perri Con. Kərim xan Zend, Tehran, 1365/1986
[42] Sayks P. Tarix-e İran, celd 2, Tehran, 1381/2002

Nadir şah Əfşar hakimiyyətinin və dövlətinin yaranması Azərbaycan və azərbaycançılıq tarixində mühüm hadisə idi. Onun həyat yolunun öyrənilməsi Azərbaycan və azərbaycançılıq tarixinin müvafiq mərhələsinin öyrənilməsi baxımından çox əhəmiyyətlidir. İran Səfəvi dövlətinin bütün varlığı təhlükə altına alındığı bir vaxtda Əfşar tayfasından olan Nadir kimi bir şəxsiyyət vətəninin azadlığı uğrunda mübarizəyə qalxır.

Artıq 1730-cu ildə o, Həmədan, Təbriz, Marağa və Ərdəbili osmanlılardan təmizləyir. Lakin 1732-ci ildə osmanlılarla səfəvilər arasında bağlanan Kirmanşah müqaviləsinə görə İrəvan, Gəncə, Tiflis, Şamaxı, Şirvan və Dağıstanın Türkiyəyə verilməsindən olduqca naraz qalan Nadir həmin ildə Xorasandan qayıdaraq II Təhmasibi taxtdan salır və onun oğlu 8 aylıq Abbas Mirzəni III Abbas adı ilə taxta çıxarır. Elə bu vaxtdan Nadir faktiki olaraq İran dövlətini idarə etməyə başlayır. Osmanlı İmperiyası əleyhinə İranla yaxınlaşmaq məqsədi güdən 1732-ci ildə Rusiya ilə İran arasında bağlanan sülh müqaviləsinə uyğun olaraq Kürdən cənuba Xəzər sahili vilayətləri İrana qaytarılır. Bunun ardınca Azərbaycanın şimal torpaqlarına yürüşə başlayan Nadir 1735-ci ildə ruslarla bağladığı müqaviləyə uyğun olaraq Bakı və Dərbəndi də geri qaytarır.

Nadir Səfəvilər dövlətinə məxsus olan böyük ərazilərin demək olar ki, hər metrini öz qılıncının gücünə geri qaytarmışdı. Qafqazın geri qaytarılması, Osmanlı və Rusiya kimi qüdrətli dövlətlərin geri çəkilməyə məcbur edilməsi Nadirin nüfuzunu xeyli gücləndirdi.[43]

1736-cı ilin əvvəlində Nadir qışlamaq üçün Muğana gedir. III Şah Abbasın qəflətən ölmündən istifadə edən Nadir 1736-cı ilin martında toplanmış qurultayda özünü şah elan edir.

Nadir köhnə bəylərbəyilikləri ləğv edərək Azərbaycan adı altında vahid inzibati ərazi yaradır. Azərbaycanın mərkəzi Təbriz, hakimi isə Nadir şahın qardaşı İbrahim olur. Beləliklə də, azərbaycançılıq məfkurəsi yeni vüsət alır. Belə ki, şahlıq taxt-tacı məsələsinin

---

[43] Mehman Süleymanov. Nadir şah. Qum (İran), "Neqar əndişe", 2009, s. 293

həll edildiyi mühüm bir tədbir Məşhəddə, İsfahanda deyil, məhz Azərbaycan ərazisində keçirilmişdir.[44] Çox güman ki, belə bir ciddi tədbiri Azərbaycan ərazisində keçirməklə Nadir şah Cənubi Qafqazın birdəfəlik geri qaytarılmasını və ya özünün Azərbaycan türklərinə məxsusluğunu göstərmək istəyirmiş.

Akademik Ramiz Mehdiyev Maykl Aksvörtinin "Nadir şah" əsərinin "Nadir şah və türkçülük" bölümünə münasibət bildirərkən bu həssas məsələyə işarə edərək yazır: "Nadir şah haqqında Avropada və İranda qələmə alınan tədqiqatların böyük əksəriyyətində Nadirin türkçülük məsələsinə münasibətinə ya ötəri şəkildə toxunulur, yaxud ümumiyyətlə, toxunulmur. Halbuki Nadir şah dövrünün sənədlərində onun öz milli mənsubiyyətinə nə dərəcədə bağlı olduğunu, soy-kökünə necə ehtiram göstərdiyini açıq şəkildə görmək mümkündür".[45]Karnal döyüşü və Hindistanın fəthindən sonra Nadirin türk soyundan olan Məhəmməd şaha göstərdiyi mülayim münasibət də buna gözəl misaldır.

Nadir şahın şəxsiyyət kimi formalaşmasında türk məişətinin və ənənələrinin təsiri danılmazdır. Bu baxımdan Nadir şahın həyatının və mühitinin öyrənilməsi Azərbaycan etnogenez tarixinin, bu etnosun Yaxın və Orta Şərq regionunda yeri, qarşılıqlı təsir gücü və s. haqqında araşdırma aparmaq, onları öyrənmək baxımından da çox əhəmiyyət kəsb edir.

Nadir şah, eyni zamanda, müsəlman ailəsində böyüyüb tərbiyə almışdı, sözsüz ki, bu da onun dünyagörüşünün mühüm tərkib hissəsini təşkil etməklə onun idarəçilik, rəhbərlik işlərində və diplomatik münasibətlər qurmasnda mühüm rol oynamışdır. Akademik Ramiz Mehdiyevin də qeyd etdiyi kimi, Nadir şahın adı ilə bağlı olan mütərəqqi təşəbbüslər sırasında onun islam dünyasını əsrlərdən bəri daxildən silkələyən məzhəb ixtilafları ilə apardığı qətiyyətli mübarizə xüsusi yer tutur. Nadir şah iqtidar sahibi olduqdan sonra Osmanlı

[44]Mehman Süleymanov. Nadir şah. Qum (İran), "Neqar əndişe", 2009, s.294
[45]Maykl Aksvörtinin göstərilən əsəri, s.385

dövlətinə göndərdiyi məktubda şiələr və sünnilər arasında əsrlərdən bəri hökm sürən və minlərlə günahsız insanın qətlinə səbəb olan mənasız dini ixtilafları aradan qaldırmağı təklif etdi.[46]

Ramiz Mehdiyev Maykl Aksvörtinin "Nadir şah" əsərinə yazdığı ön sözdə fatehin şəxsiyyətinin çox maraqlı tərəflərinə işarə edərək deyir ki, Nadir şaha onun avropalı müasirləri tərəfindən göstərilən hədsiz diqqət Qərbin 18-ci əsrin əvvəllərində Şərqə istiqamətlənmiş müstəmləkəçilik siyasətinin tələbləri ilə bağlı olduğu qədər, bəlkə də, ondan daha artıq dərəcədə bu böyük dövlət xadiminin dövrünün beynəlxalq münasibətlər sistemində tutduğu müstəsna mövqe ilə izah edilməlidir.[47]

Doğrudan da, uzaq əyalət kəndində gündəlik zəhməti ilə dolanışığını təmin edən bir ailədə doğulub malik olduğu fiziki keyfiyyətləri və döyüşkənlik istedadı ilə böyük imperiyanın rəhbərliyinə qədər zəngin bir həyat yolu keçmiş Nadir şahın həyatı və şəxsiyyətinə olan maraq həmişə tədqiqatçıların diqqət mərkəzində olmuşdur. Nadir şah dünya tarixinə ilk növbədə fateh kimi daxil olmuşdur. Nadir şahın öz fəaliyyətini tənzimləməsi və onun səmərəliliyinə nail olması son dərəcə əhəmiyyətli bir məsələdir. Onun sərkərdəlik fəaliyyəti ilə şahlığı necə uzlaşdırması, bu sahələrin hansında daha çox uğurlara nail olması, ailəsinə, cəmiyyətə, qadına, dinə və digər ideoloji aspektlərə münasibəti həmişə maraq doğuran mövzulardandır.

Nadir şah bütün şüurlu həyatını at belində döyüşlərdə və hərbi yürüşlərdə keçirmişdi. O, iştirak etdiyi döyüşlərin hərəkətverici qüvvəsi idi, ən həlledici anlarda özünü döyüşün ən gərgin nöqtələrinə ataraq hadisələrin ağırlığını öz üzərinə götürür və ... döyüşçülərini də qələbələrə ruhlandırırdı.[48]

---

[46]Maykl Aksvörtinin göstərilən əsəri, "Nadir şah və məzhəbçilik problemi", s.386
[47]Yenə orada, s.7
[48] Mehman Süleymanov, göstərilən əsəri, s.495

Onun bu xüsusiyyətlərini də şərh edən akademik Ramiz Mehdiyev yazır: "Nadir şahın təbiətində sərtliyin, qəddarlığın, dəmir nizam-intizamın, inadkarlıq və qorxmazlığın, həmçinin maddi nemətlərə güclü bağlılığın olması psixologiyanın bütün qanunauyğunluqları ilə üst-üstə düşür. Bəşəriyyət tarixində bənzər nümunələr kifayət qədərdir".[49]

Nadir şahın dövləti güc üzərində qurulmuşdu və dövlətin əsas siyasəti də başlıca olaraq bu gücün miqyasından asılı idi. Konkret tarixi şəraitdə belə bir dövlət uzun müddət ömür sürə bilməzdi və çox tezliklə ölkə daxilindəki narazılıqlar və iğtişaşlar elə bir miqyas aldı ki, qətli ərəfəsində Nadir şah özü də başa düşdü ki, onun həyatına olan təhlükə addım-addım yaxınlaşmaqdadır.

Akademik Ramiz Mehdiyev onu İvan Qroznı, Çingiz xan, Əmir Teymur kimi dünya fatehlərinin siyasi cəhətdən psixoloji durumları ilə müqayisə edir və bu xüsusiyyətləri şəraitə uyğun olaraq dəyərləndirir: "...onun (*Nadirin*) idarəçilik fəlsəfəsinə siyasi psixologiyasının qeyd edilən qanunlarını nəzərə almadan qiymət vermək qətiyyən yolverilməzdir. Yaşadığı dövrün reallıqları, qarşısına qoyduğu məqsədlərin çətinliyi, həmçinin xarici və daxili təhdidlərin ciddiliyi Nadirə sərtlik və qətiyyətdən savayı çıxış yolu qoymadı. Bəli, çox ehtimal ki, o dövrdə atılan bir sıra addımlar yerli əhalini iqtisadi və sosial sıxıntılarla üz-üzə qoymuş, Nadirə münasibətdə kütləvi narazılığın yaranmasına səbəb olmuşdu. Lakin Nadirin qətlindən sonra baş verən hadisələr, Azərbaycanın və İranın xanlıqlara bölünərək, sonsuz daxili müharibələr meydanına çevrilməsi, azərbaycanlıların isə son nəticədə, ümumiyyətlə, öz dövlətçiliklərini itirmələri hər kəsi qüdrətli fatehin ünvanına səslənən tənqidləri yenidən gözdən keçirmək zərurəti ilə üz-üzə qoydu.

Azərbaycan xanlıqlarnın bir-birinin ardınca köməksiz qurban kimi Rusiya tərəfindən işğalı, Qacarlar dövlətinin isə sələflərinin

---

[49]Maykl Aksvörtinin göstərilən əsəri, s.18

sahib olduğu ərazilərin əhəmiyyətli hissəsindən məhrum olması Nadirin hakimiyyətinin son illərində yaranmış mürəkkəb sosial-siyasi vəziyyəti əlində bayraq edib onu ləkələməyə çalışanları susdurdu və daha dərindən düşünməyə məcbur etdi. Nadir şahı – "Şərqin Napoleonunu" azərbaycanlıların və iranlıların nəzərində onları böyük bir imperiyanın sahibinə çevirmiş, hərc-mərclikdən qurtarmış xilaskar kimi yenidən ucaltdı".[50]

Akademik Ramiz Mehdiyevin "Azərbaycan tarixinin müxtəlif mərhələlərinə, o cümlədən Nadir şah dövrünə dair qiymətli faktları özündə ehtiva edən bu və digər mənbələrin ölkəmizə gətirilərək, sistemli elmi tədqiqata cəlb olunması mənbəşünaslarımız qarşısında əsas məqsədlərdən biri kimi qoyulmalıdır"[51] çağırışına çox istedadlı və təcrübəli tarixçilərimiz və mənbəşünaslarımızdan olan Nigar xanım Gözəlovanın və Əkrəm Bağırovun birgə hazırlayıb çap etdirdikləri "XVIII əsrin 30-40-cı illərində Nadir şah Əfşarın Bağdad yürüşləri" kitabı məntiqi bir cavab, eyni zamanda da, bu sahədə atılan növbəti addımlardan biri olmaqla gözəl fəaliyyət nümunəsidir.

---

[50]Maykl Aksvörtinin göstərilən əsəri, s.19
[51]Yenə orada, s.8

**Eynulla MƏDƏTLİ**
*AMEA Fəlsəfə İnstitutunun*
*elmi işlər üzrə direktor müavini,*
*fəlsəfə üzrə fəlsəfə doktoru, dosent*

# ƏFŞARLAR VƏ NADİR ŞAHIN HAKİMİYYƏTİ İRAN TARİXŞÜNASLIĞINDA



Akademik Ramiz Mehdiyev tanınmış ingilis şərqşünası Maykl Aksvörtinin Nadir şah barəsində kitabının Azərbaycan dilində tərcüməsinə yazdığı ön sözdə qeyd edir ki, Şərq və islam tarixində barmaqla sayılacaq qədər az hökmdar var ki, onun irsi əsrlər keçməsinə baxmayaraq, Qərb tarixşünaslığının və ictimai-siyasi fikrinin ardıcıl və böyük diqqəti ilə əhatə olunsun. Əgər həmin parlaq şəxsiyyətlərin adlarını sadalamaq niyyətinə düşsək, heç şübhəsiz ki, Azərbaycan xalqının böyük oğlu, Şərqin sonuncu fatehi, görkəmli dövlət xadimi, Əfşarlar imperiyasının banisi Nadir şah Əfşar (1688-1747) Atilla, Çingiz xan, Əmir Teymur, Şah İsmayıl Xətai, Sultan Süleyman Qanuni ilə birlikdə ilk xatırlananlardan olacaq". (1, s.4)

Doğrudan da, Azərbaycanın dövlətçilik tarixində çox mühüm rol oynamış, qədim və iftixarlı keçmişə, qəhrəmanlıq və şücaət ənənələrinə malik olan əfşarlar orta çağlarda Azərbaycan türklərinin ictimai, siyasi və mədəni həyatında əhəmiyyətli yerə malikdirlər. Onların hakimiyyəti qısa müddətli olsa da, Azərbaycanın və İranın dövlətçilik tarixində şərəfli və taleyüklü yer tutmuşdu və olduqca

mürəkkəb tarixi-siyasi şəraitdə, böyük bir regionda siyasi münasibətlərin gedişatına əhəmiyyətli təsir göstərmişdi. Əfşarlar dövləti həm ölkə daxilində və bölgədə, həm də dünya dövlətləri arasında güc, qüdrət və ardıcıl siyasətə sahib olan imperatorluq kimi haqlı ad qazanmışdı. Səfəvilər xanədanına sədaqətlə xidmət edən, adi savaşçıdan bu böyük imperatorluğun dövlətçiliyinin qorunub saxlanmasında, onun geniş ərazilərinin müdafiəsində həlledici addımlar atan Nadir xanın şəxsiyyəti və düşmən ordularına qarşı qətiyyətli mübarizəsi o, hələ şahlıq məqamına gəlməmişdən kifayət qədər diqqətçəkici idi. Buna görə də onun həyat və fəaliyyəti, hərbi yürüşləri, onun ətrafında toxunan saray fitnə-fəsadları, Şah II Təhmasiblə ziddiyyətli münasibətləri, şah seçilməsi, əfqanlara, özbəklərə, osmanlılara və başqa qüvvələrə qarşı zəfərli müharibələri həm həmin dövrün tarixçilərinin, həm də sonrakı tədqiqatçıların geniş araşdırma mövzusu olmuşdur. Müasir dövrdə də İran tarixşünaslığında əfşarlar hakimiyyətinin tarixinə vaxtaşırı müraciət edilir, maraqlı tədqiqat əsərləri, elmi məqalələr nəşr edilir.

İran tarixçiləri içərisində Əfşarlar dövrünün tanınmış tədqiqatçılarından tarix elmləri doktoru Rza Şəbaninin xüsusi yeri vardır. Əfşarlar dövründə İranın ictimai tarixinə iki cildlik sanballı əsər həsr edən alim Nadir xanın hələ Şah II Təhmasibə xidmət etdiyi zamandan İran torpaqlarının işğaldan azad edilməsi, xüsusilə də Xəzər sahillərinin və Qafqazın rusların və osmanlıların əlindən geri alınması sahəsindəki qətiyyətli fəaliyyətini həmin dövrün tarixi sənədləri və mənbələri əsasında araşdırmışdır (2).

Əfşarların hakimiyyətə gəlişi dövrü İranda Səfəvilər hakimiyyətinin tənəzzülə uğradığı, xaricdən ölkəyə müdaxilələrin və ölkə daxilində qiyam və ixtişaşların artdığı bir dönəmdir. Türk xalqının əfşarlar nəslinə mənsub olan Nadir xanın belə bir keçməkeşli dövrdə Səfəvilər sarayında yüksək mənsəb sahibliyinə gəlib çatması və qısa müddətdə dövlət işlərini ələ alması, daxili ixtişaşları yatıraraq ölkənin yadelli işğalçılardan azad edilməsi yolunda qətiyyətli mü-

barizəsi saray istisna olmaqla, bütün Səfəvilər dövlətində onun şəxsiyyətinə və siyasətinə rəğbət doğurmuşdu. Onun haqqında deyirdilər ki, o qılıncın övladı, qılıncın yetirməsi və qılıncın hakimi idi, özününküləri və özgələri, dostlarını və düşmənlərini də qılıncla idarə edirdi (3).

Nadir şah barəsində müasirlərinin və o zaman Səfəvilər sarayında təmsilçi olan xarici nümayəndələrin məlumatlarında, həmin dövrdəki diplomatik yazışmalarda, xarici tədqiqatçıların və səyyahların müxtəlif məzmunlu əsərlərində İran-Rusiya, İran-Osmanlı münasibətləri, eləcə də Xəzərsahili bölgələrin və Qafqazın Rusiya qoşunlarından azad edilməsi barəsində ətraflı məlumatlar verilmişdir. Qeyd edilməlidir ki, İran tarixşünaslığında saray katibi Mirzə Mehdi xanın təfərrüatlı tarixnaməsi daha çox istinad edilən mənbələrdəndir (4).

Qərb araşdırıcıları içərisində isə L.Lokhart, C.Frizer, P.Bazen, H.Maynard və digərlərinin əsərləri fars dilinə çevrilərək onlardan bir mənbə kimi geniş istifadə olunmuşdur (5).

Qeyd etməliyik ki, İran tarixçiləri Nadirin ərsəyə gətirilib bir mahir dövlət adamı, hökmdar və qalibiyyətli fateh kimi tarix və siyasət səhnəsinə çıxmasında II Təhmasibin müəyyən rolunu da qiymətləndirirlər. Şah Təhmasib hər nə qədər zəif iradəli, daxili və xarici düşmənlər qarşısında aciz və xalqın gözündə fərasətsiz və təslimçi bir hökmdar olsa da, onun Nadir xanı ordu rəhbərliyinə gətirməsi və ona ilk vaxtlar saray dəstəyi göstərməsi, İranın bütün əldən çıxmış torpaqlarının geri qaytarılması və qanuni ərazilərində itirilmiş hakimiyyətinin yenidən bərpa edilməsində Nadir xana səlahiyyət və sərbəstlik verməsi təqdir olunur. Əlbəttə, sarayda ciddi ixtilaflar və araqızışdırıcı fitnələr də baş vermişdi, Nadir xanın artan nüfuzundan xoflanan şahın qısqanclığından doğan acı təcrübələr də olmuşdu, lakin hər dəfə Nadir xanın iradəsi və qüdrəti İranı alçaldıcı vəziyyətdən qurtarmışdı. Elə vəziyyət yaranmışdı ki, bir-birinə həmişə düşmən olan osmanlılar və ruslar bu

ziddiyyəti bir kənara qoyaraq İranın şimal-qərb və qərb əyalətlərini çox rahatlıqla öz aralarında bölmüş, Qafqazda və Xəzər boyunda felən Səfəvi hakimiyyətinə son qoymuşdular (6). Bu cəhət də nəzərə alınmalıdır ki, rusların Şah Təhmasiblə bağladıqları müqaviləyə görə ruslar həm əfqanların ölkədən qovulub çıxarılmasında, həm də ölkədaxili nizam-intizamın bərqərar edilməsində İrana lazımi köməkliyi göstərməli idilər. Əslində isə rusların heç də İran dövlətinə əsaslı yardım göstərmək niyyətləri yox idi, məqsəd həmin müqavilənin yaratdığı imkandan istifadə edərək bölgədə möhkəmlənməkdən ibarət idi.

Rusiyanın 1726-1729-cu illərdə İrandakı konsulu Semyon Avramov II Təhmasibin sarayında öz dövlətinin diplomatik katibi kimi vəzifə tuturdu və Şah Təhmasibin barəsində onun yazdığı bir məruzədən məlum olur ki, II Təhmasib içki düşkünü olmuş, dövlət işlərinə yetərincə diqqət verməmişdir. Bu mövzuya İranın bir sıra tarixçiləri də toxunmuş, II Təhmasibin uğursuz hərbi yürüşləri və diplomatik fəaliyyəti barəsində tənqidi dəyərləndirmələr etmişlər. Tarixi mənbələrdən məlum olduğu kimi, II Təhmasib yüksək əyanlarından olan İsmayıl bəyi səfir təyin edərək Rusiyaya göndərmişdi və 23 sentyabr 1723-cü il tarixində onun İran dövləti adından Rusiya ilə imzaladığı müqaviləyə görə, Dərbənd və Bakı şəhərləri, həmçinin Gilan, Mazandaran və Astrabadın Xəzərsahili əraziləri Rusiyaya verilmişdi (7).

İran tədqiqatçılarının nəzərincə II Təhmasib səfəvi şahları içərisində ən qabiliyyətsizi və şəxsiyyət olaraq da ən xoşagəlməzi idi. Nadir xan onun əldən çıxmış torpaqlarını tükənməz siyasi iradəsi və kəskin qılıncı ilə bir-bir geri qaytardığı bir zamanda o, Nadir xanın artan nüfuzunu və gücünü azaltmaq məqsədilə Xorasan əyanlarını Nadirə qarşı çıxmağa təhrik edirdi. Lakin Nadir xanın qalibiyyətli siyasi və hərbi uğurları, onun heç zaman şaha qarşı çıxmaması, hətta şaha sədaqətlə xidmət etdiyini nümayiş etdirmək məqsədilə özünü Təhmasibqulu adlandırması II Təhmasibi məc-

bur edirdi ki, şahlığının qorunması naminə Nadir xanın zəfərlərinə dözüm göstərsin və istəməsə də ona get-gedə daha çox imtiyaz və ixtiyar versin.

Nadir xanın ordusunda və yaxın ətrafında müxtəlif türk tayfaları, o cümlədən əfşarlar aparıcı mövqeyə malik idilər, türk dili ümumi ünsiyyət vasitəsi idi. Nadir xan özü Azərbaycan türklərinin ləhcəsində danışırdı və onun şahlıq seçkisini məhz Azərbaycanda — Muğanda təşkil etməsi də təsadüfi deyildi. Qeyd etmək lazımdır ki, ümumən əfşarlar hər zaman İran tarixində digər türk toplumları kimi fəal rol oynamışdılar. Əhməd Kəsrəvi yazırdı ki, əfşar elləri hicri tarixi ilə altıncı əsrin əvvəllərində, səlcuqlar zamanında İrana gəlmişdilər və səfəvilər hakimiyyətinin də dayaqlarından biri olmuşdular (8). Bəhs edilən dövrdə də İranın dövlətçilik taleyi əfşarların əlində idi. İran ordusunun başında durmaqla yanaşı, Nadir xan həm də getdikcə daha çox siyasi güc və qüdrət sahibinə çevrilmişdi.

Nadir xanın qüdrətli osmanlı ordularını məğlubiyyətə uğradaraq onları İran torpaqlarından geri çəkilməyə vadar etməsi demək olar ki, bütün Xəzər dənizi sahillərindəki bölgələri ələ keçirmiş rusları həm məmnun edir, həm də ciddi ehtiyatlandırırdı. Ruslar osmanlıların Qafqazdan sıxışdırılıb çıxarılmasında, əlbəttə, çox maraqlı idilər, eyni zamanda Nadir xanın qətiyyətlə Səfəvilərin sahib olduqları geniş əraziləri yenidən İranın hakimiyyətinə qaytarmasını özlərinin bu bölgədə gələcəkdə də mövcudiyyətinə aşkar təhdid hesab edirdilər. Buna görə ruslar Nadir xanın etimadını qazanmaq, Xəzər sahillərində imkan qədər daha çox möhkəmlənmək niyyətində idilər. Bu məqsədlə Rəştdə yerləşmiş rus qoşunlarının komandanı general Levaşova əmr verilmişdi ki, hərbi mühəndislərin bir qrupunu mülki geyimdə, bir neçə topla Nadir xana köməyə göndərsin, onlar Ərdəbil şəhərinin osmanlılardan azad edilməsində iştirak edib şah sarayının etimadını qazansınlar.

Rusların Qafqazda, xüsusilə Xəzərsahili bölgələrdə möhkəmlənməsindən əndişələnən Osmanlı dövlətinin sədr-əzəmi İbrahim paşa buna görə də Səfəvi dövləti ilə tezliklə sülh müqaviləsi bağlamaq istəyirdi. Bu niyyətlə İrana osmanlı səfiri göndərilmiş və Bağdad hakimi Əhməd paşaya da bunun üçün lazım olan şəraiti yaratmaq əmr edilmişdi. Lakin Şah Təhmasib yaranmış şəraiti qiymətləndirə bilmədi və bu diplomatik təşəbbüsün nəticəsini gözləmədən osmanlıların hakim olduğu İran torpaqlarına bir neçə uğursuz yürüşlər etdi, hər dəfə də ağır məğlubiyyətə uğrayıb bir sıra şəhər və vilayətləri də əldən verdi. Əfşarlar dövrünün mühüm tarixi qaynaqlarından olan Zibdətul-tarixə istinad edən Rza Şəbani qeyd edir ki, həmin məğlubiyyətlərdən sonra Təhmasibin ruhi vəziyyətində ciddi dəyişiklik əmələ gəldi və o daha çox eyş-işrətə qurşanaraq dövlət işlərinə lazımınca diqqət ayırmadı (9).

Bu vaxtlar artıq Osmanlı-İran sülh danışıqları başa çatdı və İranın mənafelərinə çox zərər vuran müqavilə ilə yalnız Araz çayının cənubu İrana verilirdi, Arazın şimalıdakı bütun əyalətlər Osmanlı hakimiyyəti altına keçirilir, Kirmanşahın beş məntəqəsi də Osmanlı dövlətinin Bağdad hakimi Əhməd paşanın ərazisinə qatılırdı. Osmanlı sarayında Təbrizin İrana qaytarılması narazılıqla qarşılansa da, belə düşündülər ki, Nadir xanla üz-üzə gəlməmək üçün bu güzəştə dəyər və təcili olaraq müqavilənin maddələri üzrə əməli fəaliyyətə keçdilər. Lakin Nadir xan hadisələrdən xəbər tutan kimi Osmanlı sultanı Mahmuda məktub göndərib bu müqaviləni tanımadığını bildirdi və qılıncının hökmü ilə həmin əraziləri geri alacağını bəyan etdi(10).

İran tarixçiləri Nadir xanın Səfəvi səltənətinə yiyələnməsinə və Azərbaycanın Muğan bölgəsində təntənəli tacqoyma mərasiminin təşkilinə böyük bir nadirsevərliliklə yanaşırlar, onun gücü və iradəsi ilə əfqanların, özbəklərin, osmanlıların, rusların ölkədən çıxarılmasını, daxildəki iğtişaş və qiyamların yatırılmasını, qonşu ölkələrə zəfərli yürüşlər edilməsini rəğbətlə təsvir edir, onu İranın

vətənpərvər, fədakar, qəhrəman oğlu kimi təqdim edirlər. Onu İranın milli qürur və heysiyyətinin, etibar və qüdrətinin təminatçısı kimi, eyni zamanda yüksək idarəçilik məharətinə, dövlətçilik düşüncəsi və iradəsinə malik hökmdar kimi qəbul edirlər. Şahlığa layiq olmayan, xalqın etimadını qazanmayan bir şəxs olsaydı, bəlkə də, o, tarixdə sadəcə səfəvi taxt-tacını mənimsəyən bir qiyamçı kimi qala bilərdi.

İran tarixşünaslığında Əfşarlar zamanı İranın Rusiya ilə münasibətlərinin həm siyasi, həm də iqtisadi baxımdan yeni mərhələyə daxil olduğu vurğulanır. Səfəvilər hakimiyyətinin zəifləməsi və Rusiyada I Pyotrun həyata keçirdiyi isti dənizlərə sahib olmaq siyasəti ilə əlaqədar artıq bu ölkələrin müştərək sərhəddi meydana gəlmişdi. Qarşılıqlı əlaqələr vaxtaşırı təmaslar nəticəsində qorunur və inkişaf etdirilirdi. İran tarixçiləri qeyd edirlər ki, Rusiya Böyük Pyotrun zamanında Asiyada nüfuz dairəsinə malik deyildi və yarı Avropa ölkəsi idi. I Pyotradək Rusiyanın öz geniş ərazilərini daha da genişləndirmək kimi niyyəti yox idi. Qonşu ölkələrlə, o cümlədən İranla münasibətlər əsasən ticarət üzərində qurulmuşdu. Tarixi İpək yolunun üzərində olan İrandan həm Osmanlı dövlətinə, həm də Rusiyaya ticarət yolları uzanırdı. Qafqazdan keçən karvanlar Rusiyaya xeyli mənfəət gətirirdi və ipək, ədviyyat, xalı, bəzək əşyaları və sair Rusiya vasitəsilə həm də Avropa bazarlarına çatdırılırdı, beləliklə, bu əlaqələrdən Rusiya məmnun və mənfəətli idi. Lakin I Pyotrun hakimiyyətə gəlişi ilə hər şey dəyişdi və qısa zamanda Rusiya öz sərhədlərinin dörd tərəfində iddialı siyasət yeritməyə nail oldu. Onun isti dənizlərə çıxmaq siyasətinin hədəfində Qara dəniz, Xəzər dənizi, Fars körfəzi, Hind okeanı dururdu. Bu siyasət isə İran və Osmanlı dövlətləri ilə qarşı-qarşıya gəlmək demək idi. 18-ci əsrin əvvələrində Səfəvilər dövlətinin olduqca zəifləməsi, ölkədaxili ixtişaşların, hər tərəfdən yadelli qəsbkarların ölkəni parça-parça ələ keçirdikləri bir zamanda Rusiyanın Qafqazda və Xəzər dənizi sahillərində öz işğalçı planlarını həyata

keçirə bilməsi üçün əlverişli imkan yaranmışdı. Bu siyasət I Pyotrdan sonra da onun varisləri tərəfindən bütün mümkün olan vasitələrlə davam etdirilmişdi.

Rusiya Xəzər dənizi (İran mənbələrində və tarixşünaslığında çox hallarda əsassız olaraq Mazandaran dənizi adlandırılır – E.M.) və ətraflarında tam nüfuz sahibi olmaq məqsədilə həm Xəzərin qərb tərəfi, həm də şərq tərəfi ilə cənuba doğru irəliləyir, beləliklə, İranın sərhədlərinə qurudan da yaxınlaşırdı. Bölgədə gürcülərin və az da olsa, ermənilərin varlığı isə Rusiyanın gələcək planları üçün əhəmiyyətli daxili dəstək rolunu oynayırdı. I Şah Abbasın İrana vaxtilə köçürdüyü ermənilər və gürcülər rusların təbii müttəfiqləri idilər. Qafqazdakı gürcülər və sayca çox olmayan ermənilər də bölgəyə daxil olan ruslarla din birliyi nümayiş etdirir, bir çox hallarda onların yolgöstərəni və dəstəkçisinə çevrilirdilər. Hətta gürcü şahzadələri I Pyotrun sarayına elçi göndərib Rusiyanın himayəsinə qəbul edilmələrini xahiş etmişdilər. Yaranmaqda olan bu şəraitdə şah Sultan Hüseyn də Peterburqa – Pyotrun sarayına səfir göndərərək Rusiya ilə bir anlaşma imzalamaq niyyətində olmuşdu. Lakin I Pyotr İrandakı daxili-siyasi vəziyyət barəsində ətraflı məlumata malik olmadan hansısa addım atmaq niyyətində deyildi. Buna görə I Pyotr Artyom Volinskini Qafqazdakı və ümumən İrandakı vəziyyəti, İranın qüvvətli və zəif cəhətlərini araşdırıb ona məlumat verməsi üçün İrana göndərdi. A.Volinski iki il Səfəvi sarayında bu missiyanı yerinə yetirdi və nəticədə İranın yüksək məsul səxsləri ilə bir anlaşma imzalamağa nail oldu (11).

A.Volinskinin I Pyotra hazıladığı məruzə nəticəsində çar İranın daxili və xarici siyasətinin bütün zəifliklərini, Qafqazda və Xəzərsahili ərazilərdə iqtisadi və hərbi imkanlarını ilk əldən öyrənmək imkanı qazandı və həmin əraziləri ələ keçirmək üçün qəti qərarını verdi. Lakin iki dövlət arasında yenicə imzalanmış anlaşma rusları tədbirlə bəhanə axtarmağa məcbur edirdi. Az keçmədi ki, belə bəhanə tapıldı, daha doğrusu, bəlkə də, təşkil edildi. Şir-

vanda və Şamaxıda rus tacirlərindən bir neçəsi öldürüldü və onların malları qarət edildi. Bununla əlaqədar I Pyotr A.Volinskini etiraz notası ilə İsfahana — şah sarayına göndərdi. Artıq bu zaman Sultan Hüseynin hakimiyyəti devrilmiş, əfqanlar İsfahana hakim olmuş, şahlıq taxtında isə Mahmud Əfqan oturmuşdu. Taxt-tacı ələ keçirib özünü şah elan etmiş Mahmud xəstəhal və siyasətdən uzaq, lakin xudbin və diliacı bir şəxs olduğundan onun səfirə verdiyi cavab da çox sərt və təhrikedici olmuşdu. Cavabdan belə nəticə çıxırdı ki, qoy Rusiya padşahı özü öz təbəələrini himayə etsin (12).

Bu cavab hərbi təcavüz üçün yaxşı fürsət yaradırdı, lakin cavabı gözləmədən belə I Pyotr hicri 1137-ci il şəvval ayının 4-də, miladi ilə 16 iyun 1722-ci il tarixində Qafqaza qoşun yeridilməsi ilə əlaqədar bəyaniyyə imzaladı. Çox qısa müddətdə rus qoşunları I Pyotrun başçılığı ilə cənuba doğru irəlilədilər, Dağıstanı ələ keçirdilər və Bakıya yaxınlaşdılar (13).

İran tarixçilərinin əksəriyyəti I Pyotrun Bakını istila etmək niyyətinin baş tutmadığını burada raştlaşdığı ciddi müqavimətlə əlaqələndirmişlər. Bu zaman sərt qış şəraitinin, rus qoşunları içərisində xəstəlik yayılmasının da çarın planlarının həyata keçməsinə əngəl yaratdığı qeyd olunur. Əlbəttə, başqa səbəblər də olmuşdu. Hərbi əməliyyatları dayandıran çar Semyon Avramovu təkliflə Şah II Təhmasibin sarayına göndərdi. Təklifdə bildirilirdi ki, Rusiya İranın daxili əyalətlərinin birinə sahib olmağın müqabilində ölkənin bir qismini qəsb edən əfqanlara qarşı mübarizədə şaha lazımi kömək göstərməyə hazırdır.

Qəzvin şəhərində oturan şah bu zaman öz baş vəziri İsmayıl bəyi səfir qismində I Pyotrun yanına göndərdi. İran səfirinin Rusiya çarının yanına gəlməsini yaxşı bir fürsət kimi dəyərləndirən ruslar şahın taxt-tacı qorumaq üçün guya kömək göstərilməsi üçün müraciət etdiyini bəhanə edərək öz döyüş gəmilərini İranın Xəzər sahillərinə göndərdilər. Tezliklə rus qoşunları Rəştin yarım fər-

sənglik məsafəsində öz qərərgahlarını quraraq İran torpaqlarında yerlərini bərkitdilər. Ruslar bəyan etdilər ki, Şah II Təhmasib öz səfiri vasitəsilə Niyazabaddan Astrabada qədər bütün ərazilərdə sərhəd işlərini (darul mərz) ruslara həvalə etmişdir və bundan sonra sahilboyunun düşmənlərdən müdafiə edilməsi rusların öhdəsindədir (14).

İran tarixçiləri qeyd edirlər ki, həqiqətən İsmayıl bəy Qulamın ruslarla imzaladığı müqavilə, onun məzmunu və şərtləri İranın ərazisini parçalayır və böyük bir bölgədə İranın hakimiyyətini ruslara vermiş olurdu. Belə ki, bu müqavilə ilə Dərbənd və Bakı şəhərləri, bütün Xəzər sahilləri, o cümlədən Gilan, Mazandaran, Astrabad vilayətləri rusların himayəsinə verilirdi. II Təhmasibin İran torpaqlarını belə sadəcə, ağılsızcasına rusların himayəsinə verməsi həm həmin dövrün, həm də müasir tarixçilərin və siyasətçilərin kəskin tənqidinə məruz qalmışdır. Çünki bu addım heç də həmin vaxt yaranmış hərbi-siyasi vəziyyətin tələbindən irəli gəlməmişdi, bu daha çox şahın fərasətsizliyi və iradəsizliyindən, şəhvət və içki düşkünlüyündən qaynaqlanmışdı. Qeyd olunur ki, II Təhmasib I Pyotrun istilalarından xəbər tutanda artıq çox gecikmişdi və onun müqavimət göstərmək üçün etdiyi cəhdlər də səmərə vermədi, nəticədə rus qoşunları ilə hazırlıqsız döyüşə girən qızılbaş dəstələri məğlubiyyətə düçar oldular. Rus qoşunları isə yaranmış fürsətdən istifadə edərək Rəşt və Kəhdomu işğal edib bu bölgəyə də sahib oldular. Bunun ardınca onlar Lahican və Təmicanı da ələ keçirdilər.

Xəzərsahili boyunca kifayət qədər qoşun və təchizat cəmləyən rus qoşunları hicri 1135-ci ilin şəvval ayında mərdliklə müqavimət göstərilməsinə baxmayaraq, Bakını işğal etdilər. Bundan sonra əldə edilən nailiyyəti rəsmən təsbit etmək və İranla imzalanmış müqavilə ilə uzlaşdırmaq üçün II Pyotr hicri 1136-ci ilin rəcəb ayında (1723-cü il) Boris Meçercki və Semyon Avramovdan ibarət bir heyəti Qəzvinə — İran sarayına göndərdi. Əslində, əsas

niyyət İran şahının başını qatmaq idi ki, o tezliklə müharibə hazırlığına başlamasın, ruslar isə əlavə qüvvələr və təchizatlar gətirib İranın geniş şimal və şimal-qərb bölgələrində daha da möhkəmlənə bilsinlər.

Qeyd edilməlidir ki, rusların belə asanlıqla Xəzər sahillərinə hakim olması və Osmanlı dövlətinin şimal və şimal-şərq sərhədlərinə bu qədər yaxınlaşması bu dövləti, əlbəttə, narahat edirdi. Bununla yanaşı, sanki küləklə bir fürsət də gəlmişdi. Osmanlılar yaranmış imkandan dərhal faydalandılar və demək olar ki, ciddi müqavimətlə üzləşmədən Azərbaycanı, Kürdüstanı, Loristanı ələ keçirdilər. Beləliklə, İranın şimal-qərb və qərb vilayətləri felən Rusiya ilə Osmanlı dövləti arasında bölünmüş oldu.

Osmanlı dövlətinin bu qələbəsi Fransanın səfiri Markiz de Bonakın (Marquis de Bonnac) vasitəçiliyi ilə 1136-cı ilin şəvvalında, miladi ilə 1724-cü il iyunun 12-də İstanbulda imzalanan müqavilə ilə təsbitləndi. Həmin müqavilənin 1-ci maddəsinə görə, Gürcüstan Osmanlı dövlətinə, Dərbənd, Bakı, Gilan, Mazandaran, Astrabad və Xəzər dənizinin bütün qərb sahilləri Kür və Araz çaylarının qovuşduğu yerə qədər Rus dövlətinə verilirdi. Müqavilənin 2-ci maddəsinə görə hər iki çayın qovuşduğu yerdən düz xəttlə Ərdəbilin üç mil məsafəsinə qədər və oradan Təbrizə, Təbrizdən Həmədana və Kirmanşaha qədər bütün ərazilər Osmanlı dövlətinə verilirdi. Müqavilənin 3-cü maddəsi II Təhmasibi bu şərtləri qəbul etdirməyə aid idi. Belə ki, şah bunları qəbul etməkdən imtina etsəydi, onu taxtdan asanlıqla salıb varisini taxta çıxaracaqdılar. Sanki hər şey həll edilmişdi, lakin hesaba alınmamış bir xüsus var idi – Nadir xan. Bu arada I Pyotrun qəfil ölümü də bölgədə vəziyyətin dəyişməsinə münasib şərait yaratmış oldu.

Nadir xanın bir-birinin ardınca əldə etdiyi qələbələr osmanlıları öz mövqelərindən çəkilməyə məcbur edirdi. Osmanlıların məğlubiyyəti və onların Qafqazdan geri çəkilməyə məcbur edilməsi rusların arzusunca idi, lakin bunu da aydın dərk edirdilər ki,

Nadir xan bundan sonra daha da qüvvətlənib rusları bölgədən çıxaracaq.

Nadir xanın tədricən zəfərlər qazanaraq daxili ixtişaşlara və xarici müdaxilələrə qarşı qətiyyətli hərəkətləri İran-Rusiya münasibətlərində yeni qüvvələr nisbətindən xəbər verirdi. On ildən çox davam edən qarşıdurmalarda ruslar da ciddi itkilər verdilər. Böyük bir ordunun təchizatı və saxlanma xərcləri, kifayət qədər ehtiyatların toplanmaması, Nadir xanın böyük zəfərlərlə siyasətə gəlməsi rusları ehtiyatlandırır, onları bundan sonra daha çox siyasətlə davranmağa vadar edirdi.

Buna görə hicri 1139-cu, miladi ilə 1729-cu ildə ilk dəfə Nadir xanın ordusu ilə Gilan yaxınlığında qarşı-qarşıya gələn rus qoşunları onun həmin ərazilərin boşaldılması tələbinə müqavimətsiz razılıq verdilər, lakin siyasət işlədərək təxliyyə işlərini ləngitməyə başladılar. Ruslar, əslində, İranın çox da zəifləməsini istəmirdilər, çünki o zaman bölgədə osmanlılar söz sahibi olardılar. Nadir xanın başı ölkədaxili ixtişaşların yatırılmasına və bir sıra yerlərdə itirilmiş hakimiyyətin bərpasına qarışdığından ruslar da müxtəlif bəhanələrlə ərazilərin boşaldılmasını gecikdirirdilər. Belə bir şəraitdə Rus çariçası Anna Duşes Dokurland (Anna Duchesse de Courlande) – Anna İvanovna hicri 1143-cü ildə (miladi 1730-cu il) fövqəladə səfiri baron Şafirovu məktubla İran şahının sarayına göndrərək təxliyə şərtləri ilə əlaqədar şahla müvafiq sənəd imzalamağı təklif etdi.

Bu vaxt Nadir xanın zəfərlərinə qısqanclıqla yanaşan II Təhmasib onunla məsləhət etmədən Osmanlı üzərinə qoşun yeritmiş, Həmədan yaxınlığında ağır məğlubiyyətə uğramış, Nadir xanın əldə etmiş olduğu qələbələri tamamilə bərbad etmişdi. Onun türk qoşunlarının komandanı Əhməd paşa ilə bağladığı müqavilə İran üçün alçaldıcı və qəbuledilməz idi. Bu vəziyyəti gözdən qaçırmayan rus heyəti İranın düşdüyü yeni vəziyyətdən faydalandı və 1732-ci ilin fevralında II Təhmasiblə yeni müqavilə imzalandı.

Rusiya öhdəsinə götürürdü ki, Kür çayından cənubdakı əraziləri beş ay ərzində boşaldacaq. Dərbənd və Bakıdan isə rus qoşunları yalnız İran qüvvələri Osmanlı qoşunlarını Qafqazdan vurub çıxardıqdan sonra boşaldılacaqdır. Müqaviləyə görə rus tacirlərinə İranda və İran tacirlərinə Rusiyada qarşılıqlı imtiyazlar verməklə ticarət azadlığı təmin ediləcəkdi. Hər iki dövlət öhdəsinə götürürdü ki, qarşılıqlı əlaqələr və məlumatlandımalar üçün bir-birinin paytaxtında siyasi nümayəndəliklərə malik olsunlar.

Bu zaman Nadir xanın məiyyətində olan Mirzə Mehdi (Nadir bu zaman Heratda əfqanlarla vuruşurdu.) yazırdı ki, ruslar Rəşt və Lahicanın təxliyəsini qəbul etmiş və bununla əlaqədar Gilandakı sərdarlarına (komandan) müvafiq tapşırıq da vermişdilər. Nadir xanın səfiri də Rusiya çariçasının yanına getmiş, səfər bitəndən sonra Herata qayıdaraq onu məlumatlandırmışdı. Rusiyanın yüksək dövlət və hərbi rəhbərliyi artıq yəqin etmişdilər ki, İranda həqiqi güc və qüdrət sahibi məhz Nadir xandır. Nəhayət, hicri 1145-ci ilin şəvval ayında, miladi tarixinin 1732-ci ilinin avqust ayında Nadir xan II Təhmasibin İranı xaraba qoymaq siyasətinə həmişəlik son qoydu, bütün qoşunların komandanı və ölkənin həqiqi qoruyucusu olan Nadir xan nayib-e səltənət (şahın naibi) olaraq bütün dövlət işlərini öz əlinə aldı. Nadir xanın ilk işlərindən biri Əhməd xan Tüfəngçiağasını Peterburqa – rus çariçasının yanına göndərmək oldu. Elçi İranda azyaşlı III Abbasın şah elan olunduğunu və Nadir xanın qəyyum kimi İran dövlətinə başçılıq etdiyini bildirməklə yanaşı, rus qoşunlarının İran torpaqlarını boşaltmasını tələb etmək üçün göndərilmişdi (15).

Lakin bu arada Nadir xanın osmanlıları İran torpaqlarından çıxmağa məcbur etməsi üçün Bağdada yürüş etməsi, mühasirənin uzanması, daxildə bəlucların üsyanı və Nadir xanın bu üsyanı yatırmaqla məşğul olması ruslarda belə ümid yaratdı ki, İran torpaqlarını boşaltmaqda tələsməyə də bilərlər. Osmanlılar da rusların Qafqaza nüfuz etməmələri üçün o bölgədə xeyli əsgəri qüvvə sax-

layırdılar və bu səbəbdən İrana qarşı böyük qüvvə yönəltmək istəmirdilər. Onlar Krım xanı Fəth Gireyi Dağıstana hücum etməyə təhrik etdilər. Lakin Krım qoşunları yalnız Rusiya ərazisindən Dağıstana yetişə bilərdilər və osmanlıların bu addımı Rusiyanın, eyni zamanda onun müttəfiqləri olan İngiltərə və Avstriyanın etirazına səbəb oldu, beləliklə də rus-osmanlı müharibəsi başlandı. Ruslar ümid edirdilər ki, İran qoşunları Bağdad ətrafında türkləri sıxışdıracaq və bu da rusların Qafqazda qələbəsini asanlaşdıracaq. Lakin beynəlxalq və bölgəsəl siyasətdən yaxşı baş çıxaran Nadir xanın İran qoşunlarını geri çəkməsi rusların planlarını pozdu və onlar bu savaşda müvəffəq ola bilmədilər.

Rusiya İranın yeni hakimiyyəti ilə münasibətlər qurmaq üçün Sergey Qolitsının başçılığı ilə bir heyəti İranın Rusiyadakı səfiri Əhməd xanın müşaiyəti ilə İran sarayına göndərdi. Rusiyanın istəyi onun marağına uyğun bir müdafiə müqaviləsinin imzalanması idi. Bu məqsədə çatmaq üçün onlar İrana əsgəri yardım da təklif edirdilər. Nadir bu təklifi qəbul etmədi və bildirdi ki, yaxşısı budur ki, iranlılar öz düşmənlərini özləri diz çökdürsünlər. S.Qolitsın Nadir xana rusların Gilanı boşaltdığını, lakin İrəvan qalası osmanlıların əlində olduğu üçün Dərbənd və Bakını hələ boşaltmayacaqlarını bildirdi. Nadir xan rusların bu davranışından narazı qaldı və rus heyətinin də iştirakı ilə oradan Qafqaza yola düşdü. 1147-ci ilin rəbuiləvvəl ayında (miladi 1734-cü il) Nadirin qoşunları Kür sahilinə çatdılar və Gəncə qalasını mühasirəyə aldılar. Rusların Bakıdan gətirdikləri qaladağıdan vasitələrdən, topxanadan və onları idarə edən mühəndislərdən istifadə edən Nadir xan tezliklə şəhəri ələ keçirdi. Bundan sonra Nadir yaxın əyanlarından olan Mirzə Kafi Xalfanı, Mirzə Əşrəfi və daha bir nəfəri rus çariçasının hüzuruna göndərib öz hüsn-rəğbətini yetirdi. Bu arada ruslar da general Leontyevin komandanlığı ilə 20 minlik ordunu Krıma yeritdilər. Nadir xan osmanlıları ağır məğlubiyyətə uğratdı. Başda komandan Abdullah paşa olmaqla osmanlılar 50 min nəfər tələfat

verdilər. Nadir xan Şamaxını da tezliklə ələ keçirdi, bundan sonra onun gündəliyində artıq Bakı və Dərbənd dururdu. Nadir xana kömək göstərməklə onun bu şəhərləri tələb etməyəcəyinə az da olsa ümid bəsləyən ruslar məcbur olub təxliyə üçün üç ay möhlət istədilər və bu istəyi S.Qolitsın Nadir xana yetirdi. Lakin Nadir xan bu dəfə əsla gözləmək niyyətində deyildi.

Mirzə Mehdi yazır ki, Qolitsın bunu duyaraq dərhal Peterburqa vəziyyəti çatdırdı. İranda günəş papaqlı padşah, ağbanu adlandırılan çariça Anna İvanovna qoşunların təxliyəsi ilə əlaqədar fərman imzaladı. 1147-ci il şəvvalın 25-də, miladi tarixi ilə 1735-ci ilin martında, Novruz bayramı qabağı İranla Rusiya arasında saziş imzalandı. Bu sazişə görə Bakı, Dərbənd və Salyan İrana qaytarılır və İranla Rusiyanın sərhəddi Sulaq qalası və Sulaq çayı boyunca müəyyən edilirdi. Tərəflər əsirləri bir-birinə qaytarırdılar. Hər iki dövlət öhdəyə götürürdü ki, müttəfiqliyi davam etdirəcək, osmanlılar bu iki dövlətdən birinə hücum etdikləri təqdirdə bir-birinə kömək edəcək və bir-birindən xəbərsiz Osmanlı dövləti ilə anlaşma imzalamayacaqlar. Mirzə Mehdi yazır ki, Nadir xan həmin gün adı çəkilən vilayətlərə hakimlər (başçılar) təyin edərək rusların narahatlıq yaratmadan təxliyəsinə lazım olan dəstəyi təmin etməyi əmr etdi (16).

Nadir xan Hindistanın fəthi ilə məşğul olduğu zaman onun qardaşı İbrahim xan Zahiruddövlə Dağıstanda ləzgilər tərəfindən öldürülmüş, Qafqazda İranın siyasi nüfuzu xeyli sarsılmışdı. Nadir xan İranın itirilmiş hakimiyyətini bərpa etməklə yanaşı, həm də qardaşının intiqamını almaq, itaətsiz ləzgiləri ram etmək istəyirdi. Osmanlılar Qafqazdan çəkilməyə məcbur edilmiş olsalar da, hələ Səfəvilərin bu qanuni torpaqlarında İran hakimiyyəti lazımınca bərpa edilməmişdi və bu boşluqdan ruslar faydalanmaq niyyətində idilər. Lakin Nadir şahın Hindistan səfərindən dərhal sonra, fasilə vermədən böyük ordu ilə Azərbaycana gəlməsi və birbaşa Dağıstana hücum etməsi osmanlıları narahat etdiyi kimi, onların köhnə

rəqibi rusları da təşvişə saldı. Nadir şahın Rusiyanın sərhədlərinə yaxınlaşması, Qafqazda və Xəzərboyunda mövqelərini möhkəmləndirməsi rusların gələcək planlarını pozurdu. L.Lekart yazırdı ki, Nadirin yüz əlli minlik ordusunda iranlılarla yanaşı olduqca çox hindli, özbək, əfqan, tatar var idi və belə güman edilirdi ki, bu qədər qüvvənin qarşısında Carutələ ləzgiləri duruş gətirməyib itaət göstərəcəklər. Lakin ləzgilər arvad-uşaqlarını dağlardakı etibarlı sığınacaqlarda yerləşdirərək axıradək vuruşmaq qərarına gəldilər. Nadirin qoşunlarının düşərgələrinə gecə basqını (şəbexuni) edib onun ordusuna xeyli tələfat verdilər və eyni zamanda, çoxlu qənimət də ələ keçirdilər. Bunun əsas səbəbi o idi ki, dağlıq və namünasib təbii şərait irimiqyaslı döyüş əməliyyatlarına, topxanadan səmərəli istifadəyə imkan vermirdi, dağ cığırlarına yaxşı bələd olan ləzgilər Nadir şahın ordusuna ciddi tələfat vururdular, məhz buna görə Dağıstan döyüşləri gözlənilmədiyi halda çox uzandı. Qeyd edilməlidir ki, Nadir şahın Dağıstana yürüşü barəsində həm dövrün mənbələrində, həm də sonrakı tədqiqatlarda kifayət qədər təfsilatlar yer almışdır.

İran tarixçilərindən bir çoxu həmin dövrə dair əsərlərində rusların yalnız Xəzər sahilləri ilə kifayətlənmədiyinə, onların Hind okeanına qədər isti dənizlərə sahib olmaq istəyinə dair fikirlərə yer vermişlər (17).

Nadir şah Xəzər dənizində lazımi hərbi qüdrətə malik olmaq üçün donanma yaratmaq barəsində düşünürdü və bununla əlaqədar ingilis kapitanı Con Eltonla danışıq aparırdı. Nadir şahın nəhəng ordusu il yarım Dağıstanda döyüşlər aparsa da, ləzgilərin müqavimətini qıra bilmədi, eyni zamanda soyuq dağ şəraitində ordunun ərzaq, ot-ələf və sair təchizatı da çox çətinləşdi. Belə çətin vəziyyət yarandığına görə Nadir şah Xəzər dənizi ilə gəmilər vasitəsilə bu təchizatı təmin etməyi düşündü. Lakin İran Xəzər dənizində hələ belə gəmilərə sahib deyildi. Ruslar da Nadir şaha gəmilərlə kömək etmək fikrində deyildilər, hətta hər vəchlə çalışırdılar ki,

ingilis ticarət gəmiləri də Xəzərə yol tapmasınlar, çünki belə olmazdısa Rusiyanın Xəzər dənizindəki üstün mövqeyi qoruna bilməzdi (18).

Dağıstanda müvəffəqiyyət qazana bilməyən Nadir şah 1639-cu ildə Səfəvilərlə Osmanlılar arasında bağlanmış və İranın bir sıra əyalətlərinin Osmanlı dövlətinə verilməsi ilə nəticələnmiş müqavilənin ləğv edilməsi təklifi ilə osmanlı sultanına məktub göndərdi və ikiçayarası beş vilayətin İrana qaytarılmasını tələb etdi. Bu təhdid yeni Osmanlı-İran müharibəsinin başlanmasına səbəb oldu. Nadir şahın ordusu Dağıstandan birbaşa osmanlı sərhədinə yeridildi. Uzun sürən müharibə axır ki, hicri ilə 1159-cu ilin şəban ayının 7-də, miladi tarixi ilə 1746-cı il sentyabrın 4-də Tehran yaxınlığındakı Savcıbulaq məntəqəsində bağlanan sülh müqaviləsi ilə başa çatdı. Bu müqavilə Nadir şaha öz gələcək niyyətlərini həyata keçirmək üçün yaxşı şərait yaradırdı. "Aləm aray-e Naderi" mənbəsinə əsaslanan R.Şəbani bildirir ki, Nadir şah hicri 1159-cu ildə (miladi 1746) Xorasanda ikən topxana və digər təchizatlar hazırlanması üçün fərman vermişdi ki, tezliklə Xəzərin şərq sahillərinə – geniş Türküstan ellərinə yürüşə başlasın (19).

Nadir şahın tarixini yazanlar, xüsusən saray katibi və Nadir şahın sadiq əyanlarından olan Mirzə Mehdi Astrabadi həmin müqavilənin İran-Osmanlı münasibətlərinin yeni mərhələsində mühüm əhəmiyyətə malik olduğunu qeyd etmişdir. Bu müqavilə rusları narahat etsə də, iki böyük imperiyanın bundan sonrakı qarşılıqlı münasibətlərində əhəmiyyətli yerə malik oldu. Osmanlı dövləti yüksək mənsəbli bir nümayəndə heyətini qiymətli hədiyyələrlə Nadir şahın sarayına göndərdi. Nadir şah da öz növbəsində baş müşaviri Mustafa xan Şamlunu və münşi Mirzə Mehdini dəyərli hədiyyələrlə Osmanlı sarayına yolladı. Lakin bu yüksək heyətlərin səfərlərinin nəticəsini görmək Nadir şaha nəsib olmadı (20).

Səfəvilər və əfşarlar dövrünün hadisələrini qələmə alanların əksəriyyəti Nadir şahın həyatının son illərində çox amansız, rəhm-

siz olduğunu, xüsusilə də oğlu Rzaqulu xanın gözünü çıxartdırdıqdan sonra hədsiz əsəbilik keçirdiyini, ani olaraq sərt qərarlar verdiyini, bununla da həm xalq içərisində, həm də sarayda ona qarşı gizli bir nifrətin meydana gəldiyini qeyd etmişlər. Bu kimi hallara baxmayaraq, məhz Nadir şahın qətiyyətli hərbi və siyasi tədbirləri nəticəsində rusların İrandakı on iki illik mövcudluğuna son qoyuldu və istila illərində rus qoşunlarının yerləşdiyi məntəqələrə İran qoşunları gətirildi. Bundan sonra İranla Rusiya arasında münasibətlərin yeni mərhələsi başlandı, burada da İran tarixçilərinin dəfələrlə vurğuladıqları kimi Nadir xanın dəmir iradəsi həlledici rol oynadı. İsfahandan başlayaraq Nadir xanın məiyyətində olan və Rusiyanı təmsil edən S.Qolitsın bütün rus işğalındakı əraziləri təhvil-təslim edəndən sonra ölkəsinə döndü. Nadir xan Mirzə Kafi Nəsiri Xalfanı Rusiyaya səfir təyin etdi və qiymətli hədiyyələrlə yüklənmiş bir fil ilə Peterburqa – çariçanın hüzuruna yola saldı. Rusiya hökuməti də Qolitsının yerinə Kaluşkini səfir təyin etdi. Rusların əsas əndişəsi ondan ibarət idi ki, İranla Osmanlı dövləti müttəfiq və dost olmasınlar, rus səfiri də bu məsələləri diqqət mərkəzində saxlamalı idi. Çünki Rusiya bu iki müsəlman dövlətinin ittifaq və birliyini özü üçün böyük təhlükə hesab edirdi. Lakin Nadir şah Osmanlı dövlətinə qarşı heç bir düşmənçiliyə yol vermədi və hicri 1159-cu ilin şəvval ayının 17-də (miladi ilə 1746-cı il) Tehran yaxınlığındakı Polkərdən məntəqəsində iki dövlət arasında müqavilə imzalandı. Bunun bəhrəsini görmək Nadirə nəsib olmasa da, həmin müqavilə uzun illər üçün iki qonşu müsəlman dövlətinə sülh və həmkarlıq gətirdi.

Nadir şahın fəaliyyəti haqqında qiymətli məlumatlar verən Məhəmməd Kazım yazır ki, hələ Ərdəbildə olarkən Nadir xan rus tacirlərindən Rusiyanın çariçası haqqında məlumat alırdı, heyrətlə soruşurdu ki, Rusiya kimi böyük bir məmləkətə bir qadın necə padşahlıq edə bilir. Nadir xan İranda “ağbanu”, yaxud “ağabanu” adlandırılan çariçanın şəxsiyyətinə xüsusi maraq göstərirdi. Nadir

şahın tacqoyma mərasimindən az sonra çariçanın nümayəndəsi, Həştərxan valisi Ərdəbilə gəlmiş, Nadir şaha çariçanın hədiyyələrini təqdim etmiş, Nadir şah da öz növbəsində çariçara qiymətli hədiyyələrlə xüsusi bir məktub göndərmişdi. "Aləm aray-e Naderi" müəllifinin yazdığına görə Nadir məktubda çariçaya yaranmış rəğbətini və onunla əlaqədar arzularını bəyan etmişdi. Qeyd etmək lazımdır ki, Nadir şah il yarımlıq Qəndəhar əməliyyatlarından qayıdan kimi Məhəmməd Əli bəy Əfşar, Əli bəy və Şirvanın bəylərbəyi Sərdar xandan ibarət bir heyəti səfirlik olaraq Rusiyaya göndərmək barəsində qərar verdi. Rus səfiri bu heyəti müşayiət edirdi, buna görə birlikdə Astaradan gəmi ilə Həştərxana yola düşdülər. Sərdar xan Əfşar xəstəlikdən vəfat etdiyinə görə heyət bu uzun səfəri onsuz davam etdirdi və Əli bəy Nadir şahın hədiyyələrini və məktubunu mələkəyə (çariçaya) təqdim etdi. İran tarixçilərinin bəziləri bu səfərin təfərrüatlarına dair geniş məlumatlar vermişlər (21).

Müasirləri kimi, sonrakı dövrün tarixçiləri də Nadir şahın xarici siyasətinin olduqca uzaqgörən, İranın maraqlarına və mənfəətlərinə uyğun olduğunu vurğulamışlar. İran tarixşünaslığında qeyd olunur ki, Nadir şahın Rusiya-Osmanlı qarşıdurmalarında tutduğu mövqe təqdirəlayiq idi və o, rusların təkid etməsinə baxmayaraq, Osmanlı dövləti ilə bağlanmış sazişi pozmadı, eyni zamanda, Rusiya ilə də yeni müharibəyə girmədən bütün Xəzərsahili vilayətləri azad etmiş oldu.

Nadir şahın xarici dövlətlərin başçıları ilə diplomatik yazışmalarını təhlil edib ona əhatəli ön söz yazaraq 1915-ci ildə nəşr etdirən akademik Ramiz Mehdiyev vurğulayır: "XVII əsrin 20-ci illərində Azərbaycan Səfəvilər dövlətinin süquta uğradığı, ölkə torpaqlarının bir qisminin çar Rusiyası, digər qisminin isə Osmanlı dövləti və əfqan tayfaları tərəfindən istila edildiyi ağır, ümidsiz dövrdə siyasi səhnəyə çıxan və yaranmış faciəli mənzərəni cəmi on il ərzində aradan qaldıraraq, dövrünün ən qüdrətli imperiyasını

qurmağa müvəffəq olan Nadir şah Əfşar tariximizin bu qəbildən parlaq simaları sırasındadır"(22, s.6). Qeyd edilməlidir ki, Ramiz Mehdiyevin bu dəyərli fikirləri həm qəhrəman əfşarlarımızın, həm də Nadir şahın həyat və fəaliyyətinin daha ətraflı və dərindən tədqiqinə yol açacaqdır.

## ƏDƏBİYYAT


1. Maykl Aksvörti. Nadir şah. Ön sözün müəllifi və elmi redaktoru R.Ə.Mehdiyev, tərc.: A.Süleymanova, Ə.Həbibullayeva, N.İbişova – Bakı: Şərq-Qərb, 2018.
2. Rza Şəbani. Tarix- e ectemai- ye İran dər əsr- e əfşariye, çap- e dovvom, celd- e əvvəl. Tehran: nəşr- e Ğums,1373 ,s .79-82, 384-386.
3. Ebrahim Faeği. Azərbaycan dər məsire tarix -e İran, celd -e dovvom, Təbriz: enteşarat -e Yaran, 1375, səh. 902-908.
4. Mirzə Mehdi xan. Cahanqoşayi Naderi, təshih -e Ənvar, Tehran, 1341.
5. Larens Lokhart. Enğeraz-e selsele- ye səfəviyye və əyyam-e estilayi əfğan dər İran, tərcome Mustafağulu Əmad, Tehran,1343; Ceyms Freyzer, Tarixe Nader şah Afşar, Tehran, 1321; Rocer Seyvori, İran əsre Səfəvi, Tehran: enteşarat-e Səhər, 1374.
6. Əli Əkbər Nima. Tarix -e seyasi və diplomasi -ye İran, celd-e əvvəl, əz Qolnəbad ta Turkmənçay, Tehran: enteşarat-e daneşqah-e Tehran, səh. 45-51; Abdulla Razi, Tarix-e kamil İran, Tehran: çapxane-ye Eğbal,1372, səh. 437-446.
7. Rza Şəbani. Həmin kitab, səh. 361-362.
8. Əhməd Kəsrəvi. Tarix-e pansədsale- ye Xuzistan, Tehran: enteşarat-e bonqah-e mətbuati Qutənbərg,1330, səh. 68-69; Abdullah Razi, Tarix-e kamil-e İranəz təsis-e selsele-ye mad ta enğeraz-e qacariyye,Tehran: enteşarate Eğbal, 1372, səh. 435-445.

9. Rza Şəbani. Həmin kitab, səh. 61.
10. Mirzə Mehdi xan. Həmin kitab,səh. 82.
11. Rza Şəbani. Həmin kitab,səh. 388.
12. Yenə orada, səh. 389.
13. Yenə orada, səh. 389.
14. Mirzə Mehdi xan. Həmin kitab, səh. 8-9.
15. Yenə orada, səh. 85-86.
16. Yenə orada, səh. 118.
17. Məhmud Məhmud. Tarix-e rəvabət-e seyasi-ye İran və Engilis,cild 2, səh. 512, 726.
18. Əbdulrza Huşəng Məhdəvi. Rəvabet-e xareci-ye İran (1500-1645) , Tehran: enteşarat-e Əmir Kəbir, 1364, səh. 171-173.
19. Rza Şəbani. Həmin kitab, səh. 412.
20. Yenə orada, səh. 412 .
21. Yenə orada, səh. 411-412.
22. Nadir şah Əfşar. Diplomatik yazışmalar. Akad. Ramiz Mehdiyevin elmi redaktorluğu ilə. Bakı, Şərq-Qərb nəşriyyat evi, 201.

## MÜNDƏRİCAT

**İsa HƏBİBBƏYLİ**.
Milli dövlətçilik tariximizin salnaməsi və dərsləri .......................3

**Nərgiz AXUNDOVA.**
Maykl Aksvörtinin "Nadir şah"ı və Azərbaycan tarixşünaslığı ...... 9

**Gövhər BAXŞƏLİYEVA.**
Milli tarixşünaslığımıza dair konseptual baxış ..........................16

**Şahin MUSTAFAYEV.**
Tarixin və bu günün işığında Nadir şah
*(İngilis şərqşünasının kitabı üzərində bəzi düşüncələr)* ............24

**Vidadi MUSTAFAYEV.**
Maykl Aksvörtinin "Nadir şah" kitabı və müasir dövr .............59

**Səməd BAYRAMZADƏ.**
Maykl Aksvörtinin "Nadir şah" kitabı azərbaycançılıq
baxımından..........................................................................69

**Eynulla MƏDƏTLİ.**
Əfşarlar və Nadir şahın hakimiyyəti İran tarixşünaslığında ......78

Çapa imzalanmışdır: 18.09.2018
Kağız formatı: 60x84 1/16
Həcmi: 6,25 çap vərəqi
Sifariş: 170
Sayı: 300